**Dizayner: Nazim Mir-Ağayev**
**Kompüter tərtibatçısı: Günay Həsənova**

**Yığılmağa verilib: 23.12.04, Çapa imzalanıb 10.01.05, Çap növbəsi: birinci. Kağız formatı: 60x84 $^{1}/_{32}$ Şərti çap vərəqi: 5.375**

**Kitab "Qələm" Nəşriyyatının mətbəəsində hazır deopozitivlərdən, çap olunmuşdur.**
**Ünvan: H.Hacıyev küç. 1. tel: 497-76-10**

**Kitabın çap və s. hüquqları qorunur.**

***(Məşhəd, Qum, Şah Əbdül-Əzim, Cəmkəran)***

BAKI-2005

**Iran Islam Respublikasının Mədəniyyət Mərkəzi, «Ziyarətnamələr». Bakı, «Qələm» - 2005, 172 səh.**

**Hazırlayan: Mir Cəfər Eyyubzadə**
**Redaktor: Dürdanə Cəfəri**
**Məsləhətçi: Məhəmməd Baqir Saivər**

Kitabda müqəddəs ziyarətgahlara və məkanlara səfər və ziyarət etməyin

hökmləri, ziyarətin fəlsəfəsi və irfani əhəmiyyəti, ziyarət və səfərin şəri hökmləri, «Məşhəd ziyarəti», «Məşhədin tarixi», «Imam Riza(ə) həyatı, əxlaqi xüsusiyyətləri, kəramətləri», «Imam Riza(ə) haqqında hədislər», «Qum ziyarəti», «Həzrət Məsumənin (ə) həyatına qısa bir baxış», «Qum ziyarətinin fəziləti və kəramətləri», «Rey ziyarəti», «Həzrət Əbdüləzimin (ə) ziyarətnaməsi» və s. mövzularda geniş və maraqlı, materiallar dərc olunmuşdur.

**© «Iran Islam Respublikasının Mədəniyyət Mərkəzi »-2005**

**Bismillahir-Rəhmanir-Rəhim**

Allah-taala cənab Cəbrail vasitəsilə sonuncu Peyğəmbər həzrət Mühəmmədə (s) «(Ya Peyğəmbər!) De: «Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara (Əhli-beytə) məhəbbətdən başqa bir şey istəmirəm»» ayəsini nazil etdikdən sonra qəlbi pak insanlar başa düşdülər ki, Peyğəmbərə və nəticədə Allaha yaxın olmağın yeganə yolu o həzrətin Əhli-beytinə sevgidir və bunun da xeyri yalnız insanların özünədir. Qurani-Kərim də bunu təsdiqləməkdədir: «De: «Mən (bunun-Əhli-beytimə məhəbbətin müqabilində) sizdən istədiyim şey sizin öz xeyrinizədir.»» Buna görə də Peyğəmbər (s) bu dünyadan köçərkən ümməti arasında iki dəyərli əmanət-Allahın kitabı və öz Əhli-

beytini qoyaraq buyurdu ki, bu iki əmanətin ardınca getsəniz, səadətə qovuşar, əks təqdirdə yolunuzu azarsınız.[1] Digər bir hədisdə isə o həzrət buyurmuşdur: «Mənim Əhli-beytim ümmətim arasında Nuhun gəmisinə bənzəyir. Bu gəmiyə minən nicat tapar, ona minməyən isə həlak olar». Bundan sonra pak qəlbli möminlər Peyğəmbər Əhli-beytinə məhəbbət bəsləyib «Ona (Allaha – Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) vəsilə (yol) axtarın» ayəsinə müvafiq olaraq bütün ömrü boyu, hətta ölümdən sonra da qəlbən onlara bağlandılar və öz arzu-istəklərinin, hacətlərinin qəbul olunması üçün onları vasitə qərar verməyə başladılar. Çünki onlar Allahın sevimli bəndələridirlər və duaları, şəfaətləri Allah dərgahında qəbul olur. Onlar Quran təfsirçiləridirlər və Quranın sirlərini onlardan öyrənmək lazımdır. Onlar Ilahi hökmləri açıqlayanlardırlar, hökmlərin düzgününü onlar bilir. Onlar pak nurlardırlar, həqiqət nurunu məhz onlarda müşahidə etmək lazımdır. Bir sözlə, onlar o şəxslərdirlər ki, dünya və axirət səadətini yalnız onların məhəbbətiylə qazanmaq olar.

---

[1] Bu, «Səqəleyn» hədisinə işarədir. Həmin hədisdə Peyğəmbər (s) buyurmuşdur: «Mən sizin aranızda iki qiymətli (dəyərli) əmanət qoyub gedirəm. Biri Allahın kitabı, o birisi də Əhli-beytimdir. Bunlar (Cənnətdə) Kövsər bulağının başında mənə qovuşmayanadək bir-birindən ayrılmazlar. Bunların ardınca getsəniz, heç vaxt yolunuzu azmazsınız.»

Uzun əsrlərdən bəri qəlbində Peyğəmbər ailəsinə məhəbbət bəsləyən Azərbaycan xalqı həmişə, yaşadığı yerdən asılı olmayaraq Əhli-beytin ziyarətinə tələsmiş, hərəmləri ətrafına pərvanə tək fırlanmışdır. Bununla

əlaqədar olaraq Iran Islam Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzi göstərdiyi dini-mədəni xidmətlər sırasında müqəddəs ziyarətgahları ziyarətə gedən azərbaycanlı bacı-qardaşlar üçün «ziyarətnamə» hazırlamışdır. Ümid edirik ki, bu kiçik xidmət Əhli-beyt və Əhli-beytsevərlər tərəfindən rəğbətlə qarşılanacaq.

Əlinizdə olan bu kitabça imamət aləminin səkkizinci parlaq günəşi Imam Əli ibn Musa ər-Rzanın qısaca həyatını, o həzrəti ziyarət etməyin fəzilətini, ziyarətin hökmləri və ziyarətnaməsini ehtiva edir. Ulu tanrıdan Islam və müsəlmanlara daha artıq xidmət göstərməyimizə yardımçı olmasını diləyirik.

***Iran Islam Respublikasının Bakıdakı səfirliyinin Mədəniyyət Mərkəzinin sədri Seyyid Əliəkbər Ocaq Nəjad***

## MÜQƏDDIMƏ

Allah-Təala öz hikmət və mərhəmətilə vəhy əmanətdarına, peyğəmbərlərin sonuncusu Muhəmməd Mustəfanın (s) pak, nurani qəlbinə

**قُلْ لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى**

"De: Mən [Peyğəmbər] sizdən bunun (risalətimin) müqabilində qohum-əqrabama qarşı məhəbbətdən başqa heç bir şey istəmirəm"[2] kəlamını vəhy etdikdə qəlbi pak möminlər bunu başa düşdülər ki, Allahın Rəsuluna (s) və dərgahına yaxın olmağın yeganə yolu sonuncu Peyğəmbərinin (s) xanədanına əməldə və qəlbdə məhəbbət bəsləməkdir. Bu məhəbbətin nəticəsi möminlərin xeyrinədir və onların xoşbəxtliklərini təmin edir.

Islam Peyğəmbəri (s) Allahın əmri ilə açıq-aşkar belə buyurmuşdur:

**قُلْ مَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ فَهُوَ لَكُمْ**

"Sizdən istədiyim əcr (əhli-beyt məhəbbəti) sizin özünüz üçündür, öz xeyrinizədir"[3]

Odur ki, Peyğəmbəri-Əkrəm (s) dünyadan köçərkən ümmət arasında iki böyük qiymətli əmanət – Allahın kitabını və öz itrətini qoyub getmiş və "Bu iki əmanətin ətəyindən yapışsanız, nicat tapar, əks-təqdirdə isə həlak olarsınız" – deyə buyurmuşdur[4].

---

[2] əş-Şura surəsi, ayə 23.

[3] Səbə surəsi, ayə 47.

[4] Səqələyn hədisinə işarədir ki, Peyğəmbər (s) buyurmuşdur: " اني تارك فيكم الثقلين كتاب الله و عترتي اهل بيتي لن يفترقا حتي يري عليَّ الحوض ان تمسكتم بهما لن تضلوا الدا" "Mən sizin aranızda iki qiymətli əmanət qoyuram: Allahın kitabı və əhli-beytimi. Kövsər hovuzunun

إنما مَثلَ اهل بيتي فيكم كمثل سفينة نوح من ركبها نجا و من تخلف عنها هلك

"Mənim əhli-beytim Nuhun gəmisinə bənzəyir, hər kim ona süvar olsa, nicat tapar, hər kim ondan ayrılsa, həlak olar."[5]

Odur ki, Peyğəmbərin (s) əhli-beytinə eşq bəsləyən möminlər

وَابْتَغُواْ إِلَيهِ الْوَسِيلَةَ

"Onun (Allahın) dərgahına (yaxın olmaq üçün dərgaha yaxın olanlardan və saleh əməllərdən) özünüzə vəsilə tutun"[6] – ayəsinə əsaslanaraq əhli-beytin pak vücudunun şamı ətrafında pərvanə kimi fırlanır, dərdlərinin şəfası və arzularının həyata keçməsini onların vasitəsilə Allahdan diləyirlər. Əhli-beyt Allah dərgahına ən yaxın bəndələr olduğu üçün duaları müstəcab və şəfaətləri qəbuldur. Onlar Quranın təfsirçiləridir, ayələrin izah və şərhini onlardan soruşmaq lazımdır.

Onlar ilahi hökmləri bəyan edənlərdirlər, hökmlərin düzlüyünü onlardan soruşmaq lazımdır. Onlar pak-pakizə nurlardırlar. Onlar həqiqət nurudur və həqiqət nurunu onlarla birlikdə olanlar dərk edər.

---

yanında mənimlə görüşənədək bunların ikisi bir-birindən ayrılmayacaqdır. Əgər bunların ikisindən möhkəm yapışsanız, heç vaxt yolunuzu azmayacaqsınz".

[5] "Səfinət" hədisinə işarədir.

[6] əl-Maidə, 35.

Nəhayət, onlar elə şəxslərdir ki, dünya və axirət xoşbəxtliyini onların vilayətində aramaq lazımdır.

Azərbaycan Respublikasının müsəlman xalqı keçmiş əsrlərdən bəri ismət və təharət xanədanının vilayətinə könül verərək məhəbbət bəsləmişlər. Hər zaman onların ziyarətinə tələsib, mübarək hərəmlərinə qədəm qoymuşlar. Vəliyyi-fəqihin Azərbaycan Respublikasında olan nümayəndəsi Azərbaycanın əhli-beytə məhəbbət bəsləyən xalqına dini və mədəni xidmət məqsədilə ziyarətgahların zəvvarları üçün yol azuqəsi hazırlamaq niyyətindədir.

Ümid edirik ki, bu kiçik xidmət vilayət sahibləri tərəfindən qəbul edilib istifadə olunacaqdır. Möhtərəm oxucuların ixtiyarına təqdim olunan bu kitab səkkizinci imam Əli ibn Musa ər-Riza (ə), Həzrət Məsumə (ə) və Həzrət Əbdüləzimin ziyarətlərinin hikmətlərindən, fəzilətlərindən və ziyarətnaməsindən ibarətdir. Allah-Təaladan diləyirik ki, Islama, müsəlmanlara daha çox xidmət etmək şərəfini bizlərə nəsib etsin.

# I FƏSIL

# ZIYARƏT VƏ SƏFƏR

## *ZIYARƏTIN FƏLSƏFƏSI VƏ IRFANI ƏHƏMIYYƏTI*

Şübhə yoxdur ki, qəbirləri ziyarət etmək insanı qəflət yuxusundan oyadır, onu axirət barədə düşünməyə vadar edir. Buna görə də, Peyğəmbəri-

Əkrəmdən (s) nəql olunan bir çox sünni və şiə hədislərində möminlərə qəbirləri ziyarət etmək tövsiyə olunmuşdur. Nümunə üçün onlardan ikisini qeyd edirik.

" 1. زوروا القبورَ فإنّها تذ كركـم الآخرة[7]

Qəbirləri ziyarət edin, çünki onları ziyarət etmək axirəti sizə xatırladar.

" **2.** زوروا القبور فإنّ لكم فيها عبرة [8]"

Qəbirləri ziyarət edin ki, onda sizin üçün örnək vardır.

Şübhəsiz, insanın əzizlərinin, alimlərin, Allah və vətən uğrunda şəhid olanların qəbirlərini ziyarət etmək axirəti xatırlamaqdan əlavə, bir növ onlara hörmət etmək, onların xatirəsini və getdikləri yolu yaşatmaq mənasındadır. Bu əməl bütün millətlər, xalqlar arasında fitri səciyyəyə malikdir. Islam Peyğəmbəri (s) və məsum imamlar (ə) dillə vəsf olunmaz elə böyük bir mənəvi varlığa malikdirlər ki, ölümləri də həyatları kimi dəyərlidir. Insan onların həyatında olduqları kimi vəfatlarından sonra da onlarla rabitə saxlayıb özü ilə Allah arasında vasitə və şəfaətçi edə bilər. Allah-Təala bu məsələ haqqında "Nisa" surəsinin 64-cü ayəsində buyurur:

---

[7] Sünəni ibn Macə, c.1, s.500, hədis 1569

[8] Kənzül-Ummal, c.15, c.647, hədis 42558

وَلَوْ أَنَّهُمْ إِذ ظَّلَمُواْ أَنفُسَهُمْ جَآؤُوكَ فَاسْتَغْفَرُواْ اللّهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُواْ اللّهَ تَوَّابًا رَّحِيمًا

"Halbuki onlar özlərinə zülm edən zaman (günaha batsalar) (ey Allahın Rəsulu) sənin yanına gəlib öz bağışlanmaqlarını diləsələr və Peyğəmbər də onlar üçün bağışlanma istəsə, Allahı tövbəni qəbul edən və rəhmli görərlər."

Beləliklə, həqiqətdə şəxsiyyətlərin və Allah höccətlərinin qəbirlərini ziyarət etmək onların müqəddəs hüzurlarına yetişmək xarakterini daşıyır. Belə deyil ki, yalnız Peyğəmbərin (s) və imamların (ə) zamanında yaşayan insanlar o həzrətlərin vücüdündan istifadə etmiş və onların dövründən uzaq zamanlarda yaşayan insanların isə əli Peyğəmbər (s) və imam (ə) vücudunun feyzindən əli üzülmüşdür. Bu Allahın ədaləti ilə uyğun gəlmir. Əksinə, zaman və məkanından asılı olmayaraq hər bir insanın Allahla bəndələri arasında vasitəçi olan bu ilahi şəxsiyyətlərlə rabitəsi mümkündür. Onların müqəddəs hərəmlərini ziyarət etmək belə rabitələr qismindən sayılır.

Bir məsələni də qeyd etmək lazımdır ki, ziyarətdə fəlsəfə və dəlil-sübutdan əvvəl eşq və məhəbbət gizlənmişdir. Ağıl hesablayıb  nə üçün?" sualına cavab tapmazdan qabaq qəlb fərman vermiş və ziyarətçini məzara çatdırmışdır.

Ziyarət vadisi əqli hesablama və düşüncə vadisindən əvvəl qəlb və daxili istək vadisidir.

Zəvvar ziyarət olunanın kimliyini bilsə və tanısa, artıq soruşmaz "Haradadır?" Xızır (ə) kimi dirilik suyunun və Musa (ə) kimi "saleh bəndə"nin ardınca yola düşər ki, tapsın və arzusuna çatsın. "Ziyarət" bu mənadadır. Qəlbin bağlılığı, məhəbbət və istəkdir.

Zəvvarı yolları qət etməyə, səfər əziyyətlərinə dözməyə, səhranın qorxu və təhlükəsini nəzərə almamağa vadar edən qüvvə qəlbin məhəbbətidir. Eşq olan yerdə yorğunluq sənə qalib gəlməz. Məhəbbət olan yerdə əziyyət gizlənər, şövq ətalətli insanı hərəkətə gətirər, sakini mühacir edər, xoş güzəran arzusunda olanı səhra yolçusuna çevirər.

Ziyarətin təhlili üçün çoxlu elmi dəlil-sübut sorağına getmək lazım deyil. Elm yolu yalnız işıqlandıra bilər, lakin məna, qəlb və eşq yolu həm işıqlandırar, həm də isidər. Xüsusən, əgər eşq kamil məşuq və mütləq məbud olan Allaha olarsa, bu yolu həm yaradar, həm də yandırar. Əmir əl-mömininin (ə) buyurmuşdur: "Allahın məhəbbəti yanan bir atəş və Allah nuru işıqlandıran bir parıltıdır."

**حب الله نار لا ثمر علي شيٍ الا احترق و نور الله لا يطلع علي شيءً الا اضاء**[9]

9 Mizanul-Hikmət, c.1, s.509

Görürük ki, imamın bəyanında məhəbbət həm yandıran, həm də işıqlandıran kimi təqdim olunmuşdur.

Eşq insanın müəllimidir. Eşq aləmin memarıdır. Eşq qəlbin abadlaşdıranıdır.

Sinədə Allah Rəsuluna (s), əhli-beytə məhəbbət dağı olan kəs bu məhəbbətin yolunda olan əzab və məşəqqətlərlə yanaşı addımlayır. Məgər səhralardan məhbubun diyarına gedərkən yol üstündə olan tikanları ayaqda görməmək olarmı? Bu eşqin xüsusiyyətidir. Əlbəttə, bunların hamısı məhəbbət yolunda şirindir və "Dostdan gələn hər bir şey xoşdur".

Bəziləri imamların xidmətinə yetişirdilər və deyirdilər ki, biz siz əhli-beyti sevirik və onlar cavab verirdilər: "Elə isə çətinliyə və məhrumiyyətə dözməyə özünüzü hazırlayın."

**من احبنا اهل البيت فليعد للفقر جِلبابا**[10]

Allah və Onun övliyalarının məhəbbətinə könül verənlər dostun sorağında dolaşır və onun bəyəndiyinə razı olurlar. Onlar nə rahatlıq, nə əziyyət, nə qəm və nə də şadlıq fikrindədirlər.

Eşqin "bəla" şəklində nəvazişləri, "əziyyət" şəklində rəhmətləri vardır. Bunlar aşiq üçün əzizdir. Bunlar məşuqun aşiqə inayətinin nişanəsidir.

---

10 Mizanul-Hikmət, c.1, s.520

Bir sözlə həyatın pak cövhəri, həyatın ruhu eşq və məhəbbətdir və məhəbbətsiz eşq quru, soyuq və cansızdır. Intəhası məhbublar və məşuqlar məhəbbət və eşqə layiq olmalı, onun dəyərini qazanmalıdır ki, insan öz eşqini onun ayaqları altına atsın və qəlbini onların məhəbbətinin evi etsin.

Dində ən üstün məşuqlar Allah, Rəsulu (s), məsum imamlar, salehlər, siddiqlər, şəhidlərdirlər. Məhz bunlar məhəbbətə layiqdirlər. Din də məhəbbət təkəri ilə fırlanır və imam Sadiqin (ə) təbiri ilə desək – "Din məhəbbətdən başqa bir şey deyil. "

**هل الدين الا الحب** [11]

Lakin aydındır ki, əgər məhəbbət gəlsə, ardınca itaət, ibadət, bəndəlik, məhbuba uyğunluq, məşuqa oxşamaq, Onun istəyi istiqamətində hərəkət, Onun rizası uğrunda əməl və s. gəlir. Məhz məhəbbət təsiri qəlbdən bütün bədənə sirayət edir və daxildən xarici əməlləri nizamlayır.

Eşq və şövqü olan ziyarətə də gedər.

Şövqlü aşiq üçün təkcə Məhbubun özü maraqlı və cəlbedici deyil, həm də Ondan olan hər bir şey xoşagələn, cazibəlidir, bu da aşiqi özünə tərəf çəkir.

Ziyarət də belədir. Necə ola bilər ki, Allah aşiqi, Peyğəmbər (s) və əhli-beyti sevən, salehlər, siddiqlər, şəhidlər, Allah övliyalarının vurğunu olan kəs Allahın

---

11 Biharul-Ənvar, c.69, s.237

evi, məşuqun məzar, şəhər, diyarının şövqünə malik olmasın?!

Mərhum Əllamə Əmini deyir: "Mədineyi-Münəvvərənin möhtərəm ilahi hərəm sayılması, nəbəvi sünnədə Mədinə, onun torpağı, əhalisi, dəfn olunanlar üçün çoxlu dəyərlər bəyan olunması Allah və Peyğəmbərə (s) mənsubluğuna görədir. Həmin məntiqlə Peyğəmbər (s), ilahi vəsi və övliyalara, siddiqlər, şəhidlər və möminlərə aid olan hər şey dəyər qazanır və şərafət tapır"[12]

Insanın daxili şövqünün biruzə çıxmasının bir növü də ziyarət formasında təzahür edir. Ziyarət məhəbbətin dili və qəlbi bağlılığın tərcüməçisidir.

Aşiq üçün hətta məşuqun bir gün sakin olduğu ev, bir gün keçdiyi küçə, qədəm qoyduğu yer, bir gün yaşadığı şəhər, məhbubun əli dəyən daş, geyindiyi libas belə əziz və sevimlidir.

Bu yerdə deyilir: "Leylinin diyarından keçirəm, bu divar, o divarı öpürəm, Leylinin diyarına məhəbbət qəlbimi işğal etmişdir. Hətta orada yaşayan kəs məni özünə məftun etmişdir." Görürük ki, şəhərin cazibəliyi Leylinin orada olmasına görə gözəllik və cazibə qazanmışdır.

Ziyarətdə məsələ zahirdə daş, taxta, kərpic, dəmir, zireh, məzarın quruluşu, günbəz, minarə və s. ilə bitmir ki, bunları ziyarət, öpmək və müqəddəsləşdirməyə irad tutulsun. Ümdə rol

---

[12] Ziyarət, s.11

bunlardan çox-çox üstün olan məhəbbət, dərk etmə, mənəviyyat, eşqdir ki, hətta bunlara da məna, cəhət, müqəddəslik və hörmət bəxş etmişdir. Qəlb bu eşqin girovunda olanda, o qəlb sahibinin məhbubunun ad, dəsmal, ayaqqabı, küçə və şəhərindən xoşu gəlir və ləzzət alır. Bunların hamısı onu cəlb edir və bunlardan hər birində yarın üzünün əksini görür.

Biz Həzrət Muhəmmədə (s) olan belə böyük məhəbbətlə bir yerdə onun nişanəsi olduğunu bilsək, onu görməyə tələsmərikmi?! Məscidül- Həramda "Ibrahimin məqamı" niyə bu qədər xatirələrdə qalıb? Ona görə ki,  Həzrət Ibrahim Kəbə divarını yüksəltmək üçün oğlu Ismayılın köməyi ilə onu ayağının altına qoymuş və onun ayaq izi daşda qalmışdır.

Görürük ki, ziyarət vadisi eşq, məhəbbət və irfan vadisidir. Qəlbin əhatə dairəsində bəzən ağlın ayağı da axsayır və eşq fərman verəndə ağlın təslim olmaqdan savayı çarəsi olmur.

Bəli, eşq olanda dostun yolundakı torpağı gözün sürməsi etmək lazımdır. Aşiq üçün məhbub, onun görüşü, ona aid olan hər bir şey əziz və dəyərlidir. Deyilənlərdən belə nəticəyə gəlirik ki, məhəbbət insanı ziyarətə vadar edir.

Fikrimizcə, bundan artıq izaha ehtiyac yoxdur. Bu ziyarət səadətinə nail olanlar onun əxlaqi və digər müsbət təsirlərini özlərində aydın olaraq müşahidə edirlər.

***ZİYARƏTİN QAYDALARI***

Ziyarətin bir çox hökmləri vardır. Onların bəzisini sizin nəzərinizə çatdırırıq:

1. Ziyarət səfərinə çıxmaqdan əvvəl qüsl etmək.
2. Yolda mənasız söhbətləri və yersiz mübahisələri tərk etmək.
3. Ziyarət qüslü etmək və qüsl alarkən qüsl duasını oxumaq.
4. Təharətli olmaq (dəstəmaz almaq).
5. Təmiz, gözəl və yeni libas geymək.
6. Hərəmə vüqarlı və kiçik addımlarla, xüzu-xüşu ilə öz ətrafına diqqət etmədən getmək.
7. İmam Hüseynin (ə) ziyarəti istisna olmaqla digər imamların ziyarətində ətirlənmək.
8. Hərəmə gedərkən "əl-Həmdu lillah", "Allahu-Əkbər", "Sübhanəllah", "la ilahə illəllah" demək və Muhəmməd (s) və Ali Muhəmmədə salavat göndərmək.
9. Hərəmin qapısında dayanıb daxil olmaq üçün izn istəmək, ürəyini yumşaltmaq və xüzu-xüşu əldə etmək üçün səy etmək, pak qəbir sahibinin əzəməti və cəlalı, Həzrətin onun qapı ağzında durmasını görməsi, kəlamını eşitməsi, salamının cavabını verməsi haqqında fikirləşmək və Həzrətin öz şiələrinə və zəvvarlarına qarşı etdiyi mərhəmət, məhəbbət barədə düşünmək, öz keçmiş pis əməllərilə onları

incidibsə, o əməllərini yada salıb qəlbi kövrəltmək, tövbə etməyi qərara almaq və gözləri yaşartmaq.

10. Mübarək giriş qapısını öpmək.

11. Sağ ayaqla daxil olmaq, sol ayaqla çıxmaq.

12. Zirehə (qəbri əhatə edən kiçik hasara) yaxınlaşıb ona söykənmək və onu öpmək.

13. Ziyarət edərkən üzü şərif qəbrə tərəf durmaq.

14. Ayaq üstə ziyarətnamə oxumaq.

15. Ziyarəti qurtardıqdan sonra sağ üzünü zirehə qoyub yalvararaq dua etmək, sonra sol üzünü zirehə qoyaraq Allahı qəbrin sahibinə and verərək şəfaətinə nail olmasını istəmək. Sonra qəbrin baş tərəfinə gedib üzü qibləyə dayanaraq dua etmək.

16. Şərafətli qəbri gördükdə ziyarəti oxumazdan əvvəl təkbir – "Allahu-Əkbər" demək.  Hədisdə nəql olunur ki, kim İmamın (ə) qarşısında dayanıb "la ilahə illəllah vəhdəhu la şərikə ləh" desə, böyük Allahın "Rizvan" adlı Cənnəti onun üçün yazılar.

17. Məsumların (ə) buyurduğu duaları oxumaq.

18. Ziyarət namazı qılmaq və birinci rəkətdə "Həmd"dən sonra "Ya sin" surəsi, ikinci rəkətdə isə "Həmd"dən sonra "ər-Rəhman" surəsini oxumaq yaxşıdır.

19. Hərəmin ətrafında olan miskinlərə, yoxsullara, fəqirlərə infaq və ehsan etmək.

20. İmamın (ə) şəhərindən çıxmaq istədikdə nəql olunmuş dualarla imamla (ə) vidalaşmaq.

21. Ziyarət zamanı kişi və qadınların ayrı-ayrılıqda ziyarət etməsi.

22. Başqalarının da rahat ziyarət etməsinə şərait yaratmaq.

***SƏFƏR QAYDALARI***

Qurani-Kərimdə Allah-Təala dəfələrlə insanları yer üzünü seyr etməyə dəvət etmişdir.

قُلْ سِيرُوا فِي الْأَرْضِ فَانظُرُوا كَيْفَ بَدَأَ الْخَلْقَ ثُمَّ اللَّهُ يُنشِئُ النَّشْأَةَ الْآخِرَةَ إِنَّ اللَّهَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ

De: "Yer üzündə gəzib dolanın və görün ki, Allah yaratmağa necə başlayıb, sonra sonuncu yaradılışı da yaradacaqdır. Həqiqətən Allah hər şeyə qadirdir. "[13]

Təbii ki, səfərə çıxmağın yaxşı və pis adamların həyat tərzində olan xüsusiyyətlərindən faydalanmaq, böyük Yaradanın yer üzündəki nişanələrini görüb yaranış haqqında düşünmək və bir çox başqa faydaları vardır. Xüsusilə, övliyaları ziyarət etmək kimi müqəddəs bir məqsədlə səfərə çıxmaq daha çox əhəmiyyət kəsb edir. Lakin səfərə çıxmağın faydası olduğu kimi məhrumiyyətləri də vardır. Odur ki, insan daimi rahatlığı olan evindən ayrılıb adət etmədiyi mühitə düşərkən evdəki rahatlığı gözləməməli, yeni tanış olduğu adamlarla xoş rəftar etməyi bacarmalıdır. Bu həm də insana özünü tanımağa

---

[13] Ənkəbut surəsi, ayə 20

kömək edir və insanın nə qədər təvazökar və ya lovğa, səbrli və ya dözümsüz olduğunu göstərir. Bəlkə də tək səfərə çıxmağın dinimizdə xoşagəlməz hesab olunması bu və ya digər xüsusiyyətləri düzgün formalaşdırmaq məqsədini daşıyır. Bu məsələləri əsas tutaraq səfərə çıxmağın qaydaları barədə məlumat veririk.

İmam Muhəmməd Baqir (ə) imam Səccaddan (ə), o da Allah Rəsulundan (s) nəql edərək buyurur: Peyğəmbər (s) səfərə çıxan möminləri yola salaraq vidalaşan zaman bu duanı oxuyardı:

**زَوَّدَكُمُ اللهُ التَّقْوي وَ وَجَّهَكُمْ خَيْرًا وَقَضَي لَكُمْ كُلَّ حَاجَةٍ وَسَلَّمَ لَكُمْ دينَكُمْ وَ دُنْيَاكُمْ وَرَدَّكُمْ سَالِمينَ**

"Allah sizə təqva azuqəsi versin, xeyirlə qarşılaşasınız, hacətinizi əta etsin, sizin din ilə dünyanızı sağlam saxlasın və sizi sağ-salamat geri qaytarsın."

***Səfər duası***

بِسْمِ اللهِ وَ بِاللهِ وَ مِنَ اللهِ وَ اِلَي اللهِ وَ فِي سَبِيلِ اللهِ اَللّهُمَّ إِلَيْكَ أَسْلَمْتُ نَفْسِي وَ إِلَيْكَ وَجَّهْتُ وَجْهِي وَ إِلَيْكَ فَوَّضْتُ أَمْرِي فَاحْفَظْنِي بِحِفْظِ الأيمَانِ مِنْ بَيْنِ يَدَيَّ وَ مِنْ خَلْفِي وَ عَنْ يَمْينِي وَ عَنْ شِمَالِي وَ مِنْ فَوْقِي وَ مِنْ تَحْتِي وَ ادْفَعَ عَنِّي بِحَوْلِكَ وَ قُوَّتِكَ فَاِنَّهُ لا حَوْلَ وَ لا قُوَّة اِلّا بِاللهِ الْعِلِّي الْعَظِيمِ

"Allahın adı ilə, Allah ilə, Allah tərəfindən Allaha tərəf və Allah yolunda. İlahi, özümü Sənə tapşırdım, Sənə tərəf üz tutdum və işimi Sənə tapşırdım. Məni və mənim imanımı öndən və arxadan, sağdan və soldan, yuxarıdan və aşağıdan qoru! İlahi, hər cür zərər və pisliyi Öz qüdrət və qüvvətinlə məndən uzaqlaşdır. Uca və əzəmətli Allahdan başqa heç kəsdə qüdrət və qüvvət yoxdur!"

### *SƏFƏRƏ ÇIXANLARA TÖVSİYƏ*

1. Səfərdə lazım olan diş fırçası, dəsmal, sabun, bıçaq, ip və sap, iynə, dırnaqtutan, daraq və s. bu kimi əşyaları götürmək.

2. Səfərə çıxmazdan öncə dost-tanışdan, qohum-əqrəbadan və yaxın adamlardan halallıq almaq və onlarla vidalaşmaq.

3. Quran, dua kitabı və həmin səfərə aid olan kitabları mütləq götürmək.

4. Səfər müddətində yersiz istəklərdən tamamilə uzaq olmaq.

5. Daha yaxşı və çoxlu yemək, daha münasib məkan (otaq) əldə etmək üçün digərlərini qabaqlamaq və bu kimi ərköyün işlərdən uzaq olmaq.

6. Oturacaq, yataq və otaq qonşularının bir-biri ilə tanış olması, biri xəstələndiyi, ya azdığı və yaxud nəyəsə ehtiyacı olduğu zaman soraqlaşmaq və yardım etmək.

7. Maşın hər hansı bir zərurət üzündən yolda dayandığı zaman zərurət olmadan maşından düşməmək və başqalarının vaxtını tələf etməmək.

8. Yemək-içmək vaxtı ehtiyatlı olmaq, halal yemək və çox yeməmək.

9. Hər hansı bir iş üçün dəstədən ayrılarkən nigarançılıq olmasın deyə dəstə başçısına, yol yoldaşına və ya otaq yoldaşına xəbər vermək.

10. Xəbər verib getdikdən sonra yol yoldaşlarının vaxtını tələf etməmək üçün qərarlaşdırılmış vaxtda qayıtmaq.

11. Qrup şəklində səfər edərkən yalnız dəstə başçısından kömək istəyib problemləri məhz ona söyləmək.

12. Əgər həkim məsləhəti və ya başqa bir üzr yoxdursa, yemək zamanı yoldaşlardan ayrılmamaq və xüsusi təam yeməmək.

13. Gecə namazı, Quran tilavəti və dua kimi müstəhəbb işləri başqalarına əziyyət verməmək şərtilə yerinə yetirməkdə diqqətli olmaq.

14. Maşında, otaqda, bir sözlə həmişə təmiz və səliqəli olmaq.

15. Tapılması asan olsun deyə bağlamaların, yüklərin və çamadanların üzərində ad və soyadı yazıb yapışdırmaq.

16. Qiymətli əşya və kağızları etibarlı yerdə qorumaq.

17. Başqalarına əziyyət verməmək üçün maşında və otaqda siqaret çəkməmək.

18. Maşında və otaqda ucadan danışmamaq.

19. Gələcəkdə övladların və ümumiyyətlə oxuyanların faydalanması üçün maraqlı hadisələri qeyd etmək üçün xatirə kitabçası götürmək.

20. Taxdığı gözlük və qulaqlığın nömrə və nüsxəsini götürmək (həmin əşyalar itdiyi və ya sındığı zaman yenisini almaq üçün).

21. Maşın, otaq və s. müştərək istifadə olunması lazım olan yerlərdə növbəni gözləmək.

22. Qocalara və yaşlılara hörmət, zəiflərə kömək və uşaqlara məhəbbət göstərmək.

## *SƏFƏRƏ ÇIXANLARIN ŞƏRİ HÖKMLƏRİ*

İnsan səfərdə dörd rəkətli namazları iki rəkətli (qəsr) qılmalıdır, amma bu şərtlə ki, səfəri səkkiz fərsəxdən (təqribən 45 km) az olmasın.

Vətən insanın doğulduğu yer, yaxud qalmaq və yaşamaq üçün seçdiyi yerdir.

Nə qədər ki, insan vətəni olmayan bir yerdə həmişəlik qalmaq niyyətində deyil, ora onun vətəni hesab olunmur.

Səfərə çıxan şəxs vətənə qayıdarkən şəhərin divarını görə biləcək və azanını eşidə biləcək bir yerə çatanda namazı tamam qılmalıdır.

1. Əgər səfərə çıxan namazını tamam (dörd rəkət) qılmalı olduğu yerdən (vətən kimi) azı dörd fərsəx gedib dörd fərsəx qayıtsa, namazı şikəstə qılmalıdır.

2. Səfərə çıxan şəxs namazı o zaman qəsr qıla bilər ki, qaldığı yerdən oranın divarlarını görünməyəcək və azan səsini eşidilməyəcək qədər uzaqlaşmış olsun. (Bu fasiləyə "həddi-tərəxxüs" deyirlər). Əgər bu qədər uzaqlaşmamış namaz qılmaq istəsə, tamam qılmalıdır.

3. Əgər divarı olmayan bir yerdən səfərə çıxırsa, gərək fərz etsin ki, əgər divar olsaydı nə qədər getdikdən sonra gözdən itərdi.

4. Bu yerlərdə namaz tamamdır:

1) Səkkiz fərsəxə çatmamış öz vətənindən keçərsə.

2) Səkkiz fərsəx getmək niyyəti olmadığı halda.

3) Peşəsi səfər olan şəxs işlə əlaqədar səfərə gedərsə

4) Haram səfərə çıxarkən.

5) Vətəndə və insanın on gün və daha artıq qalmaq niyyətində olduğu yerdə namaz tamamdır.

# II FƏSİL
# MƏŞHƏD ZİYARƏTİ

## *MƏŞHƏDİN TARİXİ*

"Məşhəd" sözü "şühud", "hüzur" və "şəhadətgah" (şəhid olunan yer) mənasındadır, və bu "məşahid" məşhəd sözünün cəmidir. Məşhəd və məşahid sözləri hicri-qəməri təqvimi ilə üçüncü yüzillikdə imamların (ə), övliyaların və tanınmış şəxslərin məzarlarına aid edilirdi. Məsələn, o dövrdə belə deyilirdi: Morğabın Məşhədi (Fars əyalətində), Mihənənin Məşhədi (Əbu Səid Əbülxeyrin məzarı) və Tus Məşhədi, yaxud Rəzəvi Məşhəd (Xorasanda imam Əli ibn Musanın (ə) türbəsi).

"Surətul-ərz" kitabının müəllifi ibn Həvqəl (367-ci h.q) yazır: "Əgər Tus da Nişapur vilayətinə aid olsa, o zaman onun şəhərləri Raykan, Təbəran və Noğandan (Toroğuz) ibarət olacaq. Əli ibn Musa ər-Rizanın (ə) qəbri Noğan şəhərinin yaxınlığında Sənabad kəndində yerləşir."

202-ci (h.q.) ildə Həzrət Riza (ə) Məmun Abbasinin əli ilə şəhadətə yetirildikdən sonra Sənabadda Harunun məqbərəsində torpağa

tapşırıldı. Bundan sonra Noğanın Sənabadı "məşhəd" adı ilə tanındı və zaman keçdikcə şəhər genişlənməyə başladı. Xüsusilə, Şah Təhmasib Səfəvinin dövründə şəhər bir az da vüsət aldı və Tus əhalisi də Məşhədə köçürülməyə başladı. Tus Xorasanın şimal nahiyəsində Kəşfrud çayının yuxarısındakı yolda yerləşir və onun məşhur şəhərləri bunlardır: Noğan, Tabran, Radkan. Noğan üçüncü (h.q) yüzilliyin sonlarına qədər çox əhəmiyyət və etibara malik idi. Onun viranələri Məşhədin qərb hissəsində Hüseynabad və Mehrabad kəndləri yaxınlığında yerləşirdi. Ondan sonra Tabəran şəhəri əhəmiyyət və vüsət tapdı və sonralar Tus adı ilə tanındı. Nəhayət,  öncə Sənabadda yerləşən bir məzara şamil edilən Məşhəd şəhəri yavaş-yavaş genişlənməyə başladı.  830-cu (h.q) ildən başlayaraq Noğan adı unuduldu və Tus (əslində Tabəran) şəhəri viran oldu. Onun yerini Məşhəd tutdu. Nəhayət, Səfəvilərin dövründə Tus əyalətinin və Xorasanın mərkəzinə çevrildi.

Məşhədin və Tusun fəthi 31 və 32-ci (h.q.) ildə Osmanın xilafəti zamanı müsəlmanlara nəsib oldu və Əbdülməlik Mərvanın (65-86 h.q.) xilafəti zamanı Bəni Təmim ərəbləri Tus qalasını ələ keçirdilər və 125-ci (h.q.) ilə qədər əldə saxladılar. 192-ci (h.q.) ildə Harun ər-Rəşid  bu diyara səfər etdi və Tusda xəstələnərək öldü. Onu imam Rizanın (ə) dəfn olunduğu yerdə basdırdılar.

Bu şəhər Səlcuqilərin, İran Elxanlarının, monqolların və başqa qarətçilərin hücumlarına məruz qalmış və bir neçə dəfə viran edilmişdir. Yalnız Səfəvilərin dövründə Məşhəd şəhəri xüsusi rövnəq tapmış və öz abadlığını bərpa etmişdir.

*Məşhədin məşhur ziyarətgahları*

Şəhərin ən mühüm ziyarətgahları və tarixi abidələri bunlardır: Həzrət imam Rizanın (ə) pak hərəmini, Gövhərşad məscidini, Pirizad mədrəsəsini, Balasər mədrəsəsini, Şeyx Bəhainin məqbərəsini, Balasər məscidini, Zərrin Səqqaxanasını və s.-ni əhatə edən Astani-qüds-Rəzəvi, Şah məscidi, Xacə Rəbi, Qonbəde-Səbz (yaşıl günbəz), Nadir şahın məqbərəsi və s.14

***İMAM RİZANIN (Ə) HƏYATINA QISA BİR BAXIŞ***

**Adı: Əli**

**Ləqəbi: Riza, Sabir, Fazil, Rəzi.**

**Künyəsi: Əbülhəsən**

**Doğum ili: 148-ci hicri-qəməri ili, zilqədə ayının 11-i, (765-ci miladi ili)**

**Şəhadəti: 203-cü hicri-qəməri ili, səfər ayının 29-u (təqribən 820-ci il).**

**Ömür müddəti: Əlli beş il.**

**İmamlıq müddəti: İyirmi il.**

**Doğulduğu yer: Mədinə şəhəri.**

---

[14] İran səyahətçiləri üçün ətraflı bələdçilik məъmuəsi

**Dəfn olunduğu yer: Tus (Xorasan).**
**Həyat yoldaşı: Umm-Həbibə.**
**Atasının adı: Musa ibn Cəfər (ə).**
**Anasının adı: Nəcmə.**
**Övladı: Muhəmməd (Təqi, Cavad (ə))**

## *İMAM RİZANIN (Ə) HƏYATI*

Şiələrin səkkizinci imamı və rəhbəri Əli ibn Musa Riza (ə) 148-ci hicri ili, zilqədə ayının 11-i, cümə axşamı, Mədinə şəhərində dünyaya gəlmişdir. Mübarək adı Əli, künyəsi Əbülhəsən, məşhur ləqəbləri Riza və Ali-Muhəmməd alimidir. Atası şiələrin yeddinci imamı Musa ibn Cəfər (ə) onu "Ali-Muhəmməd Alimi", yəni Muhəmməd (s) nəslinin alimi adlandırmışdır. Şeyx Səduq İbrahim ibn Abbasdan belə nəql edir: "Heç görmədim ki, imam Əli ibn Musa Riza (ə) kimisə öz sözü ilə incitsin və görmədim ki, kiminsə sözünü kəssin və ya kiminsə sözünün arasında söz desin. Onunla söhbət edən şəxsin qarşısında durarkən bir yerə söykənməzdi və birlikdə oturduğu adamın yanında ayağını uzatmazdı. Öz xidmətçilərinə nalayiq sözlər deməzdi. Heç vaxt imamın tüpürdüyünü və o həzrətin qəh-qəhə çəkdiyini görmədim. O yalnız gülümsəyərdi."

"Həzrət Əli ibn Musanın (ə) həyatı" kitabında ibn Şəhraşubdan nəql olunur ki, o həzrət Ərəfə günü Xorasanda bütün var-dövlətini bir nəfərə bağışladı. Yenə həmin kitabda yazılıb ki, Kuleyni Üsuli-Kafi

kitabında və ibn Səhriaşub Əlyəsə ibn Həmzə Qumidən nəql edir ki,  bir gün mən həzrət Rizanın (ə) hüzurunda idim. Bir dəstə adam imamdan halal-haram məsələlərini öyrənirdilər. Bu zaman bir kişi daxil oldu və salam verərək ərz etdi: "Mən sənin və əcdadının dostlarındanam. Həccdən qayıdıram, lakin səfər büdcəm azalıb. Belə ki, məni evimə çatdıracaq bir pulum yoxdur. Xahiş edirəm, mənim yol xərcimi ödəyin ki, mən vətənimə çatım. Orada mənim imkanım var və vətənə çatan kimi mənə verdiklərinizi sizin adınızdan sədəqə verərəm." Həzrət ona oturmaq icazəsi verərək buyurdu:  "Allah sənə mərhəmət etsin." Kişi ilə bir az söhbət etdikdən sonra qalxıb içəri keçdi, bir azdan qayıdıb qapını bağladı və mübarək əlini qapının yuxarısından çıxarıb buyurdu: "Xorasanlı haradadır?"  Xorasanlı ərz etdi: "Buradayam."  İmam buyurdu: "Bu iki yüz dinarı al, əhli-əyalına xərclə və ondan təbərrük kimi istifadə et. Çıx get ki, mən səni görməyim və sən də məni görməyəsən."  Ravi deyir: "Kişi getdikdən sonra həzrətə ərz etdim: "Qurbanın olum! Ona mərhəmət buyurdun, bəs nə üçün onu görmək istəmədin?" İmam buyurdu: "Ona görə ki, onun üzündə zəlillik ifadəsini görməyəm."

İmam Riza (ə) təqva və ibadətdə elə bir bir səviyyədə idi ki, bütün günü ibadət və zikrlə məşğul olurdu. Elmdə isə o dərəcədə idi ki, ona "Ali-Muhəmməd (ə) alimi" ləqəbi verilmişdi. İmam Musa ibn Cəfərdən (ə) nəql olunub ki, buyururdu: "Atam

Cəfər ibn Muhəmmədin (ə) dəfələrlə mənə belə buyurduğunu eşitmişəm: "Ali-Muhəmmədin (ə) alimi sənin nəslindəndir. Kaş mən onu görəydim. O Əmir əl-mömininin (ə) adaşıdır."

İmam Rizanın (ə) mübarək ömrü ibadət, din təbliği, əlsiz-ayaqsızlara kömək və başqa müqəddəs əməllərlə keçirdi. Lakin digər imamlar kimi o Həzrət də o dövrün hakim qüvvələri tərəfindən arxayın və azad yaşaya bilmədi.

Beləliklə, imamın həyat tərzi insanların qəlbində ona qarşı fövqəladə məhəbbət yaratmışdı. Bundan qorxuya düşən Abbasi hökuməti imamı Mədinədə real təhlükə hesab edirdi. Mühəvvəl Sistani deyir: "Məmunun qasidi (imamı Xorasana dəvət etmək üçün) imam Rizanın (ə) yanına gələndə mən Mədinədə idim. Həzrət məscidə daxil olub bir neçə dəfə babası Peyğəmbərlə (s) vidalaşdı. Hər vidadan sonra qayıdıb qəbri yenidən ziyarət edir və ağlayırdı. Yaxınlaşıb salam verdim. Salamıma cavab verdi və mən onu (Xorasan səfəri üçün) təbrik etdim." İmam buyurdu: "Bu sözdən əl çək. Mən babamın qonşuluğundan ayrılacam. Mən qürbətdə öləcəm və Harunun yanında dəfn olunacam." Mən də Həzrətlə getdim və özü buyurduğu kimi Tusda dünyadan köçdü və Harunun yanında torpağa tapşırıldı."[15]

Hicri-qəməri təqvimi ilə 200-cü illərin sonlarında Məmun İmamı (ə) Mədinədən Mərvə dəvət etdi. Əlbəttə, bu zahirdə vəliəhdlik üçün həyata

---

[15]Uyunu əxbar-ər-Riza (ə), ъ.2, səh.207

keçirilmişdi. Əslində isə Məmun İmamı (ə) bu işə məcbur etmişdi və bu yolla imamın tərəfdarlarının rəğbətini qazanmaq, eyni zamanda o Həzrəti dünyapərəst kimi tanıtmaq istəyirdi. İmamın (ə) Mədinədən çıxıb, əhli-əyalı ilə vidalaşarkən düşdüyü hal buna sübutdur. Belə ki, o cənab son vida imiş kimi vidalaşaraq onun üçün ağlamalarını istəmişdi.

Yol boyu İmam (ə) hansı yaşayış məskəninə yetişirdisə, camaat kütləvi şəkildə onu qarşılamağa çıxırdı. Belə şəhərlərdən biri də Nişapur idi. Bu şəhərə yaxınlaşarkən İmamın (ə) pişvazına saysız-hesabsız adam çıxmışdı. Tarixçilərin yazdığına görə imamı qarşılayanların sayı yüz min nəfəri keçirdi. Yazırlar ki, səs-küy, basabas və həyəcan o qədər çox idi ki, heç kəs o cənabla görüşə nail ola bilmirdi. Nəhayət, camaatın gözə çarpacaq dərəcədə böyük bir hissəsini təşkil edən alimlər belə qərara gəldilər ki, imamdan hədis söyləməsini xahiş etsinlər. Hamı bir-birini sakitləşdirməyə başladı. Ağlayanlar, sevincindən gülənlər sakitləşdikdən sonra İmam (ə) məşhur "Silsilət uz-zəhəb" (qızıl zəncir) hədisini ata-babasından bir-bir sitat gətirərək buyurdu: "Babam Əmir əl-mömininin (ə) Peyğəmbərdən (s), o isə Cəbraildən nəql edir: Allah-Təaladan eşitdim ki, buyururdu:

**كلمة لا اله الّا الله حصني فمن دخل حصني امن من عذابي**

"La ilahə illəllah" kəlməsi mənim hasarım və qalamdır, hər kəs mənim qalama daxil olsa (yəni hər kəs bu tövhid kəlməsinə etiqad bəsləsə), əzabımdan amanda olar. Sonra İmam (ə) bir anlıq sükut edərək buyurdu:

بشرطها وشروطها و انا من شروطها

"Əlbəttə, şərtləri ilə birlikdə. Mən də onun şərtlərindən biriyəm."

Tarixçilərin yazdığına əsasən iyirmi dörd min nəfər əlində qələm-kağız bu hədisi yazırdı və bu rəqəm pişvaza gələn izdihamın çoxluğunu göstərir.

Yolda digər maraqlı hadisələrdən biri də Tusda baş verdi. İmam (ə) Tus şəhərinin valisinin evinə getdi. Harun ər-Rəşidin qəbri də həmin evdə yerləşirdi. İmam qəbri müşahidə etdikdən sonra əli ilə onun yanında bir xətt çəkdi və o buyurdu: "Mən burada dəfn olunacağam, Allah-Təala bu məkanı məni sevənlərin get-gəl yeri edəcək. Allaha and olsun hər kəs məni ziyarət etsə və mənə salam versə, biz əhli-beytin şəfaəti ilə bağışlanacaq..."

Məmunun əmri ilə bütün dövlət xadimləri, alimlər və çox adamlar Mərvdən bir neçə kilometr kənarda İmamı (ə) qarşılamağa çıxdılar. Mərv şəhəri isə çilçıraqlarla bəzədilmişdi. Məmun o cənabı çox hörmətlə qarşıladı və öz evinin yanında tikdirdiyi evi İmama (ə) verdi. Məmunun evi bir qapı ilə İmamın (ə) evinə birləşirdi və imamın yaşadığı ev hər cür şahanə imkanlara malik idi. Bir neçə gün istirahətdən sonra Məmun bir məclis düzəltdi və imama xəlifə olmağı

təklif etdi. İmam Riza (ə) ona belə cavab verdi: "Əgər bir xilafət sənin haqqındırsa, niyə öz haqqını başqasına verirsən və əgər sənin haqqın deyilsə, onu başqasına verməyə ixtiyarın yoxdur." Məmun cavab tapmasa da, israr etdi. Faydasız olduğunu görüncə, vəliəhd olmağı İmama (ə) təklif etdi. İmam (ə) buyurdu: "Mən necə sənin vəliəhdin ola bilərəm? Halbuki  atam öz ata-babasından, onlar da Allahın Rəsulundan (s) nəql etmişlər ki, mən səndən əvvəl öldürüləcəyəm və qürbət diyarda, Harunun qəbrinin yanında dəfn olunacağam."

Məmun ağlaya-ağlaya dedi: "Kimin sizi öldürməyə qüdrəti var?"

İmam (ə) buyurdu: "İstəsən, onu göstərə bilərəm!"

Sonra Məmunla İmam (ə) arasında gərginlik yarandı. Bir neçə acı sözdən sonra Məmun dedi: "Əgər vəliəhdliyi qəbul etməsən, öldürüləcəksən!" İmam buyurdu: "İndi ki, məcburam, bir şərtlə qəbul edirəm, hökumətin heç bir işinə qarışmayacağam, kimsəyə vəzifə verməyəcək və kimsəni işdən kənarlaşdırmayacağam."

Məmun razılaşdı və öz əli ilə bir müqavilə yazdı. İmam  isə həmin müqavilənin haşiyəsinə bir neçə cümlə yazdı.

Məmun İmam Rizanın (ə) vəliəhdliyi münasibəti ilə şənlik məclisi düzəltdi və İmamın (ə) vəliəhd olduğunu bütün Mərv camaatına, bütün şəhərlərə və öz nümayəndələrinə çatdırdı. İmamın adına sikkə

vuruldu və Məmun öz qızı Umm-Fəzli İmama (ə) verdi. İmamın tərəfdarlarının şüarı yaşıl rəng idi və onlar həmişə yaşıl rəngli paltar geyirdi. Abbasilər isə qara rəng geyirdi. Məmunun əmri ilə bütün dövlət xadimləri yaşıl paltar geyməli oldu və bu rəngli geyim rəsmi dövlət geyimi elan olundu. Dövlətin ikinci şəxsi kimi İmamın (ə) adına xütbələr oxundu.

Bütün bunlardan sonra Məmun İmamın (ə) xalq arasında hansı mövqedə olduğunu yoxlamaq istədi. Vəliəhdlik məsələsindən üç ay keçmişdi ki, Qurban bayramı günü gəlib çatdı. Məmun imamdan xahiş etdi ki, bayram namazını o qılsın. İmam bu işdən imtina etdi və müqavilənin şərtlərini (heç bir işə dəxalət etməmək) Məmuna xatırlatdı. İmam (ə) nə qədər imtina etsə də, faydası olmadı. Bu zaman İmam (ə) belə bir şərt irəli sürdü: "Mən bayram namazını Allahın Rəsulu (s) və Əmir əl-möminin (ə) necə qılıbsa elə qılacağam." Məmun bu şərti qəbul etdi və göstəriş verdi ki, dövlət və ordu başçıları da bu namazda iştirak etsin. Küçələr, xiyabanlar, evlərin damı imamı (ə) gözləyən insanlar ilə dolu idi. İmam (ə) qüsl etdi, libas geyərək başına ağ əmmamə qoydu. Xoş ətirlə ətirlənib, əlinə bir əsa aldı.Yalın ayaqla dostlarının əhatəsində evdən çıxdı. İmam (ə) üzünü göyə tərəf tutub təkbir dedi, dostları, sonra isə camaat da təkbir deməyə başladı. Bunu görən qoşun başçıları və zabitlər atlarından enib, çətinliklə də olsa, çəkmələrini çıxardı və yalın ayaqla imamın arxasınca getməyə başladı. Təkbir və ağlaşma səsi şəhəri

başına götürdü. Bu xəbər Məmuna çatdıqda qorxuya düşdü. Fikirləşdi ki, əgər İmam (ə) belə davam edərək namaza başlasa, xalq ona daha çox bağlanacaq. Odur ki, İmama (ə) belə bir xəbər göndərdi: "Biz sizi əziyyətə salmışıq. Siz qayıdın, qoyun namazı hər il kim qılırdısa, bu il də o qılsın." İmam ayaqqabısını geyib atına mindi və evə qayıtdı. Amma camaatın nizam-intizamı pozuldu və həmin gün bayram namazı qılınmadı. İmamın (ə) Məmunun vəliəhdi seçilməsi xəbəri islam məmləkətinin bütün vilayətlərinə yayıldı. Əksər şəhərlərin sakinləri Məmunun əmrinə itaət edərək İmamı (ə) vəliəhd kimi tanıdılar. Hətta Mədinə və s. bu kimi şəhərlərdə bu xəbəri şadlıqla qarşıladılar. Lakin Abbasilərin yeni tikdirdiyi və onların xilafət mərkəzi olan Bağdadda başqa ab-hava vardı. Bu şəhərin camaatı (əhli-beyti sevənlərdən başqa) Məmunun bu işini nəinki qəbul etmədilər, hətta Abbasilərin başçılarının təhriki ilə Məmunu öz aralarında xilafətdən kənarlaşdırıb onun əmisi İbrahim ibn Məhdiyə beyət etdilər.

Abbasilərin və Bağdad əhalisinin Məmuna qarşı çıxmasının müxtəlif səbəbləri var idi. Onlardan bəzilərini qeyd edirik:

1. Məmunun öz qardaşı Əmini öldürməsi və onun anası və Abbasilərin ən nüfuzlu və məşhur qadını olan Zübeydəyə etinasızlığı.

2. İranlıların ərəblərdən üstün hesab edilməsi. (Məmun Xorasan əhalisini özünə arxa hesab edərək xilafət mərkəzini Bağdaddan Mərvə köçürmüşdü.)

3. Hərsəmə ibn Əyunun öldürülməsi: Bu qətl Bağdad əhalisinin və ordunun qiyam etməsinə səbəb oldu və nəticədə Məmunun İraqa hakim təyin etdiyi Həsən ibn Səhl şəhərdən qovuldu. Onun qovulmasının başqa bir səbəbi də var idi. O səbəb bundan ibarət idi ki, Həsən hakimi olduğu bölgədə əmin-amanlıq yaratmağa qadir deyildi, hərc-mərclik hər tərəfi bürümüşdü və bundan istifadə edən, belə fürsətlər gözləyən təxribatçı qüvvələr müxtəlif bəhanələrlə camaatdan vergi alır, xalqı qorxu ilə dəhşət içərisində saxlayırdılar.

4. İranlı olan Fəzl ibn Səhlin vəzir, qardaşı Həsən ibn Səhlin isə İraqa hakim təyin edilməsi. Məmun bir çox rəsmi səlahiyyətləri vəziri Fəzl ibn Səhlə tapşırmışdı və bu, Bağdad əhalisi, xüsusilə, Abbasi hakimlərində Məmuna qarşı nifrət hissini gücləndirirdi.

5. Bunların hamısından əsas və mühüm olan səbəb isə təbii ki, həzrət imam Rizanın (ə) vəliəhd seçilməsi idi və demək olar ki, Abbasilərin Məmuna qarşı qəzəb və nifrətinin əsas səbəbi bu məsələ idi. Onlar daim bu fikri əsas tutur və üzərində təkid edirdilər ki, imamın vəliəhd seçilməsi ilə xəlifəlik Abbasi sülaləsinin əlindən çıxıb Əli (ə) xanədanının əlinə keçəcək. Odur ki, İbrahim ibn Məhdinin xəlifə kimi tanıdılar və Məmunun xəlifəliyini rədd edərək onun nümayəndəsi Həsən ibn Səhli şəhərdən qovdular. İbrahimin işi rövnəq tapdı və Fəzl ibn Rəbi də ona bu işdə kömək edirdi. Onlar başqa şəhərlərin

əhalisini də özlərinə cəlb etməyə başlamışdılar. Həsən ibn Səhl bu qiyamı yatırmaq üçün İbrahimin üstünə bir neçə dəfə qoşun çəksə də,  hər dəfə İbrahimin tərəfdarları qələbə çalırdı. Qiyamın əhatəsi getdikcə genişlənir, Bəsrə və hətta İraqdan kənarda olan Məkkə şəhərini və Yəməni də bürüyürdü. Bütün bu xəbərləri  Həsən ibn Səhl və Xorasana səfər edən digər şəxslər vasitəsilə Fəzl ibn Səhlə çatdırdılar. Lakin Fəzl bu xəbərlərin heç birini Məmuna demirdi və onu İraq və Hicazdakı hadisələrdən tamamilə xəbərsiz qoyurdu. Çünki İraq camaatının onun vəzirliyindən və qardaşının hakimliyindən narazı, habelə qardaşının bu qiyamı yatırmaqda aciz olduğundan xəlifənin agah olmasını istəmirdi. Bu hadisələrdən xəbəri olan digər şəxslər də Fəzlin qorxusundan susurdular. Lakin həzrət Riza (ə) bütün bu hadisələrdən xəbərdar idi və Fəzlin həqiqətləri necə gizlətdiyini, Məmunun islam məmləkətindən xəbərsiz olduğunu görürdü. Bu zaman İmam (ə) öz mələkuti və əxlaqi səviyyəsinə əsasən sükutu düzgün hesab etmədi və Məmunu Bağdaddakı hadisələrdən, həmçinin camaatın İbrahim ibn Məhdiyə beyət etməsindən agah etdi. Məmun dedi: "Bəs Fəzl mənə xəbər verdi ki, İbrahimə mənim nümayəndəm olaraq beyət ediblər?" İmam buyurdu: "Fəzl yalan danışır və xəyanət edir. Çünki İbrahim ilə Həsən ibn Səhl arasında döyüş olub, əgər nümayəndə kimi beyət etsəydilər döyüş baş verməzdi. Onlar Fəzlin vəzirliyi, Həsənin hakimliyi və mənim vəliəhdliyimə görə sənə

qarşı qəzəblidir." Məmun soruşdu: "Orduda bu məsələni bilən varmı?" İmam (ə) buyurdu: "Bəli, Yəhya ibn Məaz, Əbdüləziz ibn İmran və başqa bir neçə nəfər məsələni bilir." Məmun onları çağırtdırdı və vəziyyəti soruşduqda əvvəlcə bilmədiklərini dedilər. Lakin Məmun onların hər birinə Fəzlin cəzasından amanda olacaqlarına dair amannamə verdikdə onlar İmamın (ə) buyurduqlarını tamamilə təsdiq etdilər və dedilər ki, qoşun başçılarının ürəklərində xəlifəyə qarşı kin və nifrət hissi vardır. Məmun Fəzli çağırıb niyə bu vaxta qədər olan hadisələrin ona çatdırılmadığını soruşdu. Fəzl dedi: "Bağdad əhalisi İbrahimi xəlifə kimi deyil, əmir və şəhər hakimi kimi tanımışlar. Digər tərəfdən isə mən istəyirdim hadisələri öz yoluna qoyduqdan sonra xəlifəyə xəbər verim və acı xəbərlərlə xəlifəni narahat etməyim. Məmun İmamın (ə) hüzuruna gedib çarə istədi. İmam buyurdu: "Yaxşı olar ki, bu işi başqalarına tapşırmayasan və özün Bağdada gedib camaatın işini yoluna qoyasan." Fəzl Məmunun Bağdada getmək istədiyini bildikdə çox narahat oldu. Çünki Mərvdə hər iş onun əlində idi. Lakin Bağdadda Məmun onun rəyinə fikir verməzdi. Digər tərəfdən isə bu xəbərləri Məmuna İmam (ə) çatdırdığı üçün İmama (ə) qarşı qəlbində kin olan Fəzl öz gələcəyini qaranlıq görürdü. O, Məmunun yanına gəlib niyə Bağdada getmək istədiyini soruşdu. Məmun dedi: "Mənim ağam Əbülhəsən (ə) mənə bu yolu göstərib, mən də bu yolu bəyənmişəm." Fəzl dedi: "Bağdada

getməyiniz məsləhət deyil. Çünki qardaşların, Bağdadın alimləri, fəqihləri, adi camaat hamı sənə qarşı kinlidir ki, sən Əmini öldürmüsən və Əbülhəsəni (ə) vəliəhd təyin etmisən. Məsləhətdir ki, bir müddət Xorasanda qalasan. Qoy camaat Əminin ölümünü unutsun. İstəsən, bu barədə başqa siyasətçilər ilə də məsləhətləş..."

Məmun çox fikirləşib götür-qoy etdi və nəhayət qərara gəldi ki, Mərvdəki təhlükə Bağdaddakından daha da qorxuludur. Çünki bir tərəfdən Fəzlin qüdrəti günü-gündən artırdı. Digər tərəfdən isə İmamı (ə) xalq daha çox sevməyə başlayırdı. Belə bir vaxtda paytaxtdan uzaqlaşmaq düzgün deyil. Amma Bağdadda da vəziyyət yaxşı deyildi. Nə etməli? Nəhayət Məmun bu qərara gəldi ki, Fəzli və İmamı (ə) elə aradan götürmək lazımdır ki, məsuliyyət onun boynuna düşməsin. Odur ki, göstəriş verdi ki, Mərvdən Bağdada tərəf hərəkətə başlasınlar. Gəlib Fəzlin əsl vətəni olan Sərəxsə çatdılar. Bir gün səhər Fəzl ibn Səhl hamama getdi. Məmunun gizli əmrinə əsasən bir neçə nəfər əli qılınclı Fəzli hamamda ikən doğradılar. Şəhərə hay düşdü. Qatillər həbs olundu və Məmunun əmri ilə öldürüldülər. Beləliklə, Məmunun iki böyük problemindən biri həll oldu. 202-ci il şəban ayının üçündə Fəzl öldürüldü. Fəzlin qətlindən sonra xəlifə hərəkət əmri verdi. Tus şəhərinə yeddi mənzil qalmış İmam (ə) xəstələndi. Tusa çatdıqda imamın xəstəliyi daha da şiddətləndi. Bir neçə gün Tusda qaldılar və Məmun hər gün

İmama (ə) baş çəkirdi. Məmun gördü ki, çox gözəl fürsətdir. Əgər İmamı (ə) zəhərləsə,  heç kəsin xəbəri olmaz və hamı onun xəstəlikdən öldüyünü qəbul edər. Bəzi tarixçilər İmamın (ə) üzümlə, digərləri isə nar suyu ilə zəhərləndiyini yazmışlar və bunu da əlavə etmişlər ki, İmama (ə) bu zəhəri Məmun zorla içirtmişdi. İki gün keçməmiş İmam (ə) şəhid oldu. Əbu Səlt bu barədə deyir: "İmam (ə) Məmunun yanından evə qayıtdı. Mən Həzrətin əmri ilə qapıları bağladım. İmam çox pis vəziyyətdə idi və ilan vurmuş adam kimi qıvrılırdı. Bu vaxt bir cavanın evə daxil olduğunu gördüm. Dedim: "Qapılar bağlı idi, siz necə daxil oldunuz?" Buyurdu: "Məni Mədinədən Tusa bir anda gətirən, bağlı qapıları da üzümə açdı!" Dedim: "Sizi tanımadım." Buyurdu: "Mən Muhəmməd ibn Əliyəm (ə) və qərib atamla vidalaşmağa gəlmişəm."

İmam Muhəmməd Təqi (ə) otağa daxil oldu, imam (ə) çox sevinclə oğlunu qucaqlayıb öpdü. Onu imamət sirlərindən agah edib canını Allaha tapşırdı. İmam Muhəmməd Təqi (ə) atasına qüsl verdi, onun üçün  namaz qılıb  tabuta qoydu. Sonra Əbu Səltə buyurdu: "Qapını aç, Məmun qapının dalındadır."

Qapını açan kimi Məmun öz xidmətçiləri ilə içəri daxil olub ağlaya-ağlaya cənazənin yanında oturdu. Xəlifə İmamın (ə) şəhadətini iyirmi dörd saat gizlin saxladı. Sonra İmamın (ə) əmisi Muhəmməd ibn Cəfər (ə) və Əbutalib xanədanın bir neçə şəxsiyyətlərinin ardınca adam göndərib onları çağırtdırdı. Cənazəni onlara göstərib heç bir yara

olmadığını bildirdi. Sonra İmama (ə) ağlayaraq dedi: "Ey qardaş! Səni bu halda görmək mənim üçün çox çətin və kədərlidir. Mən səndən sonra ölmək arzusunda idim. Amma Allah istəmədi." Sonra özünü qəmgin və kədərli göstərərək cənazə ilə birgə çölə çıxdı. Hərdən özü cənazənin altına girir, onu daşımağa kömək edirdi. Dəfn yerinə çatdılar və İmamı (ə) Harunun qəbrinin kənarında torpağa tapşırdılar. İmam Riza (ə) tarixdə məşhur nəzərə əsasən 203-cü hicri ilində səfər ayının sonunda əlli beş yaşında ikən şəhadətə yetişdi.

## *İMAM RİZANIN (Ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ*

Əxlaqi xüsusiyyətlər və insani keyfiyyətlər insanı digər canlılardan fərqləndirən ən böyük amildir. Hansı insanın əxlaq səviyyəsi yüksəkdirsə, o daha çox insani zirvələri fəth etmiş olur. Biz görürük ki, Allah-Təala Qurani-Kərimin "Nur" surəsində öz sevimli Peyğəmbərini "Sən böyük əxlaqa sahibsən" ayəsi ilə tərifləyir. Həzrət Peyğəmbər (s) da hədislərin birində öz peyğəmbərliyinin hədəfini əxlaqi keyfiyyətləri kamilləşdirmək kimi təqdim edir. Biz də imam Rizanın (ə) bu sahədəki özəlliyini araşdırır və o həzrətin nə qədər gözəl xüsusiyyətlərə malik və babası Peyğəmbərin (s) ləyaqətli varisi olduğunu təsdiqləyirik və onun bəzi xüsusiyyətlərini saymaq istəyirik..

❋ Həzrət imam Riza (ə) heç kəsin sözünü kəsməzdi.

❈ Heç kəsin istəyini rədd etməzdi (əlbəttə, din çərçivəsində).

❈ Başqalarının yanında ayaqlarını uzatmaz və heç yerə söykəməzdi.

❈ Öz xidmətçilərinə təhqiramiz söz deməzdi.

❈ Qəh-qəhə çəkməzdi.

❈ İctimai nöqteyi-nəzərdən aşağı təbəqə sayılan şəxslərlə bir süfrədə oturub yemək yeyərdi.

❈ Gecənin çoxunu ibadətlə keçirərdi.

❈ Çox oruc tutardı.

❈ Gizlində sədəqə verərdi.

❈ Camaat qarşısında gözəl və yumşaq geyim, tənhalıqda isə cod və sərt geyim geyər, həsir üstündə oturardı.

❈ Az danışardı və hər üç gündə bir dəfə Quran xətm edərdi.

❈ Əgər o Həzrətin bir nəfərlə işi olsaydı və həmin şəxs yemək yeməyə məşğul olsaydı, İmam (ə) o şəxsin yeməyi bitirməsini gözləyər, sonra öz sözünü buyurardı. İmam (ə) belə buyururdu: "Siz yeməyə məşğul olarkən mən daxil olsam və ya yaxınlaşsam, yerinizdən qalxmayın."

❈ Əgər hər hansı bir sahibkar əvvəlcədən müqavilə bağlamadan bir fəhləni işə götürürdüsə, imam əsəbiləşir və buyururdu: "Əgər siz o fəhlə ilə müqavilə bağladıqdan sonra işin sonunda həmin məbləği ona versəniz, o şad olar ki, siz öz əhdinizə vəfa etmisiniz. Əgər bir az da artıq versəniz, o bir az da çox sevinəcək ki, siz onun muzdundan da artığını

vermisiniz. Lakin müqavilə bağlamadığınız təqdirdə hətta onun haqqından üç dəfə artığını da versəniz elə biləcək ki, haqqını düz verməmisiniz."

### *İMAM RİZANIN (Ə) KƏRAMƏTLƏRİ*

İmam Rizanın (ə) fəziləti və kəramətləri bu dar çərçivəyə sığmayacaq dərəcədə çoxdur. Lakin biz imkan dairəsində o cənabın fəzilət və kəramətlərinin bəzilərini burada qeyd edirik.

Həzrət imam Kazim (ə) buyurmuşdur: "Atam mənə buyurdu: Sənin nəslində Ali-Muhəmmədin alimi olacaq, o Əmir əl-mömininlə (ə) eyni ada sahib olacaq. Kaş ki, mən onu görəydim!"

Məmun davamlı şəkildə elmi məclislər təşkil edirdi. Müxtəlif dinlərin nümayəndələrini həmin məclislərə dəvət edərək onlardan imamla mübahisə etməyi xahiş edirdi və imam (ə) bu mübahisələrin hamısından qalib çıxırdı.

1. Muhəmməd ibn Davud deyir: "Mən və qardaşım imam Rizanın (ə) yanında idik. Bu vaxt bir nəfər gəlib imam Cəfər Sadiqin (ə) oğlu Muhəmmədin ölüm xəbərini gətirdi. Biz imamla (ə) birlikdə Muhəmmədə baş çəkməyə getdik. Gördük ki, onun çənəsini də bağlayıblar və övladları ağlaşır. İmam onun yanında əyləşdi, sonra onun çöhrəsinə baxıb təbəssüm elədi. Məclisdəkilər İmamın (ə) bu gülüşündən incidilər və hətta bəziləri dedilər ki, imam öz əmisinin ölümündən sevindiyi üçün tənəli şəkildə gülür. Sonra İmam (ə) namaz üçün məscidə

gedərkən biz deyilənləri o Həzrətə çatdırdıq. İmam buyurdu: "Mənim gülüşüm təəccübdən doğurdu. Çünki gördüm imam Cəfər Sadiqin (ə) oğlu İshaq (Muhəmmədin qardaşı) qardaşı üçün bərk ağlayır, halbuki o, Muhəmməddən tez öləcək və Muhəmməd onun üçün ağlayacaq! Çox keçmədi ki, Muhəmməd sağalıb yataqdan qalxdı və İshaq isə bir müddətdən sonra dünyasını dəyişdi."

2. Rəyyan ibn Səlt deyir: "İraqa getmək istəyirdim. İmam Rizanın (ə) hüzuruna getdim. Məqsədim həm onunla xudafizləşmək, həm də ölərkən kəfənimə qoymaq üçün İmamın (ə) paltarlarından birini mənə vermək üçün xahiş etmək idi. Eyni zamanda qızlarıma üzük almaq istəyirdim. Amma xudafizləşərkən o cənabdan ayrılmaq məni elə kədərləndirdi ki, istədiklərim yadımdan çıxdı. Mənzildən çıxarkən Həzrət məni səsləyib buyurdu: "Qızlarına üzük almaq üçün bir neçə dirhəm verməyimi istəmirsənmi? Öləndə kəfənlə birlikdə bükülmək üçün paltarlarımdan birini istəmirsənmi?" Dedim: "Doğrudur. Lakin sizdən ayrılmağın qüssəsi istədiklərimi mənə unutdurdu."

Həzrət səccadənin altından bir az pul çıxarıb bir köynəklə birlikdə mənə verdi..."

3. İmam Rizanın (ə) vəliəhdliyi zamanı bir müddət yağış yağmadı və xalqa qıtlıq üz verdi. Məmun İmamdan (ə) xahiş etdi ki, yağışın yağması üçün namaz qılıb dua etsin. İmam (ə) buyurdu: "Dünən gecə Allahın Rəsulunu (s) və Əmir əl-

möminini (ə) yuxuda gördüm. Peyğəmbər (s) buyurdu: Həftənin ilk günü səhraya get və Allahdan yağış istə, çünki mən də birinci gün belə edəcəyəm." Birinci gün İmam (ə) yağış istəmək üçün səhraya getdi və yaxşı da yağdı.

Lakin bəzi bədxahlar İmamı (ə) Məmunun yanında pis etmək üçün Məmunun qulağını belə sözlərlə doldurmağa başladılar ki, o, cadugər və sehrbazdır, öz cadusuyla yağış yağdırdı və xalq arasında çoxlu şan-şöhrət qazandı. Belə getsə o, xilafəti sənin və Abbasi sülaləsinin əlindən alacaq. Məmun dedi: "Biz vəliəhdliyi ona verməklə onu dəyərsiz edib dünyapərəst kimi tanıtmaq istədik... İndi öz səhvimizi anladıq. Bundan sonra ona qarşı güzəşt yoxdur..."

## *İMAM RİZA (Ə) HAQQINDA HƏDİSLƏR*

1. Muhəmməd ibn İshaq ibn Ənsar deyir: "Birinci Əbülhəsənə (ə) (imam Musaya (ə)) dedim: "Mənə dinimi mənimsəyə biləcəyim bir şəxsi tanıtdır." İmam buyurdu: "Bu mənim oğlum Əlidir. Həqiqətən, atam mənim əlimdən tutub Peyğəmbərin (s) qəbri üstə apardı və buyurdu: "Oğlum, Allah-Təala buyurur: "Mən yer üzündə xəlifə qərarlaşdırıram[16]" Allah-Təala buyurduğu hər sözə vəfa edər." [17]

---

[16] əl-Bəqərə surəsi, ayə 3
[17] Üsuli-kafi, ъ.2, səh.476, kitabul-hüъъət

2. Davud Riqqi deyir: "Əbülhəsən Musaya (ə) dedim: Qocalmışam  və sümüklərim süstləşib (boşalıb). Atanızdan soruşdum sizi mənə göstərdi, siz də mənə yol göstərin (yəni sizdən sonra imam kimdir). Buyurdu: Bu, Əbülhəsən ər-Rizadır." [18]

3. Əli ibn Yəqtin deyir: "Əbülhəsən (imam Kazım (ə)) zindandan mənə yazdı ki, filan oğlan mənim oğlanlarımın seyyididir və mən öz künyəmi ona bağışladım." [19]

4. Hişam ibn Əhmər deyir: "İmam Kazim (ə) mənə buyurdu: "Məğrib əhalisindən kiminsə gəldiyini bilirsənmi?" Mən cavab verdim: "Xeyr." İmam buyurdu: "Bəli, bir kişi gəlib, gəl gedək." Həzrət miniyinə mindi, mən də o həzrətlə birgə süvar oldum və biz həmin kişiyə çatdıq. Kişi Mədinə əhalisindən idi və özü ilə qul-qaravaş gətirmişdi. Mən dedim: "Onları bizə göstər." Yeddi qız uşağı gətirdi. Lakin imam onların hamısını rədd edib buyurdu: Onlara ehtiyacım yoxdur. Sonra buyurdu: "Yenisini gətir." Kişi dedi: "Məndə xəstə bir qızdan başqa heç  kimsə yoxdur." İmam (ə) buyurdu: "Sənin üçün qorxusu yoxdur, onu gətir." Kişi imtina etdikdə imam qayıdıb getdi və həmin günün sabahı məni onun dalınca göndərərək buyurdu: "Ona de ki, o kənizi neçəyə satırsan. Hər nə desə, de ki, mən həmin qiyməti qəbul etdim." Mən onun yanına getdim və o dedi: "Mən onu filan qiymətdən aşağı vermək istəmirəm." Mən dedim:

---

[18] Üsuli-kafi, ъ.2, səh.476, kitabul-hüъъət
[19] Üsuli-kafi, ъ.2, səh.481, kitabul-hüъъət

"Qəbulumuzdur." Dedi: "Sənin olsun, amma mənə de görüm dünən səninlə gələn kişi kim idi?" Dedim: "Bəni-Haşimdən olan bir kişi idi." Dedi: "Hansı bəni-Haşim?" Dedim: "Mənim bundan artıq sənə deyiləsi bir sözüm yoxdur." Dedi: "Mən sənə bu kəniz barədə bir xəbər verim. Mən onu məğrib diyarının ən uzaq nöqtəsindən (Afrikadan) almışam." Kitab əhlindən olan bir qadın mənə rast gəlib soruşdu: "Səninlə olan bu kəniz kimdir?" Dedim: "Onu özüm üçün aldım." Dedi: "Bu qızın sənin kimisinə yoldaş olması rəva deyil. Bu kəniz yer üzünün ən yaxşı adamının həyat yoldaşı olmalıdır. Onun yanında çox qalmadan ondan bir oğlan doğar və o oğlanın şərqdə və qərbdə tayı-bərabəri olmaz." Ravi deyir: "Mən onu imamın yanına gətirdim. Çox keçmədi ki, imam Riza (ə) ondan dünyaya gəldi."

### *İSMƏT XƏZİNƏSİNDƏN İNCİLƏR*

1. İmam Riza (ə) buyurur: "Fiqhin və fəhmin nişanələrindən biri təmkin və sükutdur." [20]

2. Fəth ibn Yəzid Curcani deyir: Məkkədən Xorasana qayıdırdım. Yolda İraqa səfər etməkdə olan imam Riza (ə) ilə qarşılaşdım. Eşitdim ki, belə buyurdu: "Hər kəs Allahdan qorxsa, mühafizə olunar və hər kəs Allaha itaət etsə, ona itaət edərlər." Mən çətinliklə bir vasitə tapıb o cənabın hüzuruna yetişdim və ona salam verdim. Salamımın cavabını verib buyurdu: "Ey Fəth! Hər kəs Allahı razı salsa,

---

[20] Üsuli-kafi, kitabu-fəzlil-ilm, ъ.1, səh103

məxluqun qəzəbindən qorxmaz. Həqiqətən, Allahı yalnız Özü-Özünü vəsf etdiyi kimi vəsf etmək olar, başqa cür vəsf etmək olmaz. Necə dərk etmək olar bir varlığı ki, hiss üzvləri Onu dərk etməkdə acizdirlər. Hətta təsəvvürlər də onun dərgahına çatmazlar."

Kainatda cövlan edən xəyallar Onu məhdud edə bilməz. Gözlər Onu əhatə etməkdən acizdirlər. Vəsf edənlərin vəsfindən ucadır, məddahların mədhindən yüksəkdir. Yaxın ola-ola uzaqdır və uzaq ola-ola yaxındır. O Öz uzaqlığında yaxındır və yaxınlığında çox-çox uzaqdır. Necəliyi və formanı O yaratmışdır və demək olar ki, "O necədir? Yerləşməni O reallaşdırıb və haradadır?" – sualı ona yaraşmaz. Çünki onun cavabına "necədir?" və "haradadır?" – sualı yol tapa bilməz.[21]

3. İmam Riza (ə) buyurdu: "Bizim şiələrimizi üç məsələ ilə sınağa çəkin."

❈ Namazın vaxtlarına əhəmiyyət. Görün namazı ilkin vaxtda qılırlar, ya yox?

❈ Sirr saxlamaq. Yəni görün sirləri və məhramanə məsələləri gizlətməyə çalışırlar, ya yox?

❈ Maddi imkanlar nöqteyi-nəzərindən yoxlayın görün öz var-dövlətindən dini qardaşları üçün pay ayırır, onların əlindən tuturlar, ya yox. [22]

4. İmam Riza (ə) buyurmuşdur: "Peyğəmbərlərin (s) silahını özünüzlə gəzdirin."

---

[21] Üsuli-kafi, Kitabi-tövhid, Külliyati-tövhid babı, ъ.1, səh.399
[22] Ъame ye-ayat və əhadise-nəmaz, ъ.1, səh.60

Soruşdular: "Ey Rəsulallahın övladı, Peyğəmbərlərin (s) silahı nə idi?"

Buyurdu: "Dua!" [23]

5. İmam Riza (ə) buyurmuşdur: "Biz elə bir əhli-beytik ki, kimə söz versək, onu öz borcumuz hesab edərik, yəni borc kimi onu qaytarmağı özümüzə lazım bilərik. Necə ki, Peyğəmbər (s) belə edərdi." [24]

6. İmam Riza (ə) buyurmuşdu: "Hər kəs Allah-Təaladan gələn az ruziyə qane olsa, Allah-Təala da onun az əməlinə razı olar." [25]

## *İMAM RİZANI (Ə) ZİYARƏT ETMƏYİN FƏZİLƏTİ*

İmam Rizanı (ə) ziyarətin savabı, fəziləti barədə Peyğəmbəri-Əkrəm (s) və məsum imamlardan (ə) bir çox hədislər nəql olunmuşdur ki, bir nesəçini nümunə üçün qeyd edirik:

1. Şeyx Səduq öz "Uyunul-əxbar" və "Əmali" kitablarında Peyğəmbəri-Əkrəmdən (s) belə nəql edir ki,həzrət buyurmuşdur:

**ستدفن بضعه منّي بأرض خراسان لايزورها مؤمن**

---

[23] Səfabəxş və moşkelgoşa, səh.14

[24] Biharul-ənvar, ъ.75, səh.339

[25] Biharul-ənvar, ъ.75, səh.349

الا اوجب الله-عزوجل- له الجنة وحرّم جسده علي النّار

"Tezliklə mənim bədənimin bir parası (övladlarımın biri) Xorasan torpağında dəfn olacaq. Onu ziyarət edən hər bir möminə Allah Cənnəti vacib edər, bədənini isə Cəhənnəm oduna haram edər."

2. Yenə də Şeyx Səduq qeyd olunmuş kitablarında Peyğəmbəri-Əkrəmdən(s) belə nəql edir ki, o həzrət buyurmuşdur:

ستدفن بضعه منّي بأرض خراسان ما زارها مكرب الا نفس الله كربته و لا مذنب الا غفر الله ذنوبه

"Tezliklə mənim bədənimin bir parası (övladlarımın biri) Xorasan torpağında dəfn olacaq. Allah onu ziyarət edən və çətinliyi olan şəxsin çətinliyini aradan qaldırar və onu ziyarət edən günahkarın günahını bağışlayar."

3. Şeyx Səduq həzrət Əlidən (ə) nəql edir ki, o həzrət buyurmuşdur:

سيقتل رجل من ولدي بأرض خراسان بالسم ظلما أسمه اسمي و اسم ابن عمران موسي عليه السلام الا فمن زاره

في غربته غفر الله تعالي ذنوبه ما تقدم منها و ما تأخر و لو كانت مثل عدد النجوم و قطر الامطار و ورق الاشجار

"Tezliklə mənim övladlarımdan olan bir kişi zülmkarlıqla zəhərləndiriləcəkdir. Onun adı mənim adım, atasının adı isə İmran oğlu Musanın adıdır. Agah olun ki, hər kim onu qürbətdə ziyarət edərsə, keçmiş və gələcək günahları ulduzlar, yağışın qətrələri və ağacların yarpaqları qədər olsa belə Allah bağışlayar."

4. Şeyx Səduqdan nəql olunmuş başqa bir hədis belədir: "İmam Riza (ə) Məmunun əli ilə özünün necə öldürülməsini bəyan etdikdən sonra buyurur:

من زارني علي بعد دار أتيته يوم القيامة في ثلاث مواطن حتي اخلصه من أهوالها إذا تطايرت الكتب يميناً و شمالا و عند الصراط وعند الميزان

"Hər kim məni qürbətdə, uzaqdan məzarımı ziyarət etsə, Qiyamət günü üç yerdə onun yanına gəlib onu nigarançılıqdan və iztirabdan xilas edərəm; birincisi, insanların əməl kitabları sağdan və soldan onlara verilən zaman, ikincisi, insanlar Sirat körpüsündən keçən zaman, üçüncüsü isə əməlləri tərəziyə qoyulan zaman.

5. Uyun ul-əxbarda İmam Cavaddan (ə) nəql olunmuşdur ki, o həzrət buyurmuşdur:

ضمنت لمن زار أبي بطوس عارفاً بحقه الجنة علي الله تعالي

"Atamın imamətinin həqiqiliyinə əqidəsi olduğu halda Tus vilayətini (Xorasan) ziyarət edən şəxs üçün Allah yanında Cənnətə zaminəm".

Allah bizi o həzrətin imamlıq haqqına arif olan zəvvarlardan etsin! Amin!

### *İMAM RİZANI (Ə) ZİYARƏT ETMƏYİN QAYDALARI*

İmam Riza (ə) buyurur: "Hər kəs məni haqqı tanıdığı halda ziyarət etsə, mən və əcdadım Qiyamət günü ona şəfaətçi olarıq."[26]

Ziyarətimizin qəbulu və imamın (ə) bizə şəfaətçi olması üçün aşağıdakı əqidələrə malik olmağımız labüddür:

1. İmam Allahın insanlara höccəti və meyarı, Peyğəmbərin və imamların canişini və hər bir günahdan, xətadan məsum və uzaqdır. Ona görə də imama itaət hamıya vacibdir.

2. İmam Allah ilə bəndə arasında feyz vasitəsi, Allahın ən böyük nişanəsi, Allahın mütləq vəlisi və ixtiyar sahibidir.

---

[26] Biharul-ənvar, ъ.99, səh.32

3. İmam diridir, biz onun hüzurundayıq, hər şeyə və hər kəsə nəzarət edir və qüdrətlidir.

4. İmam hər bir halımızda bizi görür, səsimizi eşidir, salamımıza cavab verir və bizim daxili hisslərimizdən tamamilə agahdır. Odur ki, gərək həmişə özümüzü Allah vəlisinin hüzurunda bilək və günahlardan çəkinək.

5. İmam Riza (ə) Ğəribul-qurəbadır (qəriblərin qəribidir), mehriban imamdır və bütün ziyarətçilərinə diqqətlidir.

Məsum imamların (ə) hər birinin özünəməxsus ziyarət qayda-qanunları və ziyarətnamələri vardır. O imam Rizanı (ə) ziyarət qayda-qanunlarını və məşhur ziyarətnaməsini əziz oxucuların nəzərinə çatdırırıq.

1. İmam Rizanın (ə) qəbrini ziyarət etmək istədiyin zaman evdən çıxmazdan əvvəl qüsl et və qüsl edərkən belə de:

**اَللّٰهُمَّ طَهِّرْنى وَطَهِّرْ لى قَلْبى وَاشْرَحْ لى صَدْرى وَاَجْرِ عَلى لِسانى مِدْحَتَكَ وَالثَّنآءَ عَلَيْكَ فَاِنَّهُ لا قُوَّةَ اِلاّ بِكَ اَللّٰهُمَّ اجْعَلْهُ لى طَهُورا وَشِفآءً**

Əllahummə təhhirni və təhhir li qəlbi vəşrəh li sədri və əcri ’əla lisani midhətəkə vəssənaə ələyk. Fəinnəhu la quvvətə illa bik. Əllahumməc’əlhu li təhurən və şifaa.

"İlahi, məni pakla, mənim qəlbimi təharətli et, qəlbimi genişləndir, Öz tərifini, həmd-sənanı mənim dilimə gətir. Səndən başqa heç bir qüvvə yoxdur. İlahi, bu qüslü mənim üçün paklıq və şəfa et."

2. Evdən çıxmaq istədikdə bu duanı oxu:

بِسْمِ اللَّهِ وَبِاللَّهِ وَاِلَى اللَّهِ وَاِلَى ابْنِ رَسُولِ اللَّهِ حَسْبِيَ اللَّهُ تَوَكَّلْتُ عَلَى اللَّهِ اَللّهُمَّ اِلَيْكَ تَوَجَّهْتُ وَاِلَيْكَ قَصَدْتُ وَما عِنْدَكَ اَرَدْتُ

Bismillahi və billahi və iləllahi və iləbni Rəsulillah. Həsbiyəllahu təvəkkəltu ələllah. Əllahummə iləykə təvəccəhtu və iləykə qəsədtu və ma indəkə ərədtu.

"Allahın adı ilə, Allaha və Onun Peyğəmbərinin övladına doğru. Allah mənə kifayət edər və mən Ona təvəkkül edirəm. İlahi, üzümü yalnız Sənə tuturam və məqsədim yalnız Sənsən və Sənin yanında olanı istəyirəm".

3. Qapıdan çıxarkən qapıda dayanaraq de:

اَللّهُمَّ اِلَيْكَ وَجَّهْتُ وَجْهِي وَعَلَيْكَ خَلَّفْتُ اَهْلِي وَمالِي وَما خَوَّلْتَنِي وَبِكَ وَثِقْتُ فَلا تُخَيِّبْنِي يا مَنْ لا يُخَيِّبُ مَنْ اَرادَهُ وَلا يُضَيِّعُ مَنْ حَفِظَهُ صَلِّ عَلى

مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ وَاحْفَظْنى بِحِفْظِكَ فَاِنَّهُ لا يَضيعُ مَنْ حَفِظْتَ

Əllahummə iləykə vəccəhtu vəchi və ’ələykə xəlləftu əhli və mali və ma xəvvəltəni. Və bikə vəsiqtu. Fəla tuxəyyibni ya mən la yuxəyyibu mən əradəhu və la yuzəyyiu mən həfizəh. Səlli ’əla Muhəmmədin və ali Muhəmməd. Vəhfəzni bihifzikə fəinnəhu la yəziu  mən həfiztə.

"İlahi, üzümü Sənə tuturam, ailəmi, malımı və mənə hər nə vermisənsə, hamısını Sənə tapşırıram və Sənə söykənirəm. Ey Səni istəyənlərin əlini boş qoymayan və Sənin hörmətini saxlayanları zay etməyən, mənim əlimi boş qoyma. Muhəmməd və onun xanədanına salavat göndər. Məni Öz mühafizəndə qoru! Çünki Sənin qoruduğun heç vaxt aradan getməz".

4. Məşhəd şəhərinə yetişdikdə imamın (ə) hərəminə getməzdən əvvəl ziyarət qüslu et. Qüsl etdiyin zaman de:

اَللّهُمَّ طَهِّرْنى وَطَهِّرْ لى قَلْبى وَاشْرَحْ لى صَدْرى وَاَجْرِ عَلى لِسانى مِدْحَتَكَ وَمَحَبَّتَكَ وَالثَّناءَ عَلَيْكَ فَاِنَّهُ لا قُوَّةَ اِلاّ بِكَ وَقَدْ عَلِمْتُ اَنَّ قِوامَ دينِى التَّسْليمُ لاِمْرِكَ

وَالاْ ِتِّباعُ لِسُنَّةِ نَبِيِّكَ وَالشَّهادَةُ عَلى جَميعِ خَلْقِكَ اَللّهُمَّ اجْعَلْهُ لى شِفآءً وَنُوراً اِنَّكَ عَلى كُلِّ شَىْءٍ قَديرٌ

Əllahumə təhhirni və təhhirli qəlbi vəşrəh li sədri və əcri ’əla lisani midhətəkə və məhəbbətəkə vəssənaə ’ələykə fəinnəhu la qüvvətə illa bik. Və qəd əlimtu ənnə qivamə dinit-təslimu liəmrikə vəl-ittibau lisunnəti nəbiyyikə vəşşəhadətu ’əla cəmii xəlqik. Əllahumməc’əlhu li şifaən və nura. İnnəkə ’əla kulli şəyin qədir

"İlahi, məni pak, qəlbimi təharətli et. Qəlbimi genişləndir. Öz tərifini, həmd-sənanı dilimə gətir. Məhəbbətini mənə ilham et. Çünki Səndən başqa heç bir qüvvə yoxdur. Həqiqətən, mən bunu bilmişəm ki, dinimin sabitliyi, möhkəmliyi Sənin əmrinə təslim, peyğəmbərlərin sünnəsinə tabe olmaqda, bütün məxluqata şəhadət verməkdədir. İlahi, bu qüslü mənim üçün şəfa və nur qərar ver. Həqiqətən, Sən hər şeyə qadirsən".

5. Qüsl etdikdən sonra ən gözəl və ən təmiz libasını geyinib kiçik və vüqarlı addımlarla hərəmə tərəf yola düş. Ürəyini Allah zikri ilə məşğul edərək de:

اَللَّهُ اَكْبَرُ , لا اِلهَ اِلا اللَّهُ , سُبْحانَ اللَّهِ, الْحَمْدُلِلَّهِ

Əllahu əkbər, la ilahə illəllah, subhanəllah, əlhəmdu lillah.

"Allah böyükdür. Allahdan başqa heç bir Məbud yoxdur. Allah pak və müqəddəsdir. Bütün həmd-sənalar Allaha məxsusdur".

6. Hərəmə çatdıqda qapı ağzında dayanıb izn istəyərək de:

اَللّهُمَّ اِنّى وَقَفْتُ عَلى بابٍ مِنْ اَبْوابِ بُيُوتِ نَبِيِّكَ صَلَواتُكَ عَلَيْهِ وَ الِهِ وَقَدْ مَنَعْتَ النّاسَ اَنْ يَدْخُلوُا اِلاّ بِاِذْنِهِ فَقُلْتَ يا اَيُّهَا الَّذينَ امَنُوا لا تَدْخُلُوا بُيُوتَ النَّبِىِّ اِلاّ اَنْ يُؤْذَنَ لَكُمْ اَللّهُمَّ اِنّى اَعْتَقِدُ حُرْمَةَ صاحِبِ هذَا الْمَشْهَدِ الشَّريفِ فى غَيْبَتِهِ كَما اَعْتَقِدُها فى حَضْرَتِهِ وَاَعْلَمُ اَنَّ رَسُولَكَ وَخُلَفآئَكَ عَلَيْهِمُ السَّلامُ اَحْيآءٌ عِنْدَكَ يُرْزَقُونَ يَرَوْنَ مَقامى وَيَسْمَعُونَ

كَلامى وَيَرُدُّونَ سَلامى وَاَنّكَ حَجَبْتَ عَنْ سَمْعى كَلامَهُمْ وَفَتَحْتَ بابَ فَهْمى بِلَذيذِ مُناجاتِهِمْ وَاِنّى اَسْتَاذِنُكَ يا رَبِّ اوَّلاً وَاَسْتَاْذِنُ رَسُولَكَ صَلَّى اللّهُ عَلَيْهِ وَ الِهِ ثانِياً وَاَسْتَاْذِنُ خَليفَتَكَ الاْمامَ الْمَفْرُوضَ عَلَىَّ طاعَتُهُ عَلِىَّ بْنَ مُوسَى الرِّضاعليه السلام وَالْمَلائِكَةَ الْمُوَكَّلينَ بِهذِهِ الْبُقْعَةِ الْمُبارَكَةِ ثالِثاً ءَاَدْخُلُ يا رَسُولَ اللّهِ ءَاَدْخُلُ يا حُجَّةَ اللّهِ ءَاَدْخُلُ يا مَلائِكَةَ اللّهِ الْمُقَرَّبينَ الْمُقيمينَ فى هذَا الْمَشْهَدِ فَاْذَنْ لى يا مَوْلاىَ فِى الدُّخُولِ اَفْضَلَ ما اَذِنْتَ لاِحَدٍ مِنْ اَوْلِيائِكَ فَاِنْ لَمْ اَكُنْ اَهْلاً لِذلِكَ فَاَنْتَ اَهْلٌ لِذلِكَ

Əllahummə inni vəqəftu ’əla babin min əbvabi buyuti nəbiyyikə səlavatukə ələyhi və alih. Və qəd mənə’tən-nasə ən yədxulu illa biiznih. Fəqultə: Ya əyyuhəlləzinə amənu la tədxulu buyutən-nəbiyyi illa ən yu’zənə ləkum. Əllahummə inni ə’təqidu hurmətə sahibi hazəl-məşhədiş-şərifi fi ğəybətihi kəma

ə’təqiduha fi həzrətih. Və ə’ləmu ənnə rəsuləkə və xuləfaəkə ələyhimus-səlamu əhyaun indəkə yurzəqun. Yərəvnə məqamı və yəsməunə kəlamı və yəruddunə səlami. Və ənnəkə həcəbtə ən səm’i kəlaməhum və fətəhtə babə fəhmi biləzizi munacatihim. Və inni əstə’zinukə ya Rəbbi əvvələn. Və əstə’zinu rəsuləkə səlləllahu ələyhi və alihi saniyən. Və əstə’zinu xəlifətəkəl-imaməl-məfruzə ələyyə taətuhu Əliyyəbnə Musər-Riza ələyhis-səlamu vəl-məlaikətəl-muvəkkəlinə bihazihil-buq’ətil-mubarəkəti salisən. Əədxulu ya Rəsuləllah? Əədxulu ya Huccətəllah? Əədxulu ya məlaikətəllahil-muqərrəbinəl-muqiminə fi hazəl-məşhəd. Fə’zən li ya məvlayə fidduxuli əfzələ ma əzinətə liəhədin min əvliyaikə fəin ləm əkun əhlən lizalikə fəəntə əhlun lizalik.

"İlahi! Mən Peyğəmbərinin (sənin salamın olsun ona və onun əhli-beytinə) evlərinin qapılarından olan bir qapı önündə durmuşam. Sən o qapıdan icazəsiz daxil olmağı insanlara qadağan edərək "Ey insanlar, sizə icazə verilmədən Peyğəmbərin evinə daxil olmayın" – buyurmusan. İlahi, mən bu şərafətli qəbrin sahibinə hüzurunda (həyatında) hörmət bəslədiyim kimi qeybətində də (ölümündən sonra da) hörmət bəsləyirəm.  Mən bilirəm ki, həqiqətən, Sənin Rəsulun və Sənin təyin etdiyin canişinlər (Allahın salamı olsun onlara) sənin yanında diridirlər və ruzi yeyirlər. Onlar mənim yerimi görür, sözlərimi eşidir və

salamımın cavabını verirlər. İlahi, Sən mənim qulağımı onların sözlərini eşitməkdən məhrum etsən də, onlarla minacat etmək ləzzətini dərk etmək üçün şüur, idrak qapılarını mənim üzümə açmısan. Ey mənim Rəbbim, mən daxil olmaq üçün əvvəl Səndən icazə istəyirəm. İkincisi, Peyğəmbərindən (Allahın salamı olsun ona və onun Əhli-beytinə) icazə istəyirəm.  Üçüncüsü, Sənin təyin etdiyin və mənə itaəti vacib olan imam Əli ibn Musa ər-Rizadan və mələklərdən izn istəyirəm.  Ey Allahın Rəsulu daxil olummu? Daxil olummu, ey məqbərədə hüzuru olan müqərrəb mələklər? Ey mənim mövlam, mənə daxil olmağa icazə ver. Elə bir icazə ver ki, öz dostlarına verdiyin icazənin ən üstünü olsun. Mənim bu icazəyə ləyaqətim olmasa da sən bu icazəni verməyə ləyaqətlisən"

7. Sonra hərəmə daxil olarkən de:

بِسْمِ اللَّهِ وَبِاللَّهِ وَعَلى مِلَّةِ رَسُولِ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَآلِهِ اَشْهَدُ اَنْ لا اِلهَ اِلاَّ اللَّهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ وَاَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ وَاَنَّ عَلِيّاً وَلِيُّ اللَّهِ

Bismillahi və billahi və ’əla milləti Rəsulillahi səlləllahu əleyhi və alih. Əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Və ənnə Əliyyən vəliyullah.

"Allahın adı və Allahın köməyi ilə. Rəsulallahın (Allahın salamı olsun ona və onun əhli-beytinə) dininə müvafiq olaraq, şəhadət verirəm ki, şəriksiz və yeganə olan Allahdan başqa heç bir tanrı yoxdur. Şəhadət verirəm ki, Muhəmməd (s) onun qulu və elçisidir və Əli Allahın vəlisidir".

8. Sonra zirehin yanına gedib o Həzrətlə üzbəüz durub de:

اَشْهَدُ اَنْ لا اِلهَ اِلا اللَّهُ وَحْدَهُ لا شَرِيكَ لَهُ وَاَشْهَدُ اَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ وَاَنَّهُ سَيِّدُ الاَوَّلِينَ وَالاخِرِينَ وَاَنَّهُ سَيِّدُ الاَنْبِيآءِ وَالْمُرْسَلِينَ اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّدٍ عَبْدِكَ وَرَسُولِكَ وَنَبِيِّكَ وَسَيِّدِ خَلْقِكَ اَجْمَعِينَ صَلوةً لا يَقْوى عَلى اِحْصآئِها غَيْرُكَ اَللّهُمَّ صَلِّ عَلى اَمِيرِ الْمُؤ مِنِينَ عَلِيِّ بْنِ اَبيطالِبِ عَبْدِكَ وَاَخى رَسُولِكَ الَّذِى انْتَجَبْتَهُ بِعِلْمِكَ وَجَعَلْتَهُ هادِياً لِمَنْ شِئْتَ مِنْ خَلْقِكَ وَالدَّلِيلَ عَلى مَنْ بَعَثْتَهُ بِرِسالاتِكَ وَدَيّانِ الدّينِ بِعَدْلِكَ وَفَصْلِ

قَضاَّئِكَ بَيْنَ خَلْقِكَ وَالْمُهَيْمِنَ عَلى ذلِكَ
كُلّهِ وَالسَّلامُ عَلَيْهِ وَ رَحْمَةُ اللَّهِ وَبَرَكاتُهُ
اَللّهُمَّ صَلِّ عَلى فاطِمَةَ بِنْتِ نَبِيّكَ وَزَوْجَةِ
وَلِيّكَ وَاُمِّ السِّبْطَيْنِ الْحَسَنِ وَالْحُسَيْنِ
سَيِّدَىْ شَبابِ اَهْلِ الْجَنَّةِ الطُّهْرَةِ الطّاهِرَةِ
الْمُطَهَّرَةِ التَّقِيَّةِ النَّقِيَّةِ الرَّضِيَّةِ الزَّكِيَّةِ
سَيِّدَةِ نِساءِ اَهْلِ الْجَنَّةِ اَجْمَعينَ صَلوةً لا
يَقْوى عَلى اِحْصاَّئِها غَيْرُكَ اَللّهُمَّ صَلِّ
عَلَى الْحَسَنِ وَالْحُسَيْنِ سِبْطَىْ نَبِيّكَ
وَسَيِّدَىْ شَبابِ اَهْلِ الْجَنَّةِ الْقاَّئِمَيْنِ فى
خَلْقِكَ وَالدَّليلَيْنِ عَلى مَنْ بَعَثْتَ بِرِسالاتِكَ
وَدَيّانَىِ الدّينِ بِعَدْلِكَ وَفَصْلَىْ قَضاۤئِكَ بَيْنَ
خَلْقِكَ اَللّهُمَّ صَلِّ عَلى عَلِىِّ بْنِ الْحُسَيْنِ
عَبْدِكَ الْقاۤئِمِ فى خَلْقِكَ وَالدَّليلِ عَلى مَنْ
بَعَثْتَ بِرِسالاتِكَ وَدَيّانِ الدّينِ بِعَدْلِكَ
وَفَصْلِ قَضاۤئِكَ بَيْنَ خَلْقِكَ سَيِّدِ الْعابِدينَ

اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّدِ بْنِ عَلِي عَبـدِكَ وَخَليفَتِكَ فى اَرْضِكَ باقِرِ عِلْمِ النَّبِيّينَ اَللّهُمَّ صَلِّ عَلى جَعْفَرِ بْنِ مُحَمَّدٍ الصّادِقِ عَبْدِكَ وَوَلِىِّ دينِكَ وَ حُجَّتِكَ عَلى خَلْقِكَ اَجْمَعينَ الصّادِقِ الْبآرِّ اَللّهُمَّ صَلِّ عَلى مُوسَى بْنِ جَعْفَرٍ عَبْدِكَ الصّالِحِ وَلِسانِكَ فى خَلْقِكَ النّاطِقِ بِحُكْمِكَ وَالْحُجَّةِ عَلى بَرِيَّتِكَ اَللّهُمَّ صَلِّ عَلى عَلِىِّ بْنِ مُوسَى الرِّضَا الْمُرْتَضى عَبْدِكَ وَوَلِىِّ دينِكَ الْقآئِمِ بِعَدْلِكَ وَالدّاعى اِلى دينِكَ وَدينِ آبائِهِ الصّادِقينَ صَلوةً لا يَقْوى عَلى اِحْصآئِها غَيْرُكَ اَللّهُمَّ صَلِّ عَلى مُحَمَّدِ بْنِ عَلِي عَبْدِكَ وَوَلِيِّكَ الْقآئِمِ بِاَمْرِكَ وَالدّاعى اِلى سَبيلِكَ اَللّهُمَّ صَلِّ عَلى عَلِىِّ بْنِ مُحَمَّدٍ عَبْدِكَ وَوَلِىِّ دينِكَ اَللّهُمَّ صَلِّ عَلَى الْحَسَنِ بْنِ عَلِي الْعامِلِ بِاَمْرِكَ الْقآئِمِ فى خَلْقِكَ

وَحُجَّتِكَ الْمُؤَدّى عَنْ نَبِيِّكَ وَشاهِدِكَ عَلى خَلْقِكَ الْمَخْصُوصِ بِكَرامَتِكَ الدّاعى اِلى طاعَتِكَ وَطاعَةِ رَسُولِكَ صَلَواتُكَ عَلَيْهِمْ اَجْمَعينَ اَللّهُمَّ صَلِّ عَلى حُجَّتِكَ وَوَلِيِّكَ الْقآئِمِ فى خَلْقِكَ صَلوةً تآمَّةً نامِيَةً باقِيَةً تُعَجِّلُ بِها فَرَجَهُ وَتَنْصُرُهُ بِها وَتَجْعَلُنا مَعَهُ فِى الدُّنْيا وَالاْخِرَةِ اَللّهُمَّ اِنّى اَتَقَرَّبُ اِلَيْكَ بِحُبِّهِمْ

وَاُوالى وَلِيَّهُمْ وَاُعادى عَدُوَّهُمْ فَارْزُقْنى بِهِمْ خَيْرَ الدُّنْيا وَالاْخِرَةِ وَاصْرِفْ عَنّى بِهِمْ شَرَّ الدُّنْيا والاْخِرَةِ وَاَهْوالَ يَوْمِ الْقِيامَةِ

Əşhədu ən la ilahə illəllahu vəhdəhu la şərikə ləh. Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh. Və ənnəhu səyyidul-əvvəlinə vəl-axirin. Və ənnəhu səyyidul-ənbiyai vəl-mursəlin. Əllahummə səlli ’əla Muhəmmədin əbdikə və rəsulikə və nəbiyyikə və səyyidi xəlqikə əcməin. Səlatən la yəqva ’əla ihsaiha ğəyruk. Əllahummə səlli ’əla Əmiril-

mu’mininə Əliyyibni Əbitalibin əbdikə və əxi rəsulikəl-ləzintəcəbtəhu biilmik. Və cəəltəhu hadiyən limən şi’tə min xəlqik. Vəddəlilə ’əla mən bəəstəhu birisalatikə və dəyyanəd-dini biədlik. Və fəsli qəzaikə bəynə xəlqik Vəlmuhəyminə ’əla zalikə kullih. Vəssəlamu ələyhi və rəhmətullahi və bərəkatuh. Əllahummə səlli ’əla Fatimətə binti nəbiyyikə və zəvcəti vəliyyikə və ummis-sibtəynil-Həsəni vəl Husəyn. Səyyidəy şəbabi əhlil-cənnəh. Əttuhrətit-tahirətil-mutəhhərəh. Ət-təqiyyətin-nəqiyyətir-rəziyyətiz-zəkiyyəh. Səyyidəti nisai əhlil-cənnəti əcməinə səlatən la yəqva ’əla ihsaiha ğəyruk. Əllahummə səlli ələl-Həsəni vəl Husəyn. Sibtəy nəbiyyikə və səyyidəy şəbabi əhlil-cənnəh. Əl qaiməyni fi xəlqikə vəd dəliləyni ’əla mən bəəstə birisalatikə və dəyyanəyid-dini biədlik. Və fəsləy qəzaikə bəynə xəlqik. Əllahummə səlli ’əla Əliyyibnil-Husəyni əbdikəl-qaimi fi xəlqikə vəd-dəlili ’əla mən bəəstə birisalatikə və dəyyanid-dini biədlik. Və fəsli qəzaikə bəynə xəlqikə Səyyidil-abidin Əllahummə səlli ’əla Muhəmməd ibni Əliyyin əbdikə və xəlifətikə fi ərzikə Baqiri ilmin-nəbiyyin. Əllahummə səlli ’əla Cəfər ibni Muhəmmədinis-Sadiq. Əbdikə və vəliyyi dinikə və huccətikə ’əla xəlqikə əcməin. Əssadiqil-Barr. Əllahummə səlli ’əla Musəbni Cə’fərin əbdikəs-salihi və lisanikə fi xəlqik. Ən-natiqi bihukmikə vəl-huccəti ’əla bəriyyətik. Əllahummə səlli ’əla Əliyyibni Musər-Rizəl-Murtəza. Əbdikə və vəliyyi dinikəl qaimi biədlik. Vəddai ila dinikə və dini abaihis-sadiqin.

Səlatən la yəqva ’əla ihsaiha ğəyruk. Əllahummə səlli ’əla Məhamməd ibni Əliyyin əbdikə və vəliyyikəl-qaimi biəmrikə vəddai ila səbilik. Əllahummə səlli ’əla Əliyyibni Muhəmmədin əbdikə və vəliyyi dinik. Əlahummə səlli ələl-Həsən ibni Əliyyin əlamili biəmrik. Əlqaimi fi xəlqik. Və huccətikəl-muəddi ən nəbiyyikə və şahidikə ’əla xəlqik. Əlməxsusi bikəramətik. Əddai ila taətikə və taəti rəsulikə səlavatukə ələyhim əcməin. Əllahummə səlli ’əla huccətikə və vəliyyik. Əlqaimi fi xəlqikə səlatən tammətən namiyətən baqiyəh. Tuəccilu biha fərəcəhu və tənsuruhu biha və təc’əluna məəhu fiddunya vəl axırəh. Əllahummə inni ətəqərrəbu iləykə bihubbihim və uvali vəliyyəhum və uadi əduvvəhum. Fərzuqni bihim xəyrəd-dunya vəl axirəh. Vəsrif ənni bihim şərrəd-dunya vəl-axirəti və əhvalə yəvmil-qiyaməh.

"Şəhadət verirəm ki, Allahdan başqa heç bir tanrı yoxdur. Onun heç bir şəriki yoxdur. Şəhadət verirəm ki, Muhəmməd (Allahın salamı olsun ona və onun əhli-beytinə) Onun qulu və elçisidir və o həqiqətən də, ilk və son məxluqların, ənbiyaların və mürsəllərin ağasıdır. İlahi, Öz bəndən, rəsulun, nəbin və bütün məxluqatının ağası olan Muhəmmədə (s) saymağa Səndən başqa kimsənin qüdrəti olmayan salavat göndər! İlahi, Öz qulun və Rəsulunun qardaşı Əli ibn Əbu Talibə salavat göndər! Elə bir kəsə ki, onu Öz elminlə seçib, istədiyin bəndələrin üçün hidayətçi, Öz risalətin üçün məbus etdiyin şəxsi tanımaqda yol

göstərən, Öz dinində ədalətli hakim, bəndələrinin arasında haqqı batildən ayıran qərar verib, məqamını hamıdan üstün etmisən. Salam olsun ona, Allahın rəhmət və bərəkəti olsun ona! İlahi! Rəsulunun qızı, öz seçdiyin vəlinin zövcəsi, Peyğəmbərin iki nəvəsinin – Cənnət cavanlarının ağaları Həsən və Hüseynin anası Fatiməyə – pak-pakizə xanıma, hər növ zahiri və batini çirkinliklərdən paklanmış, Təqiyyə (təqvalı), Nəqiyyə (təmiz), Rəziyyə (Allahın əmrinə razı), Zəkiyyə (pak) və Cənnət qadınlarının seyyidəsi olan xanıma salavat göndər! Elə bir salavat ki, Səndən başqası onu saya bilməsin. İlahi, Həsən və Hüseynə, Peyğəmbərin (s) iki nəvəsinə, Cənnət cavanlarının iki ağasına, bəndələrinin arasında haqq uğrunda qiyam edənlərə, Öz risalətin üçün məbus etdiyin şəxsi tanımaqda iki dəlil olanlara, dininin iki ədalətli hakiminə və bəndələrinin arasında haqqı batildən ayıranlara salavat göndər! İlahi, bəndələr arasında höccətin olan, Öz risalətinə məbus etdiyin şəxsi tanımaqda dəlil olan, dininin ədalətli hakimi olan, bəndələr arasında haqqı batildən ayıran abidlərin ağası qulun Əli ibn Hüseynə salavat göndər!

İlahi, Öz qulun, yer üzündə xəlifən və peyğəmbərlər elmini yarıb incəliklərinə varan Muhəmməd ibn Əliyə salavat göndər!

İlahi, Öz bəndən, dininin başçısına, bütün bəndələrinə höccət olan sadiq, xeyirxah Cəfər ibn Muhəmməd əs-Sadiqə salam göndər!

İlahi, saleh bəndən, bəndələrinin arasında hikmətlə danışan dilin və bəndələrin üçün höccət olan Musa ibn Cəfərə salam göndər!

İlahi, Səndən razı olan, qulun, dininin başçısı, ədalətini bərqərar edən, Sənin və öz sədaqətli ata-babalarının dininə dəvət edən Əli ibn Musa ər-Rizaya salavat göndər! Elə bir salavat ki, Səndən başqa kimsə onu saya bilməsin.

İlahi, Öz qulun, dostun, Sənin əmrini bərpa edən və Sənin yoluna dəvət edən Muhəmməd ibn Əliyə salavat göndər!

İlahi, Öz qulun və dininin başçısı Əli ibn Muhəmmədə salavat göndər!

İlahi, Sənin Peyğəmbərin tərəfindən haqq dini bərpa edən, Sənin  xalqının şahidi olan, lütf və kəramətdə xüsusi olan Sənin və Peyğəmbərinin yoluna dəvət edən höccətin Həsən ibn Əliyə salavat göndər! Sənin salavatın olsun onların hamısına! İlahi, Öz höccətinə və bəndələrinin haqqını bərpa edən dostuna (imam Zaman – Allah onun zühurunu tezləşdirsin) salavat göndər! Ona tam, artan və davamlı salavat göndər, o salavatın səbəbi ilə zühurunu tezləşdir, ona kömək yetir, dünya və axirətdə bizi onunla birgə et!

İlahi, həqiqətən,  mən onlara məhəbbət bəsləməklə Sənin dərgahına yaxınlaşır, dostları ilə dostluq, düşmənləri ilə düşmənlik edirəm. Onların hörmətinə xatir mənə dünya və axirət xeyrini nəsib et, onların hörmətinə xatir dünya və axirət şərini,

Qiyamət gününün dəhşətli məqamlarını məndən uzaqlaşdır!"

9. Sonra şərif qəbrin baş tərəfində oturub deyirsən:

اَلسَّلامُ عَلَيْكَ يا وَلِىَّ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا حُجَّةَ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا نُورَ اللّهِ فى ظُلُماتِ الاْ َرْضِ اَلسَّلامُ عَلَيْكَ يا عَمُودَ الدّينِ0. اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ آدَمَ صِ َفْوَةِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ نُوحٍ نَبِىِّ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ اِبْراهيمَ خَليلِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ اِسْماعيلَ ذَبيحِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ مُوسى كَليمِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ عيسى رُوحِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ مُحَمَّدٍ رَسُولِ اللّهِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ اَميرِ الْمُؤْمِنينَ عَلِي وَلِىِّ اللّهِ وَوَصِىِّ رَسُولِ رَبِّ الْعالَمينَ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ

فاطِمَةَ الزَّهْرآءِ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ
الْحَسَنِ وَالْحُسَيْنِ سَيِّدَىْ شَبابِ اَهْلِ الجَنَّةِ
اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ عَلِىِّ بْنِ الْحُسَيْنِ
زَيْنِ الْعابِدينَ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ مُحَمَّدِ
بْنِ عَلِي باقِرِ عِلْمِ الاَْوَّلينَ وَالاْ خِرينَ
اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ جَعْفَرِ بْنِ مُحَمَّدٍ
الصّادِقِ الْبآرِّ اَلسَّلامُ عَلَيْكَ يا وارِثَ
مُوسَى بْنِ جَعْفَرٍ اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا
الصِّدّيقُ الشَّهيدُ اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا الْوَصِىُّ
الْبآرُّ التَّقِىُّ اَشْهَدُ اَنَّكَ قَدْ اَقَمْتَ الصَّلوةَ
وَآتَيْتَ الزَّكوةَ وَاَمَرْتَ بِالْمَعْرُوفِ وَنَهَيْتَ
عَنِ الْمُنْكَرِ وَعَبَدْتَ اللّهَ حَتّى اَتيكَ الْيَقينُ
اَلسَّلامُ عَلَيْكَ يا اَبَا الْحَسَنِ وَرَحْمَةُ اللّهِ
وَبَرَكاتُهُ

Əssəlamu ’ələykə ya vəliyyəllah. Əssəlamu ’ələykə ya huccətəllah. Əssəlamu ’ələykə ya nurəllahi fi zulumatil-ərz. Əssəlamu ’ələykə ya əmudəd-din.

Əssəlamu ’ələykə ya varisə Adəmə səfvətillah. Əssəlamu ’ələykə ya varisə Nuhin-nəbiyyillah. Əssəlamu ’ələykə ya varisə İbrahimə xəlilillah. Əsəlamu ’ələykə ya varisə İsmailə zəbihillah. Əssəlamu ’ələykə ya varisə Musa kəlimillah. Əssəlamu ’ələykə ya varisə’İsa ruhillah. Əssəlamu ’ələykə ya varisə Muhəmmədin rəsulillah. Əssələmu ’ələykə ya varisə Əmiril-mumininə Əliyyin vəliyyillahi və vəsiyyi rəsuli Rəbbil-aləmin. Əssəlamu ’ələykə ya varisə Fatimətəz-Zəhra. Əssəlamu ’ələykə ya varisəl-Həsəni vəl-Husəyn. Səyyidəy şəbabi əhlil cənnəh. Əssəlamu ’ələykə ya varisə Əliyyibnil-Husəyni Zəynil-abidin. Əssəlamu ’ələykə ya varisə Muhəmməd ibni Əliyyin Baqiri ilmil-əvvəlinə vəl axirin. Əsəlamu ’ələykə ya varisə Cə’fər ibni Muhəmmədinis-Sadiqil-Barr. Əssəlamu ’ələykə ya varisə Musəbni Cə’fər. Əssəlamu ’ələykə əyyuhəs-siddiquş-şəhid. Əssəlamu ’ələykə əyyuhəl-vəsiyyul-barrut- təqiyy. Əşhədu ənnəkə qəd əqəmtəs-səlatə və atəytəz-zəkatə və əmərtə bil-mərufi və nəhəytə ənil-munkər. Və əbədtəllahə hətta ətakəl-yəqin. Əssəlamu ’ələykə ya Əbəlhəsəni və rəhmətullahi və bərəkatuh.

"Salam olsun sənə, ey Allahın vəlisi!

Salam olsun sənə, ey Allahın höccəti!

Salam olsun sənə, ey yer üzünün zülmətlərindəki Allah nuru!

Salam olsun sənə, ey dinin sütunu!

Salam olsun sənə, ey Allahın seçdiyi Adəmin varisi!

Salam olsun sənə, ey Allah peyğəmbəri Nuhun varisi!

Salam olsun sənə, ey Allahın dostu olan İbrahimin varisi!

Salam olsun sənə, ey Allah qurbanı olan İsmayılın varisi!

Salam olsun sənə, ey Allahla həmsöhbət olan Musanın varisi!

Salam olsun sənə, ey Allah ruhu olan İsanın varisi!

Salam olsun sənə, ey Allah rəsulu Muhəmmədin (s) varisi!

Salam olsun sənə, ey Allahın vəlisi, aləmlərin Rəbbinin Rəsulunun canişini Əli ibn Əbutalibin varisi!

Salam olsun sənə, ey Fatimeyi-Zəhranın varisi!

Salam olsun sənə, ey cənnət cavanlarının ağaları olan Həsən və Hüseynin varisi!

Salam olsun sənə, ey abidlərin zinəti olan Əli ibn Hüseynin varisi!

Salam olsun sənə, ey əvvəldəkilərin və axırdakıların elmini yarıb incəliklərinə varan Muhəmməd ibn Əlinin varisi!

Salam olsun sənə, ey xeyirxah və Sadiq olan Cəfər ibn Muhəmmədin varisi!

Salam olsun sənə, ey Musa ibn Cəfərin varisi!

Salam olsun sənə, ey Siddiq və Şəhid!

Salam olsun sənə, ey (peyğəmbərin) canişin, ey xeyirxah, ey təqvalı. Şəhadət verirəm ki, həqiqətən, sən ömrünün axrınadək namazı bərqərar etdin, zəkat

verdin, yaxşılığa əmr etdin, pisliklərdən çəkindirdin və Allaha ibadət etdin. Salam olsun sənə, ey Əbülhəsən! Allahın rəhmət və bərəkəti olsun sənə.

10. Sonra üzünü zirehə yapışdırıb deyərsən:

اَللّهُمَّ اِلَيْكَ صَمَدْتُ مِنْ اَرْضى وَقَطَعْتُ الْبِلادَ رَجاءَ رَحْمَتِكَ فَلا تُخَيِّبْنى وَلا تَرُدَّنى بِغَيْرِ قَضاءِ حاجَتى وَارْحَمْ تَقَلُّبى عَلى قَبْرِ ابْنِ اَخى رَسُولِكَ صَلَواتُكَ عَلَيْهِ وَآلِهِ بِاَبى اَنْتَ وَاُمّى يا مَوْلاىَ اَتَيْتُكَ زائِراً وافِداً عآئِذاً مِمّا جَنَيْتُ عَلى نَفْسى وَاحْتَطَبْتُ عَلى ظَهْرى فَكُنْ لى شافِعاً اِلَى اللّهِ يَوْمَ فَقْرى وَفاقَتى فَلَكَ عِنْدَ اللّهِ مَقامٌ مَحْمُودٌ وَاَنْتَ عِنْدَهُ وَجيهٌ

Əllahummə iləykə səmədtu min ərzi və qətə’tul-biladə rəcaə rəhmətik. Fəla tuxəyyibni və la təruddəni biğəyri qəzai hacəti. Vərhəm təqəllubi ’əla qəbribni əxi rəsulikə sələvatukə ələyhi və alih. Biəbi əntə və ummi ya məvlay. Ətəytukə zairən vafidən aiza. Mimma cənəytu ’əla nəfsi vəhtətəbtu ’əla zəhri.

Fəkun li şafiən iləllahi yəvmə fəqri və faqəti. Fələkə indəllahi məqamun məhmudun və əntə indəhu vəcih.

İlahi, rəhmətinə ümid bəslədiyimə görə öz vətənimdən çıxaraq şəhərlərdən keçib sənə tərəf gəldim, mənim ümidimi kəsmə, istəklərimi yerinə yetirməmiş məni geri qaytarma! Sənin Peyğəmbərinin (Sənin salavatın olsun ona və onun əhli-beytinə) qardaşının oğlunun qəbrinə sığınmağıma görə mənə rəhm et. Atam-anam sənə fəda olsun, ey mənim mövlam!

Ey mövlam, sənin qəbrinin ziyarətçisiyəm. Nəfsimə etdiyim cinayətlərdən çiyinlərimə yüklədiyim günahlarımın bağışlanması üçün gəlmişəm. Mənim üçün ehtiyac, fəqirlik və yoxsulluq günündə Allah yanında şəfaətçi ol, çünki Allah yanında sənin üçün bəyənilmiş bir məqam var. Sən də Allah yanında hörmətlisən".

11. Sonra sağ əlini qaldırıb, sol əlini zirehə çəkib deyərsən:

اَللّٰهُمَّ اِنّى اَتَقَرَّبُ اِلَيْكَ بِحُبّهِمْ
وَبِوِلايَتِهِمْ اَتَوَلّى آخِرَهُمْ بِما تَوَلَّيْتُ بِهِ
اَوَّلَهُمْ وَاَبْرَءُ مِنْ كُلِّ وَليجَةٍ دُونَهُمْ اَللّٰهُمَّ
الْعَنِ الَّذينَ بَدَّلُوا نِعْمَتَكَ وَاتَّهَمُوا نَبِيَّكَ

وَجَحَدُوا بِآياتِكَ وَسَخِرُوا بِإمامِكَ
وَحَمَلُوا النّاسَ عَلى اَكْتافِ آلِ مُحَمَّدٍ اَللّهُمَّ
اِنّى اَتَقَرَّبُ اِلَيْكَ بِاللَّعْنَةِ عَلَيْهِمْ وَالْبَرآئَةِ
مِنْهُمْ فِى الدُّنْيا وَالاْخِرَةِ يا رَحْمنُ

Əllahummə inni ətəqərrəbu iləykə bihubbihim və bivilayətihim. Ətəvəlla axirəhum bima təvəlləytu bihi əvvələhum. Və Əbrəu min kulli vəlicətin dunəhum. Əllahumməl'ənilləzinə bəddəlu ni'mətəkə vəttəhəmu nəbiyyəkə və cəhədu biayatikə və səxiru biimamikə və həməlunnasə 'əla əktafi ali Muhəmməd. Əllahummə inni ətəqərrəbu iləykə billə'nəti ələyhim vəl-bəraəti minhum fiddünya vəl-axirəti ya Rəhman.

İlahi, imamların (ə) məhəbbəti, vilayətinə görə Sənin dərgahına yaxınlaşıram. Onların birincisinə məhəbbət bəslədiyim kimi axırıncısına da məhəbbət bəsləyirəm. Onlardan başqa hər bir sığınacaqdan uzağam. İlahi, Sənin nemətini (imamətini üsyankarlıqla) dəyişdirənlərə, Peyğəmbərinə (xilafət məsələsində) ittiham vuranlara, Sənin ayələrini inkar edənlərə, Sənin imamına  istehza edənlərə, camaatı Ali Muhəmmədin düşmənçiliyinə vadar edənlərə lənət et. Mən dünya və axirətdə onlara lənət edib bezarlıq etməklə sənin dərgahına yaxınlaşıram. Ey Rəhman olan Allah!"

12. Sonra qəbrin ayaq tərəfində durub deyirsən:

صَلَّى اللَّهُ عَلَيْكَ يا اَبَا الْحَسَنِ صَلَّى اللَّهُ عَلى رُوحِكَ وَبَدَنِكَ صَبَرْتَ اَنْتَ الصّادِقُ الْمُصَدَّقُ قَتَلَ اللَّهُ مَنْ قَتَلَكَ بِالاَيْدى وَالاَلْسُنِ

Səlləllahu ’ələykə ya Əbəlhəsən. Səlləlləhu ’əla ruhikə və bədənik. Səbərtə və əntəs-Sadiqul-musəddəq. Qətələllahu mən qətələkə bil-əydi vəl-əlsun.

"Allahın salavatı olsun sənə, ey Əbülhəsən. Allahın salavatı olsun sənin ruhuna və sənin bədəninə, sən doğruçu və təsdiq olunmuş olduğun halda (müsibətlərə) səbr etdin. Səni dil və əlləri ilə öldürənləri Allah öldürsün."

Bu ziyarətdən sonra ağla, yalvarıb-yaxar və Əmir əl-möminin, imam Həsən, imam Hüseyn və sair imamların (ə) qatillərinə lənət et, sonra mübarək qəbrin baş tərəfinə gedib iki rəkət namaz qıl, birinci rükətdə: "Həmd"dən sonra "Ya sin" surəsini, ikinci rəkətdə isə "Həmd"dən sonra "ər-Rəhman" surəsini oxu. Sonra özünə, ata-anana, qohum-qardaşa və sair möminlərə çoxlu dua et. Hər nə qədər mümkündürsə, mübarək qəbrin baş tərəfində otur və vacib

namazlarını da orada qıl. Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, indiki zamanda imamı ziyarət edən çoxdur və məqbərənin, xüsusən qəbrin baş tərəfində yerin məhdud olduğu üçün yaxşıdır ki, insan başqa zəvvarların halını nəzərə alıb ziyarətə xas olan əməlləri yerinə yetirdikdən sonra öz yerini başqasına versin. Əhli-beytin qatillərinə hər hansı dil və ibarətlə lənət etmək caizdir. Lakin bəzi dualardan istifadə olunur ki, bu dualardakı ibarətlə olsa, daha yaxşıdır.

اَللّٰهُمَّ الْعَنْ قَتَلَةَ اَميرِ الْمُؤْمِنينَ وَقَتَلَةَ
الْحَسَنِ وَالْحُسَيْنِ عَلَيْهِمُ السَّلامُ وَقَتَلَةَ
اَهْلِ بَيْتِ نَبِيِّكَ اَللّٰهُمَّ الْعَنْ اَعْدآءَ آلِ مُحَمَّدٍ
وَقَتَلَتَهُمْ وَزِدْهُمْ عَذابا فَوْقَ الْعَذابِ وَهَوانا
فَوْقَ هَوانٍ وَذُلاّ فَوْقَ ذُلّ وَخِزْيا فَوْقَ
خِزْيٍ اَللّٰهُمَّ دُعَّهُمْ اِلَى النّارِ دَعّا وَاَرْكِسْهُمْ
فى اَليمِ عَذابِكَ رَكْساو َاحْشُرْهُمْ
وَاَتْباعَهُمْ اِلى جَهَنَّمَ زُمَرا

Əllahumməl’ən qətələtə Əmiril-mu’mininə və qətələtəl-Həsəni vəl-Husəyni ələyhimus-səlam. Və qətələtə əhlibəyti nəbiyyik. Əllahumməl’ən ə’daə ali Muhəmmədin və qətələtəhum və zidhum əzabən

fəvqəl-əzab. Və həvanən fəvqə həvan. Və zullən fəvqə zull. Və xizyən fəvqə xizy. Əllahummə du’əhum ilən-nari də’ən və ərkishum fi əliimi əzabikə rəksən vəhşurhum və ətbaəhum ila  cəhənnəmə zuməra.

"İlahi, Əmir əl-mömininin qatillərinə, Həsən və Hüseynin (salam olsun onlara) qatillərinə və Peyğəmbərinin qatillərinə lənət et. İlahi, Ali Muhəmmədin düşmənlərinə və onların qatillərinə lənət et. Onların əzablarına əzab, alçaqlıqlarına alçaqlıq, zillətlərinə zillət və zəlilliklərinə zəlillik artır. İlahi, onları Cəhənnəm oduna at və onlara şiddətli əzab libası geyindir. Onları və onların davamçılarını bir qrup olaraq Cəhənnəmə topla."

### *İMAM RİZANIN (Ə) ZİYARƏTİNDƏN SONRA OXUNAN DUA*

"Töhfət üz-zair" kitabında yazılmışdır: Şeyx Mufid nəql edir ki, İmam Rizanın (ə) ziyarət namazından sonra bu duanın oxunması müstəhəbdir.

**اَللّٰهُمَّ اِنّى اَسْئَلُكَ يا اَللّٰهُ الدّآئِمُ فى مُلْكِهِ الْقآئِمُ فى عِزِّهِ الْمُطاعُ فى سُلْطانِهِ الْمُتَفَرِّدُ كِبْرِيائِهِ الْمُتَوَحِّدُ فى دَيْمُومِيَّةِ بَقآئِهِ الْعادِلُ فى بَرِيَّتِهِ الْعالِمُ قَضِيَّتِهِ**

الْكَرِيمُ فِي تَاءْخيرِ عُقُوبَتِهِ اِلـهى حاجاتى مَصْرُوفَةٌ اِلَيْكَ وَآمالى مَوْقُوفَةٌ لَدَيْكَ وَكُلَّما وَفَّقْتَنى مِنْ خَيْرٍ فَاَنْتَ دَليلى عَلَيْه وَطَريقى اِلَيْهِ يا قَديراً لا تَؤُدُهُ الْمَطالِبُ يا مَلِيّاً يَلْجَاءُ اِلَيْهِ كُلُّ راغِبٍ ما زِلْتُ مَصْحُوباً مِنْكَ بِالنِّعَمِ جارِياً عَلى عاداتِ الاْحْسانِ وَالْكَرَمِ اَسْئَلُكَ بِالْقُدْرَةِالنّافِذَةِ جَميعِ الاْشْياءِ وَقَضائِكَ الْمُبْرَمِ الَّذِي تَحْجُبُهُ بِاَيْسَرِ الدُّعآءِ وَبِالنَّظْرَةِ الَّتى نَظَرْتَ بِها اِلَى الْجِبالِ فَتَشامَخَتْ وَاِلىَ الاْرَضينَ فَتَسَطَّحَتْ وَاِلَى السَّمواتِ فَارْتَفَعَتْ وَاِلَى الْبِحارِ فَتَفَجَّرَتْ يا مَنْ جَلَّ عَنْ اَدَواتِ لَحَظاتِ الْبَشَرِ وَلَطُفَ عَنْ دَقآئِقِ خَطَراتِ الْفِكَرِ لا تُحْمَدُ يا سَيِّد اِلاّ بِتَوْفيقٍ مِنْكَ يَقْتَضى حَمْداً وَلا تُشْكَرُ عَلى اَصْغَرِ مِنَّةٍ اِلا اسْتَوْجَبْتَ بِها شُكْراً فَمَتى

تُحْصى نَعْماۤؤُكَ يا اِلـهى وَتُجازى آلاۤؤُكَ ا
مَوْلا ىَ وَتُكافِئُ صَنايِعُكَ يا سَيِّدى وَمِنْ
نِعَمِكَ يَحْمَدُ الْحامِدُونَ وَمِنْ شُكْرِكَ يَشْكُرُ
الشّاكِرُونَ وَاَنْتَ الْمُعْتَمَدُ لِلذُّنُوبِ عَفْوِكَ
وَالنّاشِرُ عَلَى الْخاطِئينَ جَناحَ سَ ِتْرِكَ
وَاَنْتَ الْكاشِفُ لِلضُّرِّ بِيَدِكَ فَكَمْ مِنْ سَيِّئَةٍ
اَخْفاها حِلْمُكَ حَتّى دَخِلَتْ وَحَسَنَةٍ
ضاعَفَها فَضْلُكَ حَتّى عَظُمَتْ عَلَيْها
مُجازاتُكَ جَلَلْتَ اَنْ يُخافَ مِنْكَ اِلا الْعَدْلُ
وَاَنْ يُرْجى مِنْكَ اِلا الاْ ِحْسانُ وَالْفَضْلُ
فَامْنُنْ عَلَيَّ بِما اَوْجَبَهُ فَضْلُكَ وَلا تَخْذُلْنى
بِما يَحْكُمُ بِه عَدْلُكَ سَيِّدى لَوْ عَلِمَتِ
الاْ َرْضُ بِذُنُوبي لَساخَتْ اَوْ الْجِبالُ
لَهَدَّتْنى اَوِ السَّمواتُ لاَخْتَطَفَتْنى اَوِ الْبِحارُ
لاَ َغْرَقَتْنى سَيِّدى سَيِّدى سَيِّدى مَوْلاىَ
مَوْلاىَ مَوْلاىَ قَدْ تَكَرَّرَ وُقُومي لِضِيافَتِكَ

hikmətillahi və həfəzəti sirrillah. Və həmələti kitabillahi və əvsiyai nəbiyyillah. Və zurriyyəti Rəsulillahi səlləllahu ələyhi və alihi və rəhmətullahi və bərəkatuh. Əssəlamu ələd-duati iləllahi vəl-ədillai ’əla mərzatillah. Vəl-mustəqirrinə fi əmrillahi vət-taammiinə fi məhəbbətillah. Vəl muxlisinə fi təvhidillahi vəl-muzhirinə liəmrillahi və nəhyih. Və ibadihil mukrəminəlləzinə la yəsbiqunəhu bilqəvli və hum biəmrihi yə’məlunə və rəhmətullahi və bərəkatuh. Əssəlamu ələl-əimmətid-duati vəl-qadətil-hudati vəs-sadətil-vulati vəzzadətil-humati və əhliz-zikri və ulil-əmr. Və bəqiyyətillahi və xiyərətihi və hizbih. Və əybəti ilmihi və huccətih. Və siratihi və nurih. Və burhanihi və rəhmətullahi və bərəkatuh. Əşhədu ən la ilahə illəllah. Vəhdəhu la şərikə ləh. Kəma şəhidəllahu linəfsih. Və şəhidət ləhu məlaikətuhu və ulul-ilmi min xəlqih. La ilahə illa huvəl-Əzizul-Həkim. Və əşhədu ənnə Muhəmmədən əbduhul-muntəcəb. Və rəsuluhul-murtəza. Ərsələhu bil huda və dinil həqq. Liyuzhirəhu ələd-dini kullihi və ləv kərihəl muşrikun. Və əşhədu ənnəkumul-əimmətur-raşidun. Əl-məhdiyyunəl-mə’sumun. Əl-mukərrəmunəl muqərrəbun. Əl-muttəqunəs-sadiqunəl-mustəfəvn. Əl-mutiunə lillahil-qəvvamunə biəmrih. Əl-amilunə biiradətihil-faizunə bikəramətih. İstəfakum biilmihi vərtəzakum liğəybih. Vəxtarəkum lisirrihi vəctəbakum biqudrətih. Və əəzzəkum bihudahu və xəssəkum biburhanih. Vəntəcəbəkum linurihi (binurihi) və əyyədəkum biruhih. Və rəziyəkum

xuləfaə fi ərzihi və hucəcən ’əla bəriyyətih. Və ənsarən lidinihi və həfəzətən lisirrih. Və xəzənətən liilmihi və mustəvdə’ən lihikmətih. Və təracimətən livəhyihi və ərkanən litəvhidih.  Və şuhədaə ’əla xəlqihi və ə’lamən liibadih. Və mənarən fi biladihi və ədillaə ’əla siratih. Əsəməkumullahu minəz-zələli və amənəkum minəl-fitən. Və təhhərəkum minəd-dənəsi və əzhəbə ənkumur-ricsə və təhhərəkum təthira. Fəəzzəmtum cəlaləhu və əkbərtum şənəh. Və məccədtum kərəməhu və ədəmtum zikrəh. Və vəkkədtum misaqəhu və əhkəmtum əqdə taətih. Və nəsəhtum ləhu fis-sirri vəl-əlaniyəh. Və dəəvtum ila səbilihi bil-hikməti vəl-məv’izətil-həsənəh. Və bəzəltum ənfusəkum fi mərzatihi və səbərtum ’əla ma əsabəkum fi cənbih. Və əqəmtumus-səlatə və atəytumuz-zəkatə və əmərtum bil-mə’rufi və nəhəytum ənil-munkəri və cahədtum fillahi həqqə cihadih. Hətta ə’ləntum də’vətəhu və bəyyəntum fəraizəh. Və əqəmtum hududəhu və nəşərtum şərayiə əhkamihi və sənəntum sunnətəh. Və sirtum fi zalikə minhu ilərriza və səlləmtum ləhul-qəza və səddəqtum min rusulihi mən məza. Fər rağibu ənkum mariq. Vəl-lazimu ləkum lahiq. Vəl-muqəssiru fi həqqikum zahiq. Vəl-həqqu məəkum və fikum və minkum və iləykum. Və əntum əhluhu və mə’dinuh. Və mirasun-nubuvvəti indəkum və iyabul-xəlqi iləykum və hisabuhum ələykum. Və fəslul-xitabi indəkum və ayatullahi lədəykum. Və əzaimuhu fikum. Və nuruhu və burhanuhu indəkum və əmruhu

iləykum. Mən valakum fəqəd valəllahə və mən adakum fəqəd adəllah. Və mən əhəbbəkum fəqəd əhəbbəllahə və mən əbğəzəkum fəqəd əbğəzəllah. Və məni'təsəmə bikum fəqədi'təsəmə billah. Əntumus-siratul-əqvəm. Və şuhədau daril-fəna və şufəau daril-bəqa. Vərrəhmətul-məvsulətu vəl-ayətul-məxzunəh. Vəl-əmanətul-məhfuzətu vəl-babul-mubtəla bihinnas. Mən ətakum nəca və mən ləm yətikum hələk. İləllahi təd'unə və ələyhi tədullun. Və bihi tu'minunə və ləhu tusəllimun. Və biəmrihi tə'məlunə və ila səbilihi turşidunə və biqəvlihi təhkumun.

Səədə mən valakum və hələkə mən adakum. Və xabə mən cəhədəkum və zəllə mən farəqəkum. Və fazə mən təməssəkə bikum və əminə mən ləcəə iləykum. Və səlimə mən səddəqəkum və hudiyə məni'təsəmə bikum. Mənittəbəəkum fəl-cənnətu mə'vahu və mən xaləfəkum fən-naru məsvah. Və mən cəhədəkum kafirun və mən harəbəkum muşrik. Və mən rəddə 'ələykum fi əsfəli dərəkin minəl-cəhim. Əşhədu ənnə haza sabiqun ləkum fima məza və carin ləkum fima bəqiy. Və ənnə ərvahəkum və nurəkum və tinətəkum vahidətun tabət və təhurət bə'zuha min bə'z. Xələqəkumullahu ənvarən fəcəələkum biərşihi muhdiqinə hətta mənnə ələyna bikum. Fəcəələkum fi buyutin əzinəllahu ən turfəə və yüzkərə fihəsmuh. Və cəələ səlatəna (sələvatəna) ələykum və ma xəssəna bihi min vilayətikum tibən lixəlqina və təharətən liənfusina. Və təzkiyətən

(bərəkətən) ləna və kəffarətən lizunubina. Fəkunna indəhu musəlliminə bifəzlikum və mə’rufinə bitəsdiqina iyyakum. Fəbələğəllahu bikum əşrəfə məhəllil-mukərrəminə və ə’la mənazilil-muqərrəbinə və ərfəə dərəcatil-mursəlin. Həysu la yəlhəquhu lahiqun və la yəfuquhu faiq. Və la yəsbiquhi sabiqun və la yətməu fi idrakihi tami’. Hətta la yəbqa mələkun muqərrəbun və la nəbiyyun mursəlun və la siddiqun və la şəhid. Və la alimun və la cahil. Vəla dəniyyun və la fazil. Və la muminun salihun vəla facirun talih. Və la cəbbarun ənidun və la şəytanun mərid. Və la xəlqun fima bəynə zalikə şəhidun illa ərrəfəhum cəlalətə əmrikum və izəmə xətərikum. Və kibərə şə’nikum və təmamə nurikum. Və sidqə məqaidikum və səbatə məqamikum. Və şərəfə məhəllikum və mənzilətikum indəhu və kəramətəkum ələyh. Və xassətəkum lədəyhi və qurbə mənzilətikum minh. Biəbi əntum və ummi və əhli və mali və usrəti. Uşhidullahə və uşhidikum ənni mu’minin bikum və bima aməntum bih. Kafirun biəduvvikum və bima kəfərtum bih. Mustəbsirun bişə’nikum və bizəlaləti mən xaləfəkum. Muvalin ləkum və liəvliyaikum. Mubğizun liə’daikum və muadin ləhum. Silmun limən saləməkum və hərbun limən harəbəkum. Muhəqqiqun lima həqqəqtum. Mubtilun lima əbtəltum. Mutiun ləkum, arifun bihəqqikum, muqirrun bifəzlikum, muhtəmilun biilmikum, muhtəcibun bizimmətikum, mu’tərifun bikum mu’minun biiyabikum, musəddiqun birəc’ətikum, muntəzirun

liəmrikum, murtəqibun lidəvlətikum, axizun biqəvlikum, amilun biəmrikum mustəcirun bikum, zairun ləkum, laizun aizun biquburikum, mustəşfiun iləllahi əzzə və cəllə bikum. Və mutəqərribun bikum iləyh. Və muqəddimukum əmamə təlibəti və həvaici və iradəti fi kulli əhvali və umuri. Muminun bisirrikum və əlaniyətikum və  şahidikum və ğaibikum və əvvəlikum və axirikum. Və mufəvvizun fi zalikə kullihi iləykum və musəllimun fihi məəkum. Və qəlbi ləkum musəllimun və rə'yi ləkum təbəun və nusrəti ləkum muəddətun hətta yuhyiyəllahu-təala dinəhu bikum. Və yəruddəkum fi əyyamihi və yuzhirəkum liədlihi və yuməkkinəkum fi ərzih. Fəməəkum məəkum la məə ğəyrikum. Aməntu bikum və təvəlləytu axirəkum bima təvəlləytu bihi əvvələkum. Və bəri'tu iləllahi əzzə və cəllə min ə'daikum və minəl cibti vət-tağuti vəş-şəyatini və hizbihimizzaliminə ləkum. Əl-cahidinə lihəqqikum vəl-mariqinə min vilayətikum vəlğasibinə liirsikum. Əş-şakkiinə fikumul-munhərifinə ənkum. Və min kulli vəlicətin dunəkum və kulli mutain sivakum. Və minəl-əimmətilləzinə yəd'unə ilənnar. Fəsəbbətəniyəllahu əbədən ma həyiytu 'əla muvalatikum. Və məhəbbətikum və dinikum. Və vəffəqəni litaətikum və rəzəqəni şəfaətəkum. Və cəələni min xiyari məvalikum. Əttabiinə lima dəəvtum iləyhi və cəələni mimmən yəqtəssu asarəkum və yəsluku səbiləkum və yəhtədi bihudakum və yuhşəru fi zumrətikum. Və yəkirru fi rəc'ətikum və yuməlləku fi dəvlətikum. Və yuşərrəfu fi afiyətikum və yuməkkənu

fi əyyamikum. Və təqirru əynuhu ğədən biru’yətikum. Biəbi əntum və ummi və nəfsi və əhli və mali. Mən əradəllahə bədəə bikum və mən vəhhədəhu qəbilə ənkum və mən qəsədəhu təvəccəhə bikum. Məvaliyyə, la uhsi sənaəkum və la əbluğu minəl-mədhi kunhəkum və minəl-vəsfi qədrəkum. Və əntum nurul-əxyari və hudatul-əbrari və hucəcul-Cəbbar. Bikum fətəhəllahu və bikum yəxtim. Və bikum yunəzzilul-ğəysə və bikum yumsikus-səmaə ən təqəə ələl-ərzi illa biiznih. Və bikum yunəffisul-həmmə və yəkşifuz-zurr. Və indəkum ma nəzələt bihi rusuluhu və həbitət bihi məlaikətuh. Və ila cəddikum (əgər Əmirəl-möminini ziyarət edirsənsə "və ila cəddikum" sözünün əvəzinə de) və ila əxikə buisər-Ruhul-Əmin. Atakumullahu ma ləm yu’ti əhədən minəl-aləmin. Tə’təə kullu şərifin lişərəfikum və bəxəə kullu mutəkəbbirin litaətikum. Və xəzəə kullu cəbbarin lifəzlikum və zəllə kullu şəy’in ləkum. Və əşrəqətil-ərzu binurikum və fazəl-faizunə bivilayətikum. Bikum yusləku ilər-rizvani və ’əla mən cəhədə vilayətəkum ğəzəbur-Rəhman. Biəbi əntum və ummi və nəfsi və əhli və mali. Zikrukum fiz-zakirinə və əsmaukum fil-əsma. Və əcsadukum fil-əcsadi və ərvahukum fil-ərvah. Və ənfusukum fin nufusi və asarukum fil-asari və quburukum fil-qubur. Fəma əhla əsmaəkum və əkrəmə ənfusəkum. Və ə’zəmə şənəkum və əcəllə xətərəkum. Və əvfa əhdəkum və əsdəqə və’dəkum. Kəlamukum nurun və əmrukum  ruşdun və vəsiyyətukumut-təqva. Və fi’lukumul-xəyru və

adətukumul-ihsanu və səciyyətukumul-kərəm. Və şə’nukumul-həqqu vəs-sidqu vər-rifq. Və qəvlukum hukmun və hətmun və rə’yukum ilmun və hilmun və həzm. İn zukirəl-xəyru kuntum əvvələhu və ələhu və fər’əhu və mə’dinəh. Və mə’vahu və muntəhah. Biəbi əntum və ummi və nəfsi. Kəyfə əsifu husnə sənaikum və uhsi cəmilə bəlaikum. Və bikum əxrəcənəllahu minəz-zulli və fərrəcə ənna ğəmməratilkuruub. Və ənqəzəna min şəfa curufil-hələkati və minən-nar. Biəbi əntum və ummi və nəfsi. Bimuvalatikum əlləmənəllahu məalimə dinina və əsləhə ma kanə fəsədə min dunyana. Və bimuvalatikum təmmətil-kəlimətu və əzumətin-ni’mətu və’tələfətil-furqəh. Və bimuvalatikum tuqbəlut-taətul-muftərəzəh. Vələkumul-məvəddətul-vacibətu vəd-dərəcatur-rəfiətu vəl-məqamul-məhmudu vəl-məkanul-mə’lumu indəllahi əzzə və cəll. Vəl-cahul- əzimu vəş-şə’nul-kəbiru vəş-şəfaətul-məqbuləh. Rəbbəna amənna bima ənzəltə vəttəbə’nər-Rəsulə fəktubna məəş-şahidin. Rəbbəna la tuziğ qulubəna bə’də iz hədəytəna və həbləna min lədunkə rəhmətən innəkə əntəl-Vəhhab. Subhanə Rəbbina in kanə və’du Rəbbina ləməf’ula. Ya vəliyyəllah! İnnə bəyni və bəynəllahi əzzə və cəllə zunubən la yə’ti ələyha illa rizakum. Fəbihəqqi məni’təmənəkum ’əla sirrihi vəstər’akum əmrə xəlqih. Və qərənə taətəkum bitaətihi ləmməstəvhəbtum  zunubi və kuntum şufəai. Fəinni ləkum muti’. Mən ətaəkum fəqəd ətaəllahə və mən əsakum fəqəd  əsəllah. Və mən əhəbbəkum

fəqəd əhəbbəllahə və mən əbğəzəkum fəqəd əbğəzəllah. Əllahummə inni ləv vəcədtu şufəaə əqrəbə iləykə min Muhəmmədin və əhli-bəytihil-əxyaril-əimmətil-əbrari ləcəəltuhum şufəai. Fəbihəqqihimulləzi əvcəbtə ləhum ’ələykə əs ’ələukə ən tudxiləni fi cumlətil-arifinə bihim və bihəqqihim və fi zumrətil-mərhuminə bişəfaətihim. İnnəkə Ərhəmur-rahimin. Və səlləllahu ’əla Muhəmmədin və alihit-tahirinə və səlləmə təslimən kəsira. Və həsbunəllahu və ni’məl-vəkil.

Salam olsun! Sizə, ey Peyğəmbər əhli-beyti, ey risalət məqamı, ey mələklərin get-gəl etdiyi məkan, ey vəhyin endiyi yer, ey rəhmət mədəni, ey elm xəzinələri, ey helmin ən yüksək məqamının sahibləri, ey kərəm və kəramətin əsasları, ey ümmətin rəhbərləri, ey nemətlərin vəliləri (malikləri), ey alicənablığın sütunları, ey yaxşılığın və yaxşıların rüknləri, ey bəndələrin böyükləri, ey (elm) şəhərlərinin dayaqları, ey iman qapıları, ey Rəhman (Allahın) əmanətdarları, ey peyğəmbərlərin sülaləsi, ey rəsulların seçilmişləri, ey aləmlərin Rəbbi olan Allah bəndələrinin ən yaxşısının itrəti (ailəsi)! Və Allahın rəhməti və bərəkətləri olsun sizə!

Salam olsun! Hidayət imamlarına (və bələdçilərinə), zülmət çıraqlarına, təqva bayraqdarlarına, böyük ağıl sahiblərinə, kamil ağla malik olanlara, məxluqatın pənahlarına, peyğəmbərlərin varislərinə, yüksək ilahi nümunələrə,

ən gözəl kamala dəvət edənlərə, bütün dünya və axirət əhlinə Allahın höccəti olanlara! Və Allahın rəhməti və bərəkətləri olsun sizə!

Salam olsun! Allah mərifətini qəlblərində yerləşdirənlərə, Allahın bərəkətinin məskənlərinə, Allah hikmətinin mədənlərinə, Allah sirrini qoruyanlara, Allah kitabını daşıyanlara, Allah Peyğəmbərinin canişinlərinə, Rəsulallah (s) övladlarına! Və Allahın rəhməti və bərəkətləri olsun sizə!

Salam olsun (ümməti) Allaha dəvət edənlərə, Allah razılığına (doğru) yol göstərənlərə, Allahın əmrlərinə (itaət etməkdə) sabitqədəm olanlara, Allah məhəbbətində bütöv və kami olanlara, Allahın tovhidində (sədaqətli) ixlaslı olanlara, Allahın əmr və nəhylərini aşkar edənlərə, Allahın əziz bəndələrinə, hansı ki, sözdə və əməldə ondan qabağa keçmir və onun (bütün) əmrlərinə əməl edirlər! Və Allahın rəhməti və bərəkətləri olsun sizə!

Salam olsun (Haqqa) dəvət edən imamlara, hidayət edən öndərlərə, ağalara və hamilərə, (Allah dinini) himayə edənlərə, zikr əhlinə (və Quran sirlərinə vaqif olanlara), əmr sahiblərinə, Allahın saxladıqlarına, Allahın bəndələrinin ən yaxşılarına, Allahın qoşununa (dəstəsinə, tərəfdarlarına), Onun elminin xəzinəsinə, Onun höccətinə, Onun Siratına (yoluna), Onun nuruna, Onun bürhanına (dəlilinə)! Və Allahın rəhməti və bərəkətləri olsun sizə!

Şəhadət verirəm buna ki, həqiqətən, bir olan Allahdan başqa tanrı yoxdur, O təkdir, şəriki yoxdur, necə ki, Allah Özü Özünə şəhadət verir və Onun mələkləri, yaratdıqlarından olan elm sahibləri Onun təkliyinə şəhadət verirlər. O Əziz (qüdrətli) və Həkim Allahdan başqa tanrı yoxdur. Və şəhadət verirəm buna ki, həqiqətən, Muhəmməd (s) Onun seçilmiş bəndəsi və bəyəndiyi Rəsuludur. Onu (xalqı) hidayət etmək üçün və haqq dinlə göndərdi ki, nəticədə müşriklərin xoşu gəlməsə belə, pak dinini bütün dinlərə qalib edə.

Və şəhadət verirəm buna ki, həqiqətən, siz düz yola hidayət edən, yolu tanıyan, məsum, əzizlənmiş, müqərrəb (Allaha yaxın), təqvalı, sadiq, Allahın əmrinə müti, Onun əmrinə keşikçi, Onun iradəsi ilə hərəkət edən, Onun kəraməti ilə feyz tapmış imamlarsınız. Allah sizi Öz elmi üçün seçdi, Öz qeybi üçün bəyəndi, Öz sirri üçün təyin etdi, Öz qüdrətinə məxsus etdi, Öz hidayəti ilə əziz etdi, Öz nuruna münasib bildi, Öz ruhu ilə təyid etdi (dəstəklədi), sizi yaratdığı yer üzərində Öz xəlifələri olaraq bəyəndi, məxluqatına höccətləri olaraq, dininə köməkçi olaraq, sirrinə qoruyucu olaraq, elminə xəzinədar olaraq, hikmətinə əmanətdar olaraq, vəhyinə təfsirçi olaraq, tovhidinə rüknlər olaraq, məxluqatına şahid olaraq, bəndələrinə nişanə olaraq, ölkələrində nurlu bir əlamət məkanı olaraq, Öz yoluna dəlilləri olaraq seçdi.

Allah sizi çaşqınlıqdan məsum saxladı, fitnələrdən amanda saxladı, pis əxlaqdan pak saxladı, sizi bütün çirkinliklərdən olmazın kimi pak etdi. Siz də Onun cəlalını əzəmətlə yad etdiniz, Onun şənini böyük bildiniz, kərəmini təriflədiniz, Onun zikrində davamlı oldunuz, əhdinə sadiq qaldınız, Onun itaətinin bağlarını möhkəmlətdiniz. Ona xatir gizlində və aşkarda nəsihət etdiniz, hikmət və gözəl moizə ilə (xalqı) Onun yoluna dəvət etdiniz, öz nəfslərinizi Onun razılığına qurban etdiniz, Onun yolunda sizə gələn müsibətlərə səbr etdiniz, namazı bərpa etdiniz, zəkatı ödədiniz, mərufa (gözəl işlərə) əmr etdiniz, münkərdən (pis işlərdən) nəhy etdiniz, Allah yolunda lazım olduğu dərəcədə cihad etdiniz, nəhayət, Onun dəvətini aşkarladınız. Onun vacibatını bəyan etdiniz. Onun qanunlarını diriltdiniz, Onun hökmlərini və şəriətini yaydınız, Onun adətlərini adət halına saldınız, bu yolda Onu razı saldınız, Onun qəza-qədərinə təslim oldunuz, keçmiş rəsullarını təsdiq etdiniz. Sizdən üz çevirən dindən üz çevirmişdir, sizinlə hərəkət edən sizə qovuşar, hər kəs sizin haqqınızı əskiltdisə, məhv və batil oldu.

Haqq sizinlədir, sizdədir, sizdəndir (sizdən başlanır), sizə tərəfdir (sizinlə bitər). Siz haqq əhlisiniz, onun mədənisiniz, peyğəmbərlik irsi sizin yanınızdadır, xalqın qayıdışı sizə tərəfdir, onların hesabı sizə həvalə olunub, haqla batilin ayrılması sizin yanınızdadır, Allah ayələri sizin ixtiyarınızdadır.

Onun əzəmətləri sizdədir, Onun nuru və bürhanı sizin yanınızdadır və Onun əmri sizin əmrinizə bağlıdır.

Sizi sevən həqiqətən Allahı sevmiş, sizə düşmən olan Allaha düşmən olmuşdur. Sizə məhəbbət bəsləyən Allaha məhəbbət bəsləmiş, sizə nifrət bəsləyən Allaha nifrət bəsləmiş olur. Sizin ətəyinizdən tutan Allahın ətəyindən tutmuş olur. Sizsiniz ən düzgün yol, fani dünyanın şahidləri, bəqa dünyasının şəfaətçiləri, tükənməyən rəhmət, (Allahın əzəli elm xəzinəsindəki) örtülü ayə və nişanə, (İlahi qorunmuş lövhün) əmanəti, xalqın imtahan olunduğu dərgah. Sizə tərəf gələn nicat tapdı, sizə tərəf gəlməyən həlak oldu. (Xalqı) Allaha doğru çağırırsınız, Ona dəlalət edirsiniz, Onun əmrinə əməl edirsiniz və Onun yoluna bələdçilik edirsiniz və Onun sözü ilə hökm verirsiniz. Sizi sevən xoşbəxt oldu və sizə düşmənçilik edən bədbəxt oldu.

Sizə qarşı inad edən həlak oldu və sizdən ayrılan yolunu azdı. Sizə sığınan feyz tapdı və sizə pənah gətirən amanda qaldı. Sizi təsdiq edən salamatlıq əldə etdi, sizin itaətinizə əl atan hidayət olundu, sizə tabe olanın yeri cənnətdir, sizin əleyhinizə gedənin yeri oddur. Sizə qarşı inad edən kafirdir və sizə qarşı müharibə edən müşrikdir. Sizin (hökmünüzü) rədd edən cəhənnəmin ən alçaq dərəsindədir. Şəhadət verirəm buna ki, bu məqam sizin üçün həmişə olub və olacaq. Şəhadət verirəm buna ki, həqiqətən, sizin ruhunuz, nurunuz və tinətiniz vahid həqiqətdən ibarətdir. O pak və təyyib ruhlar bir-birinin  eynidir.

Allah sizi nur olaraq yaratdı, sonra sizi Öz ərşinə mühit (əhatəsi olan) qərar verdi. Nəhayət, sizin vücudunuzla bizə minnət qoydu. Sonra sizi ucaldılmasına və Öz adının zikr olunmasına izn verdiyi evlərdə yerləşdirdi, bizim salavat və salamımızı sizə hökm etdi. Sizin vilayətinizdən bizə də (müəyyən qədər) məxsus etdi və bu bizim xilqətimizin təmizliyi, nəfslərimizin təharəti, bizim paklığımız və günahlarımızın kəffarəsi üçün idi. Biz Allahın yanında (əzəli elmində) sizin fəzilətinizə etiraf etməklə və sizi təsdiq etməklə tanınmışdıq. Allah sizi əzizlənmişlərin ən şərəfli məqamına, müqərrəblərin (Allaha yaxınların) ən uca mənzilinə və mürsəllərin ən yüksək dərəcəsinə ucaltdı. Belə ki, heç kəs o məqama yetə bilməsin, heç kəs ondan yüksəyə qalxa bilməsin, heç bir irəli gedən ondan yüksəyə qalxa bilməsin, heç bir irəli gedən ondan irəli getməsin, heç bir tamahkar məqama çatmaq tamahına da düşməsin. Hətta ora qədər ki, heç bir  müqərrəb mələk, mürsəl peyğəmbər, siddiq, şəhid, alim, cahil, alçaq, yüksək, saleh mömin, bədbəxt tacir, inadkar zalım, azğın şeytan və bunların arasında yaranmış heç kimsə qalmadı ki, Allah sizin əmrinizin cəlalını, şəninizin əzəmətini, məqamınızın sadiqliyini, rütbənizin şərəfini, Onun yanındakı mənzilətinizi, kəramətinizi, xüsusiliyinizi və Ona yaxınlığınızı ona tanıtdırmaq olsun. Atam, anam, əhli-əyalım, mal-dövlətim və qohum-əqrəbam sizə fəda olsun. Allahı və sizi şahid tuturam ki, mən sizə və sizin

inandıqlarınıza iman gətirmişəm. Sizin düşməninizə və inkar etdiyinizə mən də inkar edirəm. Mən sizin şəninizdən və sizə qarşı çıxanların azğınlığından agaham. Sizi və sizi sevənləri sevirəm, sizin düşmənlərinizə nifrət və düşmənçilik edirəm. Sizinlə sülhdə olanlarla sülhdə, sizinlə müharibədə olanlarla müharibədəyəm. Sizin haqq bildiyinizi haqq, sizin batil bildiyinizi batil bilirəm. Sizə müti, haqqınıza arifəm. Fəzilətinizi iqrar edir, elminizə etiqad bəsləyir, sizin vilayət libasınıza bürünmüşəm. Sizin haqq olduğunuzu etiraf edir, sizin qayıdışınıza inanır və rəcətinizi təsdiq edirəm. Əmrinizə müntəzirəm və dövlətinizin yolunu gözləyirəm. Sizin sözünüzü əxz edir, əmrinizə əməl edir, sizə sığınır, ziyarətinizə tələsir, qəbirlərinizə və məqbərələrinizə pənah gətirirəm. Sizi Allah-Təalanın hüzurunda şəfaətçi qərar verir, sizinlə Ona yaxınlaşır, bütün istəklərimin, hacətlərimin, bütün hallar və işlərimdə sizi öndə tutaraq Allahdan diləyirəm. Sirrinizə, aşkarınıza, şahidinizə, qaibinizə, əvvəlinizə, axırınıza iman gətirirəm. Bütün bu işlərdə sizin əmrinizə təslimməm, qəlbim sizə təslimdir, rəyim sizə tabedir və bütün qüvvətimlə sizin nüsrətinizə hazıram. O vaxta qədər ki, Allah-Təala dinini sizin vasitənizlə diriltsin, sizi oz günlərinə qaytarsın (qalib etsin), sizinlə ədalətini aşkar etsin, yer üzündə sizi qüdrətli etsin. Mən həmişə sizinlə olmuşam və sizinləyəm, sizin düşmənlərinizlə deyiləm. Sizə inanmalıyam, əvvəlinizi sevdiyim kimi axırınızı da sevirəm. Allah-Təalaya

sizin düşmənlərinizdən, Cibt bütündən, tağutdan, şeytanlardan, onun sizə zülm edən, haqqınızı inkar edən, vilayətinizdən üz döndərən, irsinizi qəsb edən, sizin məqamınıza şəkk edən, sizdən sapan qoşunundan sığınır və bunların hamısından bizaram. Habelə sizdən başqa bütün vasitələrdən, sizdən qeyri bütün itaət olunanlardan və (cəhənnəm) oduna dəvət edən bütün imamlardan uzağam. Allah-Təala məni nə qədər ki, diriyəm əbədi şəkildə sizin məhəbbətiniz, vilayətiniz və dininizdə sabitqədəm etsin, məni sizin itaətinizə müvəffəq etsin, sizin şəfaətinizi mənə ruzi etsin. Allah məni sizi sevənlərin ən yaxşılarından qərar versin, hansılar ki, onlar dəvət etdiyiniz hər şeyə tabedirlər. Allah-Təala məni sizin izinizlə gedənlərdən, yolunuzu davam etdirənlərdən, hidayətinizlə hidayət tapanlardan, sizin zümrənizdə məşhur olanlardan, rəcətinizdə qayıdanlardan, dövlətinizdə mülk sahibi olanlardan, sizin vasitənizlə afiyət şərəfinə nail olanlardan, sizin günlərinizdə qüdrətə çatanlardan və Qiyamət sabahında sizi görməklə gözləri işıqlananlardan qərar versin. Atam, anam, özüm, əhli-əyalım və mal-dövlətim sizə fəda olsun. Kim Allahı istəsə, sizdən başlayır, kim Onu tək bilmək istədisə, sizdən öyrəndi və hər kəs Allahı qəsd etdisə, sizin diqqətinizlə etdi. Ey mənim rəhbərlərim, sizin sənanızı saya bilmirəm, sizin mədhinizin, tərifinizin həqiqətinə yetə bilmirəm, sizin vəsfinizin miqdarını dərk edə bilmirəm. Sizsiniz yaxşıların nuru, xeyirxahların bələdçisi, qüdrətli Allahın höccətləri.

Allah (aləmi) sizinlə açdı, sizinlə xətm edəcək, sizinlə (rəhmət) yağışını endirir, sizinlə asimanı izni olmadan yer üzünə enməkdən saxlayır, sizin vasitənizlə qəm-kədəri (qəlblərdən) təmizləyir və zərəri uzaqlaşdırır. Rəsulları ilə birgə nazil olanlar sizin yanınızdadır, mələkləri ilə birgə enənlər sizin yanınızdadır. Sizin babanıza (əgər Əmir əl-mömininini ziyarət edirsənsə, "babanız" sözünün əvəzində "qardaşına" sözünü əlavə et) Ruhul-əmin endirildi. Allah aləmlərdən heç kəsə əta etmədiyini sizə əta etdi. Hər bir şərəf sahibi şərəfinizin qarşısında baş endirdi, hər bir mütəkəbbir itaətinizə tabe oldu. Hər bir zalım fəzilətinizin qarşısında təzim etdi və hər şey qarşısında təvazö etdi. Yer sizin nurunuzla işıqlandı. Feyz tapanlar sizin vilayətinizlə feyz tapdılar. Sizin vasitənizlə Rizvana yol tapılır və vilayətinizi inkar edənlər Rəhmanın qəzəbinə düçar oldular. Atam, anam, özüm, əhli-əyalım və mal-dövlətim sizə fəda olsun. Zikrləriniz zikrlər arasında, adlarınız adlar, cəsədləriniz cəsədlər, ruhlarınız ruhlar, nəfsləriniz nəfslər, təsirləriniz təsirlər və qəbirləriniz qəbirlər arasındadır. Adlarınız necə də şirindir, nəfsləriniz necə də kəramətlidir, şəniniz necə də böyükdür, qədir-qiymətiniz necə də cah-cəlallıdır. Əhdiniz necə də vəfalı və vədiniz necə də doğrudur. Kəlamınız nur, əmriniz rüşd, tövsiyəniz təqva, işiniz xeyr, adətiniz ehsan (yaxşılıq), səciyyəniz kərəm, şəniniz haqq, sədaqət, rəfaqət və şəfqət, sözləriniz hökm, mütləqdir. Rəyiniz elm, helm və düşüncədir. Əgər

xeyir və yaxşılıqdan söz getsə, onun əvvəli, əsası, fəri, mədəni, məkanı və sonu sizsiniz. Atam, anam və özüm sizə fəda. Sizin mədhinizin gözəlliyini necə vəsf edim, uca və gözəl şəninizi necə sadalayım, halbuki, Allah bizi sizin vasitənizlə zillətdən xaric, şiddətli qəm-qüssəni bizdən uzaq və aləmin həlakət vadilərindən və oddan bizi xilas etdi. Atam, anam, özüm sizə fəda. Sizin vilayətinizlə Allah-Təala dinimizin bilgilərini bizə öyrətdi və dünyamızdan fasid olanları islah etdi. Sizin vilayətinizlə (tovhid) kəlməsi tamamlandı, nemət əzəmət tapdı, pərakəndəlik ülfətə çevrildi. Sizin vilayətinizlə fərizə itaətlər qəbul olundu. Sizin sevginiz vacib, dərəcələriniz uca, məqamınız məhmud (bəyənilmişdir), Allah-Təala yanında məlum məkana, əzəmətli məqama, böyük şənə və qəbul olunmuş şəfaətə sahibsiniz. İlahi, nazil etdiyinə iman gətirdik, Rəsuluna tabe olduq, elə isə bizi şahidlərdən yaz. İlahi, qəlblərimizi hidayət etdikdən sonra batilə yönəltmə və Öz yanında bizə rəhmət bağışla, həqiqətən, Sən çox bağışlayansan. Bizim Rəbbimiz hər nöqsandan uzaqdır, həqiqətən, Rəbbimizin vədəsi baş verəsidir.

Ey Allahın vəlisi, həqiqətən, mənimlə Allah-Təalanın arasında bir sıra günahlar vardır ki, sizin razılığınız olmadan o günahları məhv etməyəcək. Sizi and verirəm sizi öz sirrinə əmin edənin, sizi öz məxluqatının işlərinə başçı edənin və sizin itaətinizi öz itaətinə bağlayanın haqqına. Allahdan mənim günahlarımın bağışlamağını istəyin və mənə şəfaətçi

olun. Mən həqiqətən, sizin itaətinizdəyəm. Sizə itaət edən Allaha itaət edir və sizə üsyan edən Allaha üsyan edir. Sizi sevən Allahı sevir, sizə nifrət edən isə Allaha nifrət etmiş olur. İlahi, mən həqiqətən, əgər Muhəmməd (s) və yaxşı, xeyirxah və rəhbər əhli-beytindən (ə) sənə daha yaxın şəfaətçi tapsaydım, onları şəfaətçi edərdim. Səni and verirəm onların haqqına, hansı ki, o haqqı Özünə vacib etmisən. Səndən istəyirəm ki, məni onların haqqını tanıyanların zümrəsinə daxil edəsən və məni onların şəfaəti ilə rəhm olunmuşların zümrəsinə daxil edəsən. Həqiqətən, Sən ən çox rəhm edənsən və Allahın salavatı və salamı olsun Muhəmməd (s) və onun pak itrətinə və çoxlu salam göndərsin. Allah bizə kifayətdir və nə yaxşı vəkildir Allah.[28]

## *CƏFƏRİ-TƏYYAR NAMAZININ FƏZİLƏTİ*

Əllamə Məclisi Şeyx Bəhainin atası  Şeyx Hüseyn ibn Əbdussəməddən, o da Əbutəyyub Hüseyn ibn Əhməd Fəqih Razidən  belə nəql edir: "Hər kəs imam Rizanı (ə) və ya digər bir imamı ziyarət edərkən Cəfəri-Təyyar namazını qılsa, qıldığı hər rəkətin əvəzində onun üçün min dəfə həcc, min dəfə ümrə ziyarətini əmələ gətirmiş, Allah yolunda min qul azad etmiş və mürsəl Peyğəmbər ilə birlikdə min dəfə cihada qalxmış şəxsin savabı yazılar. Atdığı hər addım üçün yüz həcc, yüz ümrə və Allah yolunda yüz bəndə azad etməyin savabı ona əta olunar.

[28] Məfatihul-Ъinan

Onun üçün yüz həsənə (savab) yazılar və onun yüz günahları bağışlanar."

Bu namaz mötəbər sənədlərə əsasən çoxlu fəzilətlərə malikdir və onlardan ən önəmlisi böyük günahların bu namaz vasitəsi ilə bağışlanmasıdır. Cəfəri-Təyyar namazını qılmağın ən fəzilətli vaxtı cümə günü günortadan qabaqdır.

***CƏFƏRİ-TƏYYAR NAMAZININ QILINMA QAYDASI***

Bu namaz iki təşəhhüd və salam ilə dörd rəkətdən ibarətdir (yəni iki dəfə sübh namazı kimi iki rəkət qılmaq lazımdır). Birinci rəkətdə "Həmd"dən sonra "Zilzal" surəsi, ikinci rəkətdə "Həmd"dən sonra "əl-Adiyat" surəsi, üçüncü rəkətdə "Nəsr" surəsi, dördüncü rəkətdə isə "İxlas" surəsi oxunur. Lakin hər rəkətdə qiraətdən sonra on beş dəfə "təsbihati-ərbəə"ni, yəni

سُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلّهِ وَ لا اِلـهَ اِلَّا اللهُ وَ اللهُ اَكْبَرُ

(subhanəllahi vəlhəmdulillahi və la ilahə illəllahu vəllahu əkbər) zikri oxunmalıdır. Həmin zikr rükuda on dəfə, rükudan qalxdıqdan sonra on dəfə, birinci səcdədə on dəfə, səcdədən qalxdıqdan sonra on dəfə, ikinci səcdədə on dəfə, səcdədən qalxdıqdan sonra və ayağa qalxmamışdan öncə on dəfə oxunmalıdır. Dörd rəkətin dördünü də bu qayda ilə

qılmaq lazımdır və bu zikrlərin sayı birlikdə üç yüz dəfə olur.

Kuleyni yazır ki, Əbu Səid Mədaini deyirdi: "İmam Sadiq (ə) mənə buyurdu: "Cəfər namazında demək üçün sənə bir şey öyrədimmi?"  Mən dedim: "Bəli, öyrədin." İmam buyurdu: "Elə ki, namazın dördüncü rəkətinin axırıncı səcdəsinə çatdın və təsbihatı qurtardın o zaman de:"

**سُبْحانَ مَنْ لَبِسَ الْعِزَّ وَالْوَقارَ سُبْحانَ مَنْ تَعَطَّفَ بِالْمَجْدِ وَتَكَرَّمَ بِهِ سُبْحانَ مَنْ لا يَنْبَغِي التَّسْبيحُ إلاّ لَهُ سُبْحانَ مَنْ اَحْصى كُلِّ شَيْء عِلْمُهُ سُبْحانَ ذِي الْمَنِّ وَالنِّعَمِ سُبْحانَ ذِي الْقُدْرَةِ وَالْكَرَمِ اَللّـهُمَّ اِنّي أَسْأَلُكَ بِمَعاقِدِ الْعِزِّ مِنْ عَرْشِكَ وَمُنْتَهَى الرَّحْمَةِ مِنْ كِتابِكَ وَاسْمِكَ الاَعْظَمِ وَكَلِماتِكَ التّامَّةِ الَّتى تَمَّتْ صِدْقاً وَعَدْلاً صَلِّ عَلى مُحَمَّد وَاَهْلِ بَيْتِهِ وَافْعَلْ بى كَذا وَكَذا وتطلب حاجتك عوض كلمة كذا وكذا**

İzzət və vüqar libası geymiş Allah hər nöqsandan pak və uzaqdır. Öz böyüklüyü ilə bizə kərəm və ehsan edən Allah hər bir nöqsandan pak və uzaqdır. Hər bir nöqsandan uzaqdır o Allah ki, Ondan qeyrisinə təsbih rəva deyil. Elmi hər şeyi əhatə edən Allah hər bir nöqsandan pak və uzaqdır. Nemət və minnət sahibi olan Allah hər bir nöqsandan pak və uzaqdır. Qüdrət və kərəm sahibi olan Allah hər bir nöqsandan pak və uzaqdır. İlahi (sənin elminin sirləri olan) ərşinin izzət əhdlərinə, tövhid və mərifət həqiqətləri olan) sənin kitabının rəhmətinin muntəhasına (ən ucasına), sənin əzəm və böyük adına, (sənin ənbiya və övliyalarından ibarət olan) doğruluq və ədalət baxımından tam və kamil kəlmələrinə xatir səndən istəyirəm ki, Muhəmməd (s) və onun əhli-beytinə (ə) salam göndərəsən və mənimlə belə və belə rəftar edəsən (Belə və belə sözlərinin əvəzində hacət və istəklərini Allahdan dilə.)

Müfəzzəl ibn Omər belə rəvayət edir: "Bir gün imam Cəfər Sadiqi (ə)   Cəfər namazını qılarkən gördüm. Namazdan sonra əllərini qaldırıb bir nəfəs bitənə qədər

يا رَبِّ يا رَبِّ

(ya Rəbb, ya Rəbb...), sonra yenə bir nəfəs bitənə qədər

يا ربّاهُ يا ربّاهُ

(ya Rəbbah, ya Rəbbah...), bir nəfəs bitənə qədər

رَبِّ رَبِّ

(Rəbbi, Rəbbi....), bir nəfəs bitənə qədər

يا اَللّهُ يا اَللّهُ

(ya Allah, ya Allah....), bir nəfəs bitənə qədər

يا حَيُّ يا حَيُّ

(ya Həyyu, ya Həyyu....), bir nəfəs bitənə qədər

يا رَحيمُ يا رَحيمُ

(ya Rəhim, ya Rəhim....), bir nəfəs bitənə qədər

يا رَحْمنُ يا رَحْمنُ

(ya Rəhman, ya Rəhman....) sonra isə yeddi dəfə

يا اَرْحَمَ الرّاحِمينَ

(ya Ərhəm ər-Rahimin) deyə dua etdi. Sonra ağa bu duanı oxudu:

اَللّـهُمَّ اِنّي اَفْتَتِحُ الْقَوْلَ بِحَمْدِكَ وَاَنْطِقُ بِالثَّناءِ عَلَيْكَ وَاُمَجِّدُكَ وَلاغايَةَ لِمَدْحِكَ وَاُثْني عَلَيْكَ وَمَنْ يَبْلُغُ غايَةَ ثَنائِكَ وَاَمَدَ مَجْدِكَ وَاَنّى لِخَليقَتِكَ كُنْهُ مَعْرِفَةِ مَجْدِكَ وَاَيَّ زَمَن لَمْ تَكُنْ مَمْدُوحاً بِفَضْلِكَ

مَوْصُوفاً بِمَجْدِكَ عَوّاداً عَلَى الْمُذْنِبينَ بِحِلْمِكَ تَخَلَّفَ سُكّانُ اَرْضِكَ عَنْ طاعَتِكَ فَكُنْتَ عَلَيْهِمْ عَطُوفاً بِجُودِكَ جَواداً بِفَضْلِكَ عَوّاداً بِكَرَمِكَ يا لا اِلـهَ إلاّ اَنْتَ الْمَنّانُ ذُوالْجَلالِ وَالاْكْرامِ .

İlahi, mən Sənin tərifinlə sözə başlayıram və Sənə həmdu-səna deməklə nitqə gəlirəm və Sənin böyüklüyünü mədh edirəm. Halbuki, Sənin mədhinin və həmdu-sənanın sonu yoxdur. Kim Sənin böyüklüyünün və fəzilətinin sonuna çata bilər. Sənin yaratdıqların necə və hansı yolla səndəki böyüklüyün həqiqi mərifətini əldə edə bilər?! Hansı zaman olub ki, Sən fəzilət və ehsanla mədh və böyüklüyünlə vəsf olunmayasan?! Sən Öz helminlə günahkarlara çox ehsan edənsən. Sənin yaratdığın yerin sakinləri hər nə qədər itaətindən boyun qaçırsalar da, Sən yenə də onlara mehriban olacaq, Öz səxavətinlə, Öz fəzlinlə onlara ehsan və Öz kərəminlə əta edəcəksən. Nemət bağışlayan, cəlal və kərəm sahibi olan Səndən başqa tanrı yoxdur.

Sonra Həzrət buyurdu: "Ey Müfəzzəl! Nə zaman zəruri bir hacətin olsa, Cəfər namazını qıl, bu duanı

oxu və (sonra) Allahdan öz hacətlərini istə. İnşəallah müstəcab olar.[29]

## III FƏSİL

## QUM ZİYARƏTİ

[29] Məfatihul-Ъinan

## *QUMUN TARİXİ*

Qum müsəlmanlar tətəfindən salınmışdır. Bu fikir Yaqut Həməvi kimi tarixçilərin nəzərinə əsasən tarixə daxil olmuşdur. Bəziləri bu fikirlə razılaşmayıb Qumun yaşayış məskəni kimi tanınmasını Pişdadi padşahlarından olan Təhmurəsin dövrünə aid edirlər. Bundan əlavə müxtəlif sənədlərdən məlum olur ki, Makedoniyalı İsgəndər Əhmənilləri məğlub edən zaman Qumu da viran etmişdi. Çox güman ki, bu şəhər Əhmənilərin dövründə abadlaşdırılmışdı. Böyük şair Firdovsinin Şahnaməsində də üç yerdə Qumun adı çəkilir. Hicrətin 23-cü ilində müsəlmanların İrana hücumu zamanı Qum şəhəri Əbu Musa Əşəri tərəfindən fəth olundu. (Bu fəth Əhməd ibn Qeysə də aid edilə bilər.) Ərəblər yavaş-yavaş bu şəhərə gəlib-getməyə başladılar. Əbdülməlik Mərvanın xilafəti zamanında Bəni əl-Əşəri ərəbləri Quma pənah gətirdilər və tədricən bu şəhər onların təsiri altına düşdü. Başqa nəzəriyyəyə əsasən Qum şəhəri hicri-qəməri təqvimi ilə 83-cü ildə müsəlmanlar tərəfindən şəhər kimi formalaşmış müqəddəs bir məkandır. İmam Baqir (ə) və imam Sadiqin (ə) dövrünə təsadüf edən bu vaxt çərçivəsində Əşəri ərəblərdən olan Peyğəmbər (s)

səhabələri və əhli-beyt aşiqləri Kufə hakimi Həccacın zülmündən qaçaraq bu diyara pənah gətirdilər və beləliklə Qum şəhəri mənəviyyat üzərində formalaşmağa başladı. Qazi Nurullah Şüştəri yazır: "Həməvi və başqaları Qum şəhərinin islami şəhərlərdən olduğunu, əhalisinin həmişə imamiyyə əqidəsinə sadiq qaldığını və bu şəhərin 83-cü hicri-qəməri ilində Əbdülməlik Mərvanın dövründə tikildiyini qeyd etmişlər." Sonra Qazi özü əlavə edərək yazır: " Qum şəhəri əzəmətli və kəramətli bir şəhərdir. Bu şəhər həmişə möminlər məskəni olmuş və bir çox imamiyyə alim, müctəhid və fazil şəxslər bu şəhərdən ərsəyə gəlmişlər. Hətta hər hansı bir adamın bu şəhərdən olması onun əqidəsinin düzlüyünə ən möhkəm sübutdur."[30]

Şəhərin Qum adlanması da çox güman ki, ərəblər tərəfindən olmuşdur. Əlbəttə, bu adın dini mənşəyi də mövcuddur. Əllamə Məclisi yazır: "İmamiyyə hədislərində deyilir ki, həzrət Peyğəmbər (s) meraca aparılanda İblisin bu diyarda yerləşdiyini gördü və ona belə əmr etdi: قم يا ملعون →Qalx, ey məlun! (Qum ərəbcə "qalx" deməkdir). Odur ki, bu məskən Qum adlandı." [31]

Bir çox hədislərdə Qum şəhərinə aid maraqlı xüsusiyyətlər qeyd olunmuşdur və biz onların bir neçəsinə işarə edirik.

---

[30] Məъalis əl-muminin, ъ.1, səh.82
[31] Bihar əl-ənvar, ъ.57, səh.217, hədis 42

Qum elm və fəzilət mədəni olacaq.[32]

Qum əhli-beyt dostlarının mərkəzidir.[33]

Qum Allah-Təala tərəfindən digər şəhərlər üçün höccət meyarıdır.[34]

Allah-Təala Qum əhlinin təbiətini əhli-beytin vilayəti ilə zinətləndirmişdir.[35]

Qum əhli Ali-Muhəmməd (s) qiyamçısının köməkçiləridirlər.[36]

Belə hədislər onlarladır. Əlbəttə, qeyd etmək lazımdır ki, hər kəs Qumda yaşasa, Qum əhli sayılmaz. Hədislərdəki xüsusiyyətlər özünü Quma layiq aparan şəxslərə aiddir. Çünki belə bir müqəddəs və pak şəhərin sakini onun kimi pak olmalıdır.  Qum elə bir şəhərdir ki, öz sinəsində dörd yüzdən çox imamzadə məzarına yer vermişdir. Bu şəhər saysız-hesabsız alimlər, müctəhidlər və övliyalar yetişdirmişdir. Elə bu müqəddəsliyə görə böyük və adlı-sanlı müctəhid, mərhum hacı Muhəmməd İbrahim Kərbasi Quma daxil olan kimi ayaqqabılarını çıxardar və həzrət Məsumənin (ə) hərəminə qədər ayaqyalın gedərdi və buyurardı: "Burada əhli-beyt  səhabələri, mühəddislər və alimlər dəfn olunmuşlar və bu hərəmin ətrafı alicənabların məzarları ilə doludur. Burada təbərrük üçün Qumun

---

[32] Bihar əl-ənvar, ъ.57, səh.213
[33] Bihar əl-ənvar, ъ.57, səh.215
[34] Bihar əl-ənvar, ъ.57, səh.213
[35] Bihar əl-ənvar, ъ.57, səh.216
[36] Bihar əl-ənvar, ъ.57, səh.218-219

məşhur səhabə və alimlərinin bir neçəsinin adını çəkir və əlavə etmək istəyirik ki, Qum şəhəri islamın zühur etdiyi ilk dövrdən indiyə qədər elmi mərkəz və fəqihlər şəhərinə çevrilmişdir. O fəqihlərdən Zəkəriyya ibn Adəm Əşəri (imam Sadiq (ə) və imam Rizanın (ə) dövründə) Zəkəriyya ibn İdris Əşəri (imam Rizanın (ə) səhabəsi) İshaq ibn Əbdullah Əşəri (imam Kazımın (ə) səhabəsi), İbrahim ibn Haşim (imam Cəvadın (ə) səhabəsi), Səb ibn Abdullah Əşəri (imam Əskərinin (ə) səhabəsi) Əli ibn Babəveyh (on ikinci imamın kiçik qeybi dövründə) və onun oğlu, islamın elm səmasının parlaq ulduzlarından biri olan Şeyx Səduq və bir çox belə alimlərin adlarını saymaq olar. Səfəvilərin zamanında Qum elmi hövzəsi bir az  da rövnəq tapdı və həmin dövrün alimlərindən böyük filosof Molla Sədra, Molla Möhsün Feyz, Qazi Səid (bəzilərinin dediyinə görə) və başqalarının adını çəkmək olar. Qacarların zamanında Ayətullah uzma Mirza-yi Qumi Qum elmi hövzəsinə bir az da rəvac verdi, lakin bu şəhərin rəsmi elmi hövzə kimi fəaliyyət göstərməsi bu elmi hövzənin hazırkı formasının banisi Ayətullah üzma Hairinin vasitəsi ilə əmələ gəlmişdir. 1340-cı hicri qəməri ilində Quma gələn Ayətullah Hairi buranı elmi hövzə və mərkəz kimi təsis etdi. Tələbələrdən imtahan götürülməsi, onlara təqaüd verilməsi, bütün tələbələrin vahid geyimdə, yəni ruhani geyimində olması və s. bu kimi tədbirlər o cənabın vasitəsilə həyata keçirildi. Onun vəfatından sonra isə elmi

hövzənin idarəçiliyi Ayətullah Höccət, Ayətullah Burucerdi, Ayətullah Xansari və başqa böyük müctəhidlər tərəfindən həyata keçirildi. Bu elmi hövzənin ən mühüm nəticələrindən Ayətullah Əraki, Ayətullah Qolpayqani və Ayətullah Xomeyni kimi böyük ustadların ərsəyə gəlməsi idi.

Bu qısa tarixçədən göründüyü kimi Qum şəhəri şəhər kimi formalaşdığı vaxtdan bu günə qədər bir an da olsun elmdən və mənəviyyatdan kənarda qalmamış, həmişə əhli-beyt aşiqlərinin mərkəzi və pənahgahı olmuşdur. Bu proses bu gün də davam etməkdədir.

Qeyd etdiyimiz kimi Qum şəhərində dörd yüzdən çox ziyarətgah vardır. Lakin biz onların arasında ən çox əhəmiyyət kəsb edən məkanlar haqqında məlumat vermək istəyirik. Təbii ki, onlardan ən möhtərəm və əhəmiyyətlisi Həzrət Fatimeyi Məsumənin (ə) pak və müqəddəs hərəmidir.

### *HƏZRƏT MƏSUMƏNİN (Ə) HƏYATINA QISA BİR BAXIŞ*

**MÜBARƏK adı: Fatimə**

**Ləqəbləri: Məsumə, Əhli-beyt Kəriməsi, Sitti, Fatimeyi-Kubra**

**Atası: Yeddinci imam Musa ibn Cəfər (ə)**

**Anası: Nəcmə xatun (imam Rizanın (ə) anası)**

**Doğulduğu il: 173-cü hicri-qəməri ili**

**Doğulduğu ay: Zilqədə ayının biri**

**Doğulduğu yer: Mədinə şəhəri**

**Vəfat etdiyi il: 201-ci hicri-qəməri ili, iyirmi səkkiz yaşında**

**Vəfat etdiyi ay: Rəbiüs-sani ayının 10-u və ya 12-si.**

**Vəfat etdiyi yer: Qum şəhəri.**

***HƏZRƏT MƏSUMƏNİN (Ə) HƏYATI***

201-ci hicri-qəməri ilində yəni imam Rizanın (ə) Mərvə sürgün edildiyindən bir il sonra Həzrət Fatimeyi-Məsumə (ə) öz qardaşları ilə birlikdə imamı və qardaşı imam Rizanı (ə) görmək və beyətini təzələmək üçün yola düşdü. Savə şəhərinə çatanda bir dəstə Əhli-beyt düşməni və Abbasi hökumətinin məmurları xanımın tərəfdarlarına hücum etdilər. O Həzrətin karvanından 23 nəfər şəhid oldu. Tədqiqatçı alim Cəfər Mürtəza Amilinin nəzərinə əsasən həzrət Məsumə (ə) da bir əhli-beyt düşməninin əli ilə zəhərləndi. Ətrafdakıların şəhadəti, xanımın özünün zəhərlənməsi Quma dönməsinə səbəb oldu (ümumiyyətlə Abbasi hakimiyyəti imamı görməyə gedən bütün karvanları təzyiqə məruz qoyurdu. Əvvəldə qeyd etdiyimiz kimi Qum əhli-beyt tərəfdarlarının pənahgahı idi və xanım da oraya getməyi məsləhət gördü). Xanım buyurdu: "Məni Qum şəhərinə aparın, çünki atamın belə buyurduğunu eşitdim: Qum şəhəri bizim tərəfdarlarımızın mərkəzidir." Beləliklə, karvan Quma

tərəf hərəkət etdi. Qum şəhərinin böyükləri xanımın Quma gəlməsini eşitdikdə şad oldular və o Həzrətin görüşünə çıxdılar. Əşəri sülaləsinin böyüyü Musa ibn əl-Xəzrəc o alicənab qadının dəvəsinin yüyənindən tutub aparmağa başladı. Xanım camaatın gurultulu şad səs-küyü hərə daxil oldu və Musa ibn əl-Xəzrəcin evində onun üçün ayrılmış mənzilə yerləşdi. Xanım on yeddi gün vilayət və imamət şəhəri olan Qumda ibadətə və itaətə, Allah-Təala ilə minacata məşğul oldu. O Həzrət bərəkətli ömrünün son günlərini də böyük Yaradanın hüzurunda ibadətlə keçirtdi. Lakin Fatimə (ə) nəslindən olan belə fəzilətli bir xanımın şəhərə gəlməsindən sevinən ürəklər tezliklə qəm-qüssəyə qərq oldu və müqəddəs xanımın vəfatı əhli-beyt aşiqlərini hüznə, əzaya və matəmə qərq etdi. Xanımın belə tez və qəfil ölümü əvvəlcə qeyd etdiyimiz kimi Savə şəhərində bir düşmən qadının vasitəsi ilə zəhərlənməsi və təzyiqdən yaranmış narahatlıq nəticəsində idi və bu qəbul edilə biləcək səbəbdir. O Həzrət bir baxışdan həzrət Zeynəbə (ə) bənzəyirdi. Çünki Yəzid imam Hüseyni (ə) mənfi çöhrə kimi tanıtmaq istədikdə Həzrət Zeynəb (ə) öz əsirliyi, nitqi və Yəzidin nöqsanlarını söyləməklə onu ifşa etdi və həqiqəti xalqa çatdırdı. Həzrət Məsumə də (ə) ona bənzər bir iş gördü. Çünki Məmun imam Rizanı (ə) zorla Xorasana aparmış, lakin xalqın gözündə imama çox ehtiram göstərdiyini nümayiş etdirmişdi.

Həzrət Məsumə (ə) öz gəlişi ilə Məmunun imamı zorla apardığını ifşa etdi. Xanım vəfat etdi. Ona qüsl verib, kəfənə bürüdülər, lakin dəfn etmək istədikdə gördülər ki, xanımı dəfn etmək üçün ona məhrəm olan kimsə yoxdur. Çox götür-qoydan sonra Qadir adlı təqvalı və pak bir qocanı bu iş üçün məsləhət gördülər. Lakin nə Qadir, nə də başqa mömin və saleh müsəlmanlar bu əzəmətli xanımı dəfn etməyə layiq deyildilər. Çünki əhli-beytin (ə) Məsuməsini məsum imam dəfn etməli idi. Camaat həmin saleh qocanın gəlməsini gözləyirdi ki, birdən qumsallıqdan iki süvarinin onlara tərəf gəldiyini gördülər. Cənazəyə çatanda atdan düşüb, cənazəyə namaz qıldılar və Rəsulallahın (s) reyhanəsinin pak cismini əvvəlcədən hazırlanmış sərdabədə dəfn etdilər. Sonra isə heç kimlə bir kəlmə də kəsmədən atlarına minib getdilər və onları heç kəs tanımadı. Ayətullah Fazil Lənkəraninin fikrincə o iki nəfərin məsum imam olmaları heç də zəif fikrə oxşamır.

Dəfndən sonra Musa ibn əl-Xəzrəc qəbrin üzərində həsirdən bir kölgəlik düzəltdi. O kölgəlik imam Cavadın (ə) qızı həzrət Zeynəb (ə) qəbrin üzərində kərpicdən bir türbə düzəldənə qədər dururdu. Beləliklə də, o böyük islam banisinin pak türbəsi əhli-beyt  aşiqlərinin qəlbinin qibləsinə çevrildi və vilayət vurğunlarının şəfa evinə döndü. (Əlbəttə o xanımın Quma gəlməsini bir az fərqli şəkildə də nəql etmişlər. Belə ki, Qum böyükləri xanımın Xorasana

yola düşdüyünü eşidib Savəyə getdilər ki, xanımı Quma dəvət etsinlər. Hadisənin sonrası eynidir.)

### *HƏZRƏT MƏSUMƏNİN (Ə) FƏZİLƏTLƏRİ*

Həzrəti Məsumənin (ə) fəzilətləri çoxdur. Lakin biz onların bəzisinə işarə edirik. Biz xanımın Quma gəlmə tarixini oxuyanda görürük ki, on yeddi günlük qaldığı yerdə dərhal özü üçün bir ibadətgah düzəldir və öz Yaradanı ilə minacata başlayır. Bu xanımın ibadətə nə qədər aşiq olduğunu və Allah-Təala ilə söhbətə və rabitəyə nə qədər əhəmiyyət verdiyini göstərir. Bundan əlavə xanım ravi və mühəddisə (hədis nəql edən) olmuş və bir çox mühüm hədislər o həzrətin vasitəsi ilə gəlib çatmışdır.

Qazi Nurullah Şüştəri yazır: "İmam Cəfər Sadiq (ə) buyurub: "Agah olun. Allahın bir hərəmi vardır və o Məkkədir. Peyğəmbərin bir hərəmi vardır və o Mədinədir. Əmir əl-mömininin bir hərəmi vardır və o Kufədir. Agah olun ki, mənim və mənim övladlarımın hərəmi Qumdur. Bilin ki, Qum kiçik Kufədir. Agah olun. Behiştin səkkiz qapısı var və onun üçü Quma açılır." Sonra imam buyurdu:

**تقبض فيها امرأة من ولدي و اسمها فاطمة بنت موسي تدخل بشفاعتها شيعتي الجنة باجمعهم**

"Qumda mənim övladlarımdan Fatimə Musa (ə) qızı adlı bir xanım dünyadan köçəcək və onun

şəfaətinin bərəkətindən mənim şiələrim hamılıqla behiştə daxil olacaqlar."[37]

Xanımın əzəməti barədə təkcə bu kifayətdir ki, imam Riza (ə) xanımı "Məsumə" adlandırmışdır:

**من زار المعصومه بقم كمن زاري** [38]

Bundan əlavə imam Riza (ə) özü o xanımın ziyarətini Sədə öyrətmiş və ona xanımı ziyarət edərkən "ey Fatimə, Allahın yanında mənə şəfaət elə" – cümləsini deməyi əmr etmişdir. Bu isə xanımın şəfaətçi olduğunu sübut edir.[39]

Həzrət Məsumə (ə) Həzrət Zeynəbə (ə) bir neçə cəhətdən bənzəyir.

1. Hər iki xanım məsum imamın qızıdır. Zeynəb (ə) Əmir əl-möminin Əlinin (ə), Məsumə (ə) isə Musa ibn Cəfərin (ə) qızıdır.

2. Hər iki xanım məsum imamın bacısıdır. Biri Həsən (ə) və Hüseynin (ə), digəri isə imam Rizanın (ə) bacısıdır.

3. Hər iki xanım məsum imamın bibisidir. Biri imam Zeyn əl-abidinin (ə), digəri isə imam Cəvadın (ə) bibisidir.

---

[37] Məъalisül-möminin, ъ.1, səh.83, bu hədis Bihar, ъ.60, səh.228 və Səfinət ül-Bihar, ъ.2, səh.376-da da az fərqlə gəlmişdir

[38] Nasix ət-təvarix, ъ.7, səh.337

[39] Biharul-ənvar, ъ.102, səh.265-266

4. Hər iki xanım Allahın höccəti və məsum imam tərəfindən təsirlənmişdir.

5. Hər iki xanım üç məsum imamın hörmətinə layiq görülmüşdür. Həzrət Zeynəb (ə) atası həzrət Əli (ə), qardaşı imam Hüseyn (ə) və qardaşı oğlu imam Zeyn əl-abidin (ə) tərəfindən, həzrət Məsumə isə babası imam Sadiq (ə), qardaşı imam Riza (ə) və qardaşı oğlu imam Cəvad (ə) tərəfindən möhtərəm sayılmışdır.

6. Hər iki xanım öz qardaşını çox sevirdi, Həzrət Zeynəb (ə) imam Hüseyni (ə), Həzrət Məsumə (ə) isə imam Rizanı (ə).

7. Hər iki xanım qardaşa olan məhəbbətin şiddətindən öz evlərini, yaşayışlarını, vətənlərini tərk edərək səfər əziyyətinə qatlaşdılar. Həzrət Zeynəb (ə) Mədinədən İraqa, sonra isə Şama getdi. Həzrət Məsumə (ə) isə Mədinədən İrana, axırda isə Quma gedərək orada dəfn olundu.

8. Hər iki xanımın vətəni Mədinə olduğu halda qürbətdə dəfn olunublar. Həzrət Zeynəb (ə) Şam və ya Misirdə, həzrət Məsumə (ə) isə İranda.

9. Hər iki xanımın qəbri müsəlmanların ümumi ziyarətgahına çevrilib.

10. Hər iki xanımın iki ziyarət yeri vardır. Həzrət Zeynəbin (ə) həm Misirdə, həm də Şamda, həzrət Məsumənin (ə) isə həm Sittiyyə[40] mədrəsəsində,

---

[40] Sitti lüğətdə xanım mənasındadır və həzrət Məsumənin (ə) ləqəblərindəndir. Həzrət Məsumənin (ə) yaşadığı yer Sittiyə adlanır.

yaşadığı və ibadət etdiyi Beytun-Nurda, həm də hərəmində ziyarət yeri vardır.

## *HƏZRƏT MƏSUMƏNİN (Ə) KƏRAMƏTLƏRİ*

1. Xanımın hərəminin qapısının açarını saxlayan, hərəmin xidmətçilərindən, Qum alimlərindən biri və imam Həsən Əsgəri (ə) məscidinin imam-camaatının mükəbbiri olan bir şəxs deyirdi: "Soyuq qış gecələrinin birində yuxuda gördüm ki, Həzrət Məsumə (ə) mənə buyurdu: "Qalx minarələrdə çıraq yandır!"

Mən yuxudan oyandım, amma yuxuma fikir vermədim. Yatdım və yenə həmin yuxu təkrar olundu. Mən yenə fikir vermədim. Üçüncü dəfə yenə həmin yuxunu gördüm və mənə buyurdu: "Sənə demirəmmi, qalx minarədə çıraq yandır?" Mən bu dəfə qalxdım və səbəbini bilmədiyim halda minarələrdə çıraq yandırdım və qayıdıb yatdım. Səhər oyanıb hərəmin qapılarını açdım. Günəş çıxandan sonra dostlarımla divar dibində oturub qış günəşinin altında söhbət etməyə başladıq. Birdən diqqətimi bir-biri ilə danışan bir neçə zəvvarın söhbəti cəlb etdi. Gördüm ki, bir-birlərinə deyirlər: "Bu xanımın möcüzəsini gördünüz? Əgər dünən o qarlı və soyuq havada bu xanımın hərəminin işıqları yanmasaydı heç cür yolu tapa bilməyib çöldə qırılardıq!" [41]

2. Məşhəd şəhərindən Əmir Muhəmməd Kuhi nəql edir: "Üç il idi ki, iflic olmuşdum və yeriyə

---

[41] Vədieye Ali-Muhəmməd (s), səh.14

bilmədiyim üçün əlil arabasında hərəkət edirdim. Dəfələrlə Məşhəd və Tehranın peşəkar həkimlərinə müraciət etsəm də, çarə tapmırdım. Dua məclislərində iştirak edib imam Rizadan (ə) şəfa istəsəm də, xeyri olmurdu. Nəhayət, bir dəfə ailəm ilə birgə hərəmə getdik və mən yana-yana dedim: "Ağa! Axı siz qeyri-müsəlmanları məhrum etmirsiniz. Bəs mən ki, sizi sevənlərdənəm, niyə mənə baxmırsınız? Ağa, ya mənə cavab verin, ya da Quma gedib bacınıza şikayət edəcək və onu vasitəçi edəcəyəm. Sonra həzrət Məsuməyə (ə) xitabən dedim: "Mən sizin qardaşınızın qonşusuyam. Ailəm böyükdür. Bacardığım qədər düz olmuşam və ömrümdə xəyanət etməmişəm. Niyə mənə şəfa vermir?" Bundan sonra məni yuxu tutdu. Yuxuda gördüm bir xanım mənə buyurdu: "Gərək Quma gələsiniz ki, mən sizə şəfa verəm." Mən dedim: "İndi ki, bizim evə gəlmisiniz, elə buradaca şəfa verin, mənim Quma gəlməyə pulum yoxdur." O xanım buyurdu: "Siz gərək Quma gələsiniz."

Mən oyanıb yuxumu ailəm üçün danışdım. Bir az sükutdan sonra oğlum dedi: "Ata, biz nəyimiz vardırsa, sənin müalicənə xərcləmişik, amma mən evdəki su şüşəsinin qutularını satıb bir az pul yığmışam. Götürün bu pulu, gedin Quma. Ümidvaram şəfa tapasınız. Mən Quma yola düşdüm. Quma çatdım, dəstəmaz alıb hərəmə getdim. İki nəfərdən qoluma girib, məni zirehin yanına aparmalarını xahiş etdim. Yorğun idim, odur ki, bir az dua edib yatdım.

Yuxuda gördüm ki, bir xanım mənə deyir: "Oğlum, xoş gəlmisən, daha şəfa tapdın, qalx, səndə heç xəstəlik yoxdur." Mən dedim: "Mən xəstəyəm və hərəkət edə bilmirəm!" O xanım mənə çay dolu bir piyalə verdi və buyurdu: "İç!" Mən çayı içdim. Birdən yuxudan oyanıb gördüm ki, ayaq üstə dura bilirəm. Qalxıb, müqəddəs zirehi öpməyə başladım.

### *HƏZRƏT MƏSUMƏ (Ə) VƏ ZİYARƏTİ HAQQINDA HƏDİSLƏR*

Xanım Fatimeyi-Məsuməni (s.ə) ziyarət etmək üçün əhli-beytdən  bir çox hədislər nəql olunmuşdur ki, onların bəzisini nümunə olaraq sizin nəzərinizə çatdırırıq.

1. Qazi Nurullah imam Sadiqdən (ə) belə nəql edir:

**انَّ للهِ حرما و هو مكّه، الا إنَّ لرسول الله حرما و هو المدينه انّ لأميرالمؤمنين حرما و هو الكوفه، ألا و إنَّ قم الكوفه الصغيرة، ألا إن للجنة ثمانية أبواتٍ ثلاثية منها إلي قم تقبض فيها إمرئةً من ولدي إسمها فاطمة بنتُ موسي و تدخل بشفاعتها شيعتي الجنة باجمعهم**

"Allahın bir hərəmi vardır ki, Məkkədir, agah olub, bilin Rəsulullahın bir hərəmi vardır ki, Mədinədir, agah olub bilin, Əmir əl-mömininin (ə) bir hərəmi vardır ki, Kufədir. Agah olub bilin ki, Qum kiçik Kufədir. Agah olub bilin ki, həqiqətən, Cənnətin səkkiz qapısından üçü Qum tərəfə açılır. Mənim övladlarımdan olan bir xanım orada vəfat edəcəkdir. Adı Musa qızı Fatimədir. Onun şəfaətçiliyi nəticəsində mənim bütün şiələrim Cənnətə daxil olacaq."

2. Əllamə Məclisi imam Rizadan (ə) nəql edir ki, o həzrət Sədə belə buyurmuşdur:

**يا سعد عندكم لنا قبرٌ، قلتُ: جعلت فداك قبرُ فاطمة بنت موسي(ع)؟ قال: نعم، من زارها عارفاً بحقها فله الجنة ...**

"Ey Səd! Sizin yanınızda bizim qəbrimiz vardır." Dedim: "Sənə qurban olum, Musa qızı Fatiməninmi qəbrini buyurursunuz?" Buyurdu: "Bəli, hər kim onun haqqına arif olaraq onu ziyarət edərsə, Cənnət ona vacib olar."

3. "Kamilüz-ziyarət" kitabında imam Cavaddan (ə) nəql edilmişdir ki, o həzrət buyurub:

**من زار قبر عمتي بقم فله الجنة**

Hər kim bibimin qəbrini Qum şəhərində ziyarət etsə, Cənnət ona vacib olar.

4. Şeyx Abbas Qumi "Səfinətül-bihar" kitabında imam Sadiqdən (ə) nəql edir ki, o həzrət buyurmuşdur:

... انّ لله حرما و هو مكّة و انّ للرّسول حرما و هو المدينه و أنّ لأمير المؤمنين حرما و هو كوفة و انّ لنا حرما و هو بلدة و سنذفن فيها إمرئة من اولاي تسمي فاطمة فمن زارها و جبت لها الجنة

"... Allahın hərəmi vardır ki, Məkkədir, Peyğəmbərin hərəmi vardır ki, Mədinədir, Əmir əl-mömininin hərəmi vardır ki, Kufədir, bizim də hərəmimiz vardır ki, Qum şəhəridir. Orada mənim övladlarımdan olan Fatimə adlı bir xanım dəfn olunacaq, hər kim onu ziyarət etsə, Cənnət ona vacib olar."

### *HƏZRƏT MƏSUMƏDƏN (Ə) HƏDİSLƏR*

1. İmam Rizanın (ə) qızı Fatimə (ə) imam Musanın (ə) qızları Fatimə, Zeynəb və Umm-Gulsumdən (ə), onlar imam Sadiqin qızı Fatimədən (ə), o, imam Baqirin qızı Fatimədən (ə), o, imam

Səccadın (ə) qızı Fatimədən (ə), o, imam Hüseynin (ə) qızları Fatimə və Səkinədən (ə), onlar Fatimeyi-Zəhranın (ə) qızı Umm-Gulsumdən (ə) və o da Fatimeyi Zəhradan (ə) belə nəql edir ki, həzrət Fatimə (ə) üzünü camaata tutub buyurdu: "Rəsulallahın (s) Qədir-Xum günü "Kimin mən mövlasıyamsa (rəhbəriyəmsə), Əli də (məndən sonra) onun mövlasıdır (rəhbəridir)" dediyini unutdunuzmu? Unutdunuzmu ki, Peyğəmbər buyurdu: Ya Əli, sənin mənə nisbətin (bağlılığın) Harunun Musaya nisbəti kimidir." [42]

2. Həzrət Fatimeyi Məsumə (ə) imam Sadiqin (ə) qızı Fatimədən, o imam Baqirin (ə) qızı Fatimədən, o, imam Səccadın (ə) qızı Fatimədən, o, imam Hüseynin (ə) qızı Fatimədən, o, Əmir əl-mömininin (ə) qızı Zeynəbdən və o da Fatimeyi-Zəhradan (ə) nəql edir: "Rəsulallah (ə) buyurdu: Bilin, hər kəs Ali-Muhəmmədin (s) məhəbbəti ilə ölsə, şəhid olmuşdur." [43]

## *HƏZRƏT MƏSUMƏNİN (Ə) ZİYARƏTNAMƏSİ*

Xanımın qəbrinə yetişdikdə qəbrin baş tərəfində üzü qibləyə durub 34 dəfə "Allahu əkbər", 33 dəfə "Subhanəllah" və 33 dəfə "Əlhəmdulillah" dedikdən sonra de:

---

[42] əl-Qədr, ъ.1, səh196
[43] Əl-lulu-ul əs-səminə, səh217

اَلسَّلامُ عَلى آدَمَ صَفْوَةِ اللّه اَلسَّلامُ
عَلى نوُح نَبِىِّ اللّه ِ اَلسَّلامُ عَلى ا ِبْراهيمَ
خَليل ِ اللّه ِ اَلسَّلامُ عَلى موُسى كَليم ِاللّه ِ
اَلسَّلامُ عَلى عيسى روُح ِ اللّه ِ اَلسَّلامُ
عَلَيْكَ يا خَيْرَ خَلْقَ اللّه ِاَلسَّلامُ عَلَيْكَ يا
صَفِىَّ اللّه ِ اَلسَّلامُ عَلَيْكَ يا مُحَمّدَ بْنَ
عَبْد ِاللّه ِخاتَمَ النَّبِيّينَ اَلسَّلامُ عَلَيْكَ يا
اَميرَالْمُؤْمِنينَ عَلىَّ بْنَ اَبى طالِب وَصِىَّ
رَسوُل ِ اللّه ِ اَلسَّلامُ عَلَيْك ِ يا فاطِمَةُ
سَيِّدَةَ نِساءِ الْعالَمينَ اَلسَّلامُ عَلَيْكُما يا
سِبْطَىْ نَبِىِّ الرَّحْمَة ِ وَ سَيِّدَىْ شَباب ِ
أَهْل ِ الْجَنَّة ِ اَلسَّلامُ عَلَيْكَ يا عَلِىَّ بْنَ
الْحُسَيْن ِ سَيِّدَ الْعابِدينَ وَ قُرَّةَ عَيْن ِ
النّاظِرينَ اَلسَّلامُ عَلَيْكَ يا مُحَمَّدَ بْنَ
عَلِىّبَاقِرَ الْعِلْم ِ بَعْدَ النَّبِىِّ اَلسَّلامُ عَلَيْكَ يا
جَعْفَرَ بْنَ مُحَمَّد الصّاد ِقَ الْبارَّ الاْمينَ

اَلسَّلامُ عَلَيْكَ يا موُسَى بْنَ جَعْفَر الطّاهِرَ الطُّهْرَ اَلسَّلامُ عَلَيْكَ يا عَلِىّ بْنَ موُ سَى الرِّضَا الْمُرْتَضى اَالسَّلامُ عَلَيْكَ يا مُحَمَّدَ بْنَ عَلِىالتَّقِىَّ اَلسَّلامُ عَلَيْكَ يا عَلِىّ بْنَ مُحَمَّد النَّقِىَّ النّاصِحَ الْأَمينَ اَلسَّلامُ عَلَيْكَ يا حَسَنَ بْنَ عَلِىّ اَلسَّلامُ عَلَى الْوَصِىّ مِنْ بَعْدِه اَللّٰهُمَّ صَلِّ على نُورِكَ وَ سِراجِكَ وَ وَلِىّ وَلِيِّكَ وَ وَصِىّ وَصِيِّكَ وَ حُجَّتِكَ على خَلْقِكَ اَلسَّلامُ عَلَيْكِ يابِنْتَ رَسوُلِ الله اَلسَّلامُ عَلَيْكِ يا بِنْتَ فاطِمَةَ وَ خَديجَةَ اَلسَّلامُ عَلَيْكِ يا بِنْتَ اَميرِ الْمُؤْمِنينَ اَلسَّلامُ عَلَيْكِ يا بِنْتَ الْحَسَنِ وَ الْحُسَيْنِ اَلسَّلامُ عَلَيْكِ يا بِنْتَ وَلِىّ اللهِ اَلسَّلامُ عَلَيْكِ يا اُخْتَ وَلِىّ اللهِ اَلسَّلامُ عَلَيْكِ يا عَمَّةَ وَلِىّ اللهِ اَلسَّلامُ عَلَيْكِ يا بِنْتَ موُسَى بْنِ جَعْفَر وَ رَحْمَةُ

اللّهِ وَ بَرَكاتُهُ اَلسَّلامُ عَلَيْكِ عَرَّفَ اللّهُ بَيْنَنا وَ بَيْنَكُمْ فِىالْجَنَّةِ وَ حَشَرَنا فى زُمْرَتِكُمْ وَ أَوَرَدْنا حَوْضَ نَبِيِّكُمْ وَ سَقانا بِكَأْسِ جَدِّ كُمْ مِنْ يَد عَلِىّ بْنِ اَبى طالِب صَلَواتُ اللّه عَلَيْكُمْ أَسْئَلُ اللّه أَنْ يُرِيَنا فيكُمُ السُّرُورَ وَ الْفَرَجَ وَ أَنْ يَجْمَعَنا وَ إِيّاكُمْ فى زُمْرَةِ جَدِّكُمْ مُحَمَّد صَلَّى اللّهُ عَلَيْهِ وَ آلِهِ وَ أَنْ لا يَسْلُبَنا مَعْرِ فَتَكُمْ إِنَّهُ وَلِىّ قَديرٌ. أَتَقَرَّبُ إِلَى اللّهِ بِحُبِّكُمْ وَ الْبَراءَةِ مِنْ أَعْدائِكُمْ وَ التَّسْليمِ إِلَى اللّهِ راضِياً بِهِ غَيْرَمُنْكِر وَ لا مُسْتَكْبِر وَ عَلى يَقينِ ما أَتى بِهِ مَحَمَّدٌ وَ بِهَ راض نَطْلُبُ بِذلِكَ وَجْهَكَ يا سَيِّدى اَللّهُمَّ وَ رِضاكَ وَ الدّارَ الْآخِرَةِ يا فاطِمَةُ اِشْفَعى لى فِى الْجَنَّةِ فَاِنَّ لَكِ عِنْدَاللّهِ شَأْناً مِنَ الشَّأْنِ اَللّهُمّ اِنى اَسْئَلُكَ أَنْ

تَخْتِمَ لی بِالسَّعادَةِ فَلاتَسْلُبْ مِنّی ما أَنَا فیهِ وَ لاحُولَ وَ لا قُوَةَ إِلا بِاللّه الْعَلِیِّ الْعَظیم اَللّهُمَ اسْتَجِبْ لَنا وَ تَقَبَّلْهُ بِكَرَمِكَ وَ عِزَّتِكَ وَ بِرَحْمَتِكَ وَ عافِیَتَكَ وَ صَلَّی اللّهُ عَلی مُحَمَّد وَ آلِهِ أَجْمَعینَ وَ سَلَّمَ تَسْلیما یا أَرْحَمَ الرّاحِمینَ

Əssəlamu ’əla Adəmə səfvətillah. Əssəlamu ’əla Nuhin nəbiyyillah. Əssəlamu ’əla İbrahimə xəlilillah. Əssəlamu ’əla Musa kəlimillah. Əsəlamu ’əla ’İsa ruhillah. Əssəlamu ’ələykə ya Rəsuləllah. Əssəlamu ’ələykə ya xəyrə xəlqillah. Əssəlamu ’ələykə ya Səfiyyəllah. Əssəlamu ’ələykə ya Muhəmmədəbnə Əbdillahi xatəmən-nəbiyyin. Əssəlamu ’ələykə ya Əmirəl-mu’mininə Əliyyəbnə Əbitalibin vəsiyyə Rəsulillah. Əssəlamu ələyki ya Fatimətu Səyyidətə nisail-aləmin. Əssəlamu ələykuma ya sibtəy nəbiyyir-rəhməti və səyyidəy şəbabi əhlil cənnəh. Əssəlamu ’ələykə ya Əliyyəbnəl-Husəyni Səyyidəl-abidinə və qurrətə əynin-nazirin. Əssəlamu ’ələykə ya Muhəmmədəbnə Əliyyin Baqirəl-ilmi bə’dən-nəbiyy. Əssəlamu ’ələykə ya Cə’fərəbnə Muhəmməd. Əssadiqəl-Barrəl-Əmin. Əssəlamu ’ələykə ya Musəbnə Cə’fər. Ət-Tahirət-Tuhr. Əssəlamu ’ələykə

ya Əliyyəbnə Musər-Rizəl-Murtəza. Əssəlamu ’ələykə ya Muhəmmədnə Əliyy. Ət-Təqiyy. Əsəlamu ’ələykə ya Əliyyəbnə Muhəmməd. Ən-Nəqiyyən-Nasihəl-Əmin. Əssəlamu ’ələykə ya Həsənəbnə Əliyy. Əssəlamu ələl-vəsiyyi min bə’dih. Əllahummə səlli ’əla nurikə və siracik. Və vəliyyi vəliyyikə və vəsiyyi vəsiyyikə və huccətikə ’əla xəlqik. Əssəlamu ələyki ya bintə Rəsulillah. Əssəlamu ələyki ya bintə Fatimətə və Xədicəh. Əssəlamu ələyki ya bintə Əmiril-mu’minin. Əssəlamu-ələyki ya bintəl-Həsəni vəl-Husəyn. Əssəlamu ələyki ya bintə vəliyyillah.

Əssəlamu ələyki ya uxtə vəliyyillah. Əssəlamu ələyki ya əmmətə vəliyyillah. Əssəlamu ələyki ya bintə Musəbni Cə’fərin və rəhmətullahi və bərəkatuh. Əssəlamu ələyki ərrəfəllahu bəynəna və bəynəkum fil-cənnəti və həşərəna fi zumrətikum və əvrədəna həvzə nəbiyyukum və səqana bikə’si cəddikum min yədi Əliyyibni Əbitalibin sələvatullahi ələykum. Əs’əlullahə ən yuriyəna fikumus-sururə vəl-fərəcə və ən yəcməəna və iyyakum fi zumrəti cəddikum Muhəmmədin səlləllahu ələyhi və alih. Və ən la yəslubəna mə’rifətəkum innəhu Vəliyyun Qədir. Ətəqərrəbu iləllahi bihubbikum vəl-bəraəti min ə’daikum vəttəslimi iləllahi raziyən bihi ğəyrə munkirin və la mustəkbirin və ’əla yəqini ma əta bihi Muhəmmədun və bihi razin nətlubu bizalikə vəchəkə ya Səyyidi. Əllahummə və rizakə vəd-darəl-axirəh. Ya Fatimətuşfəi li fil-cənnəti fəinnə ləki indəllahi şə’nən minəş-şə’n. Əllahummə inni əs’əlukə ən

təxtimə li bis-səadəti fəla təslub minni ma ənə fihi və la həvlə və la quvvətə illa billahil-Əliyyil-Əzim. Əllahumməstəcib lənə və təqəbbəlhu bikərəmikə və izzətikə və birəhmətikə və afiyətik. Və səlləllahu ’əla Muhəmmədin və alihi əcməinə və səlləmə təslimən ya Ərhəmər-rahimin.

Salam olsun Allahın seçdiyi olan Adəmə!
Salam olsun Allah nəbisi olan Nuha!
Salam olsun Allah dostu olan İbrahimə!
Salam olsun Allahla həmsöhbət olan Musaya!
Salam olsun Allah ruhu olan İsaya!
Salam olsun sənə, ey məxluqatın ən xeyirlisi!
Salam olsun sənə, ey Allahın seçdiyi!
Salam olsun sənə, ey peyğəmbərlərin sonuncusu Muhəmməd ibn Abdullah!
Salam olsun sənə, ey Rəsulallahın vəsisi, Əmir əl-möminin Əli  ibn Əbutalib!
Salam olsun sənə, ey aləmlərin qadınlarının xanımı, Fatimə!
Salam olsun sizə, ey rəhmət Peyğəmbərinin iki nəvəsi və Cənnət cavanlarının ağası (yəni imam Həsən (ə) və Hüseyn (ə))!
Salam olsun sənə, ey bəsirət əhlinin gözünün nuru, ibadət edənlərin ağası, Əli ibn Hüseyn!
Salam olsun sənə, ey Peyğəmbərdən sonra elmin incəliklərinə varan Muhəmməd ibn Əli!
Salam olsun sənə, ey gözəl əmanətdar Cəfər ibn Muhəmməd əs-Sadiq!

Salam olsun sənə, ey pak və mutəhhər ruhlu Musa ibn Cəfər!

Salam olsun sənə, ey Murtəza (bəyənilmiş) olan Əli ibn Musa ər-Riza!

Salam olsun sənə, ey Muhəmməd ibn Əli ət-Təqi!

Salam olsun sənə, ey xeyirxah, əmanətdar Əli ibn Muhəmməd ən-Nəqi!

Salam olsun sənə, ey Həsən ibn Əli!

Salam olsun ondan sonrakı vəsiyə! (yəni imam Zaman əleyhissalama).

İlahi, Öz salavatını Öz nuruna və çırağına, Öz vəlinin vəlisinə, Öz vəsisinə və Öz bəndələrinin arasında olan höccətinə göndər!

Salam olsun sənə, ey Allah Rəsulunun qızı!

Salam olsun sənə, ey Fatimə və Xədicənin qızı!

Salam olsun sənə, ey Əmir əl-mömininin qızı!

Salam olsun sənə, ey Həsən və Hüseynin qızı!

Salam olsun sənə, ey Allah vəlisinin qızı!

Salam olsun sənə, ey Allah vəlisinin bacısı!

Salam olsun sənə, ey Allah vəlisinin bibisi!

Salam olsun sənə, ey Musa ibn Cəfərin qızı! Allahın rəhməti və bərəkəti olsun sənə!

Salam olsun sənə, Allah Cənnətdə bizi sizə tanıtsın və bizi sizin zümrədə məhşur etsin, Peyğəmbərimizin (s) hovuzuna (Kövsərə) daxil etsin və Cəddinizin camları ilə Əli ibn Əbutalibin əli ilə sirab etsin. Allahın salavatı olsun sizə. Allahdan istəyirəm ki, siz əhli-beytin sevinc və fərəcini (imam Zamanın

(ə) zühurunu) bizə göstərsin, bizi və sizi cəddiniz Muhəmməd (s) zümrəsində cəm etsin, sizin mərifətinizi bizdən almasın. Həqiqətən, o bizim ixtiyar sahibimiz və hər şeyə qadirdir. Mən sizə məhəbbət bəsləmək və düşmənlərinizdən uzaqlaşıb onlara nifrət etməklə, Allaha təslim olmaqla, Ondan razı qalmaqla heç nəyi inkar etməyib heç bir vaxt təkəbbür göstərmədən həzrət Muhəmmədin (s) gətirdiklərinə yəqin edib ondan razı qalmaqla Allahın dərgahına yaxınlaşıram. Ey mənim mövlam, ağam, mən bunlarla sənin vəchini, razılığını və axirəti istəyirəm.

Ey Fatimə, mənim behiştə getməyim üçün (Allah yanında) şəfaət et, çünki Allah yanında sənin uca məqam və mənzilətin vardır.

İlahi, Səndən istəyirəm ki, aqibətimi xeyirlə xətm edəsən və məni tutduğum yoldan uzaqlaşdırmayasan. Uca mərtəbəli və əzəmətli Allahdan başqa heç bir qüvvə, qüdrət yoxdur. İlahi, Öz kərəmin, izzətin, rəhmətin və afiyətin xatirinə bizim duaları müstəcab və qəbul et. Muhəmməd (s) və onun bütün xanədanına qəni-qəni salam və salavat göndər, ey mehribanların mehribanı!

### *CƏMKƏRAN MƏSCİDİ*

Cəmkəran məscidinin tikilməsinə verilən fərmanın tarixi 293-cü hicri qəməri ili (1129-cu il) ramazanın 17-nə təsadüf edir.

Şeyx Səduqun müasiri olan "Qum tarixi" kitabının müəllifi Həsən ibn Muhəmməd ibn Həsən Qumi həzrət Məhdi Sahib əz-Zamanın (ə) göstərişi ilə Cəmkəran məscidinin inşasını Şeyx Səduqun "Munis ül-həzin fi-mərifəti-l-həqq əl-yəqin" adlı əsərlərindən belə nəql edir:

Həsən ibn Müslə Cəmkərani deyir: "293-cü il (h.q) ramazan ayının 17-də, çərşənbə axşamı öz evimdə yatmışdım. Gecə yarısı idi. Birdən bir qrup evimə gəldilər və məni yuxudan oyatdılar və dedilər: Qalx və həzrət Məhdi Sahib əz-Zamanın (ə) əmrini yerinə yetir ki, səni tələb edir."

Həsən ibn Müslə deyir: "Qalxdım və hazırlaşdım və yola düşdüm. Evimin qapısına yaxınlaşanda böyüklərdən bir qrupunu gördüm. Salam verdim. Salamımın cavabını verdilər, xoşgəldin dedilər və məni indi Cəmkəran məscidinin yerləşdiyi yerə apardılar. Baxdım, gördüm ki, orada, üzərinə gözəl bir xalça salınmış və yaxşı balışlar qoyulmuş bir taxt qoyulmuşdu. Təqribən otuz yaşlı bir cavan taxtın üstündə balışlara söykənmiş, əlindəki kitabı onun üçün oxuyan bir qoca da onun yanında əyləşmişdir. Bəzilərinin libası ağ, digərlərinin libası yaşıl olan altmış nəfərdən çox adam həmən cavanın ətrafında namaz qılırdılar. Həzrət Xızr (ə) olan həmən qoca məni taxtın üstündə oturtdu və həzrət imam Məhdi (ə) məni öz adım ilə çağırdı və buyurdu: " Get, Həsən ibn Müslümə de ki, sən neçə ildir bu torpağı abadlaşdırırsan və biz dağıdırıq. Beş ildir əkinçilik

edirsən, bu il yenidən əkinçiliyə başlamısan. Bu torpaqdan qazandığın bütün xeyri qaytarmalısan ki, həmən yerdə (əkinçilikdən alınan gəlirlə) məscid tiksinlər. Həsən ibn Müslümə de ki, bura şərif bir torpaqdır. Allah-Təala bu məkanı digər yerlərdən ayırıb dəyərləndirmişdir.  Sən oranı tutub öz torpağına birləşdirmisən. Allah iki cavan oğlunu səndən aldı, hələ də ayılmadın. Əgər bu işdən uzaqlaşmasan, Allah sənin güman edə biləcəyin qədər bəla göndərər."

Həsən ibn Müslə ərz etdi: "Ey mənim mövlam! Bir əlamət və ya nişanəni mənim ixtiyarıma verməlisən. Çünki adamlar mənim sözümü əlamət və nişanəsiz qəbul etməzlər." İmam Məhdi (ə) buyurdu: "Seyyid Əbülhəsənin yanına get və ona de ki, qalxsın və gəlsin və o kişi (Həsən ibn Müslimi) gətirsin, neçə illik mənfəəti ondan alsın və başqalarına versin ki, məscid binasının tikintisinə sərf etsinlər. Qalan pulları mülkümüz olan Ərdəhalda yerləşən Rəhəqdən gətirsin və məscidin inşasını bitirsin. Rəhəqin yarısını bu məscid üçün vəqf etdik ki, illik gəlirini əldə etsin və məscidin tikilişinə sərf olunsun.

Adamlara de! Bu yeri sevsinlər və onu əziz tutsunlar və orada dörd rəkət namaz qılsınlar. İki rəkəti məscidin mübarəkliyi, qalan iki rəkəti imam Sahib əz-Zaman (ə) üçün qılsınlar. Məscid üçün qılınan namazın hər rəkətində bir dəfə əl-Həmd, yeddi dəfə

**قل هوالله احد**

yeddi dəfə rüku və sücudu oxusunlar. İmam Zamanın (ə) namazında Həmd surəsinin

إِيَّاكَ نَعْبُدُ وإِيَّاكَ نَسْتَعِينُ

ayəsinə çatanda onu yüz dəfə oxusunlar, ikinci rəkətdə də həmən yolla yerinə yetirsinlər, rüku və sücudun təsbihini hər iki rəkətdə yeddi dəfə oxusunlar. Namazdan sonra bir dəfə təhlil (لا اله الا الله) desinlər. Sonra Fatime-yi Zəhranın (ə) təsbihini desinlər, daha sonra başlarını səcdəyə qoyub yüz dəfə peyğəmbər və ailəsinə salavat göndərsinlər."

فمن صلاهما فكانما صلي في البيت العتيق

"Kim bu iki rəkəti (ya bu iki namazı) qılsa, sanki onu Kəbə evində qılmışdır."

Həsən ibn Müslə deyir: "Öz ürəyimdə dedim: "Sən buranı adi yer bilirsən, bura Sahib əz-Zamanın (ə) məscididir." Sonra o həzrət mənə işarə etdi ki, get. Bir qədər yol getmişdim ki, yenidən məni səslədi və buyurdu: "Cəfər Kaşaninin (çoban) sürüsündə bir keçi var ki, onu almalısan. Əgər adamlar pulunu versələr, onların pulu ilə al, əgər verməsələr, pulunu özün ödə. Sabah axşam (yəni çərşənbə axşamı) o keçini gətir və bu yerdə (məscidin kənarında) başını kəs. O keçininin ətini ramazan ayının 18-i ağır xəstəliyi olan xəstələr arasında bölüşdür ki, Allah-Təala hamısına şəfa versin. O keçi ala-buladır, çoxlü tükləri vardır, bir tərəfində hər biri dirhəm ölçüsündə yeddi ağ-qara nişanı, digər tərəfində dörd nişanı vardır."

Həsən ibn Müslə deyir, hərəkət etdim. Bir daha həzrət Məhdi (ə) məni səslədi və buyurdu: "Yetmiş (ya yeddi) gün burada sakin ol."

Həsən ibn Müslə deyir: "Evimə qayıtdım və bütün gecəni səhərə qədər fikirlə keçirtdim. Namazdan sonra Əli ibn Münzərin yanına getdim, gecənin hadisəsini onun üçün danışdım. Sonra onunla həmən məscidin yerinə getdik. O dedi: " Allaha and olsun ki, imamın (ə) buyurduğu nişanə burada qoyulmuşdur." Baxdıq gördük ki, məscidin hüdudları mıxlar və zəncirlərlə müəyyən olunmuşdur.

Sonra Əli ibn Münzərlə Seyyid Əbülhəsənin yanına getdik. Evinə çatanda xidmətçiləri dedilər: "Siz Cəmkərandan gəlirsiniz?" Dedik: "Bəli." Dedilər: "Seyyid Əbülhəsən dan yeri söküləndən sizi gözləyir."

Həsən ibn Müslə deyir: "Seyyid Əbülhəsənin evinə daxil oldum və salam verdim. Məni xoşüzlə qarşıladı və yaxşı bir yerdə oturtdu, bir söz deməmişdim ki, o, sözə başladı və belə dedi: Ey Həsən ibn Müslə! Mən yatmışdım. Yuxu aləmində bir şəxs mənə dedi: Səhər Həsən ibn Müslə adlı bir şəxs Cəmkərandan yanına gələcək. Onun dediyinə inan və sözlərini təsdiq et ki, sözü bizim sözümüzdür, əsla sözünü rədd etmə. Yuxudan oyanıb bu saata qədər səni gözləyirəm."

Həsən ibn Müslə macəranı aydın şəkildə Seyyid Əbülhəsənə danışdı. Seyyid Əbülhəsən Rizayi göstəriş verdi. Atları cilovlayıb süvar oldular və

Cəmkərana tərəf yola düşdülər. Cəmkəranın yaxınlığında çoban Cəfəri gördülər ki, sürüsü yolun kənarında otluqdadır. Həsən ibn Müslə sürünün ortasına getdi, imam (ə) buyurduğu o keçini gördü ki, sürünün arxasından ona tərəf qaçdı.

Həsən o keçini tutdu və pulunu ödəmək istədi, çoban Cəfər dedi: "Allaha and olsun ki, bu keçini mən indiyə qədər görməmişəm." Nə qədər etdim, pulunu götürmədi. Sonra o keçini təyin olunan yerə gətirdilər və orada başını kəsdilər.

Seyyid Əbülhəsən məscidin ətrafındakı mıx və çubuqları Quma gətirib evində saxladı. Ağır xəstəliyi olan xəstələr gəlib özlərini o zəncirlərə sürtürdülər və şəfa tapırdılar.

Qumda yaşayan Seyyid Əbülhəsən vəfat edəndən sonra övladı bərk xəstələndi, otağa daxil oldu, sandıqların qapağını açdı ki, özünü mıxlara və zəncirlərə sürtsün ki, şəfa tapsın, onları tapmadı.[44]

---

[44] Biharul-Ənvar, ъ.53, səh.230-233

# IV FƏSİL

# REY ZİYARƏTİ

## *REYİN TARİXİ*

Rey İranın qədim məntəqələrindən biridir. Reydəki abidələr miladdan əvvəl dördüncü minilliyə aid edilir və qədimilik baxımından iki hissəyə bölünür:

1. "Reye-bərrin" və ya "Reye-Ulya" (yuxarı Rey) adlanan qədim Rey. Şəhərin bu hissəsi islamdan öncə tikilmiş böyük bir hasarın arasında, Əli bulağının cənubunda yerləşirdi.

2. Sonuncu yüzilliklərə aid olan "Reye-zirin" və ya "Reye-sufla" (aşağı Rey) adlanan hissə. Bu hissə əvvəlki hissənin, yəni yuxarı Reyin cənub-şərqində və "Bibi-Şəhrəbanu" dağının cənubunda yerləşir. Təqribən miladdan 300 il əvvəl "Selekos", "Uruyus" adını Reyə qoydu. "Əşkanilər"in dövründə bu ad dəyişilib "Ərsakiya" və "Ərəşkiyyə" oldu.

Sasanilərin hakimiyyəti zamanı "Rey" adını aldı. Bu şəhərin əhalisi islam qoşunlarının şəhərə daxil olması ilə islamı qəbul etdilər. İlkin dövrlərdə onların əksəriyyəti əhli-təsənnün idi, lakin hicrətin ikinci yüzilliyinin birinci yarısında şiə məzhəbini qəbul etdilər. İslamın hakimiyyəti zamanı Rey Bəni Üməyyə liderlərinin sığınacağına çevrildi. Bu şəhər məzhəbi qarşıdurmalardan çox ziyan görmüşdü. 617-ci (h.q.) ildə monqolların hücumuna məruz qaldı və əhali kütləvi şəkildə qılıncdan keçirildi. Bu qırğının nəticələri aradan qalxmamış 786-cı (h.q.) ildə Teymurun qoşunu tərəfindən viranəyə çevrildi və bundan sonra Rey abadlıq üzü görmədi. Müasir Reyin yaxınlığında qədim Reyin viranələri hələ də qalmaqdadır.

### *Reyin tarixi abidələri*

Bu şəhərin qədim tarixi abidələri kimi, Əli bulağının üstündə yerləşən Əşkanilər sarayının xarabalıqlarını, Sərsərə dağı üzərində Sasanilərdən qalma daş rəsmlərini, Reyin Əminabad hissəsində yerləşən Bibi Şəhrəbanu türbəsini, Toğrul bürcünü, ibn Babəveyh türbəsini, Misgərabad dağının ətəyində yerləşən Harun ər-Rəşid zindanını, imam Həsənin (ə) övladlarından olan həzrət Əbdüləzimin (ə) hərəmini, həzrət imam Rizanın (ə) qardaşı imamzadə Həmzənin türbəsini və imam Səccadın (ə) övladlarından olan imamzadə Tahirin hərəmini misal kimi göstərmək olar.45

## *HƏZRƏT ƏBDÜLƏZİMİN (Ə)*

## *HƏYATI*

Əbdüləzim ibn Əbdullah Həsəni (ə) ikinci imam Həsən ibn Əlinin (ə) nəslindəndir. O, pak, təqvalı bir alim, imam Cavad (ə) və imam Hadinin (ə) səhabələrindən və o iki imamın etibar etdiyi ravilərdən olmuşdur. Bu böyük imam övladının mübarək məzarı Rey şəhərində tanınmış ziyarətgahdır. Onun barəsində belə bir hədis mövcuddur: "Rey əhalisindən bir nəfər imam Hadinin (ə) hüzuruna getdi. İmam ondan soruşdu: "Haradan gəlirsən?" Dedi: "Həzrət Əbu Əbdullah Hüseynin (ə) ziyarətindən gəlirəm." İmam buyurdu: "Elə

---

[45] İranı səyahət edənlər üçün ətraflı bələdçi məъmuəsi

yaxınlığınızda yerləşən Əbdüləzimin qəbrini ziyarət etsəydin Hüseynin (ə) qəbrini ziyarət etmiş şəxsin savabını qazanmış olardın."

Həzrət Əbdüləzimdən (ə) belə nəql olunur: Həzrət Cavada (ə) ərz etdim: "Ey Rəsulallahın övladı, mənə alicənab babalarından bir hədis nəql buyur. İmam buyurdu: "Nə qədər ki, camaat fərqlidirlər xeyir və xoşluqla yaşayacaqlar və elə ki, hamı bir-birilə bərabər oldular məhv olacaqlar."

Ərz etdim: Bundan artıq buyurun! Buyurdu: "Atam babalarından Əmir əl-mömininin (ə) belə buyurduğunu söylədi: "Bir-birinizin sirrini bilsəniz, bir-birinizin cənazəsini dəfn etməyəcəksiniz." Dedim: "Bundan artığını buyurun!" Buyurdu: "Atam babalarımdan Əmir əl-mömininin (ə) belə buyurduğunu nəql etdi. Var-dövlətinizlə bütün camaatı özünüzdən razı edə bilmirsinizsə, əxlaqınızla hamıya yaxşılıq edin." Beləliklə, mən əlavə hədis istəyirdim, imam da mənə hədis nəql edirdi.

Nəql olunur ki, həzrət Əbdüləzim öz əqidələrini həzrət imam Hadiyə (ə) bir-bir söylədi və əqidələrinin necə olduğunu soruşdu. İmam onun bütün əqidələrini təsdiq edərək buyurdu:

**يا ابالقاسم هذا و الله دين الله الذي ارتضاه لعباده فاثبت عليه ثبتك الله بالقول الثابت في الدنيا و الاخرة**

"Ey Əbülqasim, and olsun Allaha ki, Allahın dini bəndələri üçün bəyəndiyi və razı qaldığı dindir. Elə isə bu əqidədə sabit şəkildə qal. Allah səni dünya və axirətdə sabit əqidəyə sahib etsin."

Nəcaşi Bərqidən belə nəql edir: "Həzrət Əbdüləzim öz əsrinin hakimiyyəti tərəfindən təqibə məruz qaldığından Rey şəhərinə pənah aparıb Sikkət ül-Məvali küçəsində əhli-beyt tərəfdarlarının birinin zirzəmisində yaşayır və çox vaxt ibadətə məşğul olurdu. Gündüzləri oruc tutur, gecələri isə namaz qılırdı. Bəzən isə hazırda onun öz qəbrinin yanında yerləşən bir məzarı ziyarət edərək buyururdu: Bu, imam Musa ibn Cəfərin övladlarından biridir." O cənabın Reydə məskən salması xəbəri yavaş-yavaş yayılmağa başladı və əhli-beyt tərəfdarları onu tanıdılar. Həmin ərəfədə bir nəfər şəxs həzrət Peyğəmbəri (s) yuxuda gördü. Həzrət ona belə buyurdu: "Mənim övladlarımdan birinin cəsədi Sikkət ül-Məvali küçəsindən daşınıb Əbdülcabbar ibn Əbdülvəhhabın evinin qapısı ağzında yerləşən alma ağacının yanında basdırılacaq." Sonra o Həzrət Əbdüləzimin dəfn olunduğu yerə işarə etdi. Həmin şəxs yuxudan oyandı və həmin yeri satın almaq üçün bağ sahibinin yanına getdi. Bağ sahibi ondan bu bağı niyə aldığını soruşdu. Həmin şəxs öz yuxusunu ona danışdı. Bağ sahibi dedi: "Mən də belə bir yuxu görmüşəm və bu bağı bütövlükdə o seyyid üçün vəqf etmişəm, digər şiələr də öz ölülərini orada basdıra bilərlər."

Bu hadisədən sonra həzrət Əbdüləzim xəstələndi və vəfat etdi. O cənaba qüsl vermək üçün soyundurarkən cibindən bir şəcərə tapdılar. Həmin şəcərədə öz əsl-nəsəbini bu şəkildə yazmışdı: Mən Əbutalib oğlu Əlinin oğlu Həsənin oğlu Zeydin oğlu Həsənin oğlu Əlinin oğlu Əbdullahın oğlu Əbulqasim Əbdüləziməm.

Sahib ibn Əbbad Ruyanidən belə bir hədis nəql edir: "Əbu Həmmad Razi deyirdi: Samirra şəhərində onuncu imam Əli ən-Nəqinin (ə) hüzuruna gedib halal-harama aid bir neçə məsələ soruşdum. Həzrət suallarıma cavab verdi və vidalaşarkən mənə buyurdu: Ey Həmmad, dini məsələlərdə müşkülün olsa, Əbdüləzim ibn Əbdullah Həsənidən soruş və mənim salamımı ona yetir."

Mühəqqiq Damad "Rəvasih" kitabında yazır ki, Əbdüləzimi ziyarət etməyin fəziləti və savabı barədə çoxlu hədislər vardır və hətta hədisdə nəql olunmuşdur ki, onun qəbrini ziyarət edən kəsə behişt vacib olar.

### *HƏZRƏT ƏBDÜLƏZİMİN (Ə) ZİYARƏTNAMƏSİ*

Hacı Şeyx Abbas Qumi yazır: Fəxr əl-Muhəqqiqin Ağa Cəmaləddin "Məzar" kitabında yazır: O cənabı belə ziyarət etmək münasibdir:

اَلسَّلامُ عَلى آدَمَ صَفْوَةِ اللّهِ، اَلسَّلامُ عَلى نُوح نَبِيّ اللّهِ، اَلسَّلامُ عَلى اِبْراهيمَ خَليلِ اللّهِ، اَلسَّلامُ عَلى مُوسى كَليمِ اللّهِ، اَلسَّلامُ عَلى عيسى رُوحِ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا رَسُولَ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا خَيْرَ خَلْقِ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا صَفِيَّ اللّهِ، اَلسَّلامُ عَلَيْكَ يا مُحَمَّدَ بْنَ عَبْدِ اللّهِ خاتَمَ النَّبِيّينَ، اَلسَّلامُ عَلَيْكَ يا اَميرَ الْمُؤْمِنينَ عَلِيَّ بْنَ اَبى طالِب وَصِيَّ رَسُولِ اللّهِ، اَلسَّلامُ عَلَيْكِ يا فاطِمَةُ سَيِّدَةَ نِساءِ الْعالَمينَ، اَلسَّلامُ عَلَيْكُما يا سِبْطَىْ نَبِيِّ الرَّحْمَةِ وَسَيِّدَىْ شَبابِ اَهْلِ الْجَنَّةِ، اَلسَّلامُ عَلَيْكَ يا عَلِيَّ بْنَ الْحُسَيْنِ سَيِّدَ الْعابِدينَ وَقُرَّةَ عَيْنِ النّاظِرينَ، اَلسَّلامُ عَلَيْكَ يا مُحَمَّدَ بْنَ عَلِيّ باقِرَ الْعِلْمِ بَعْدَ النَّبِيِّ، اَلسَّلامُ عَلَيْكَ يا جَعْفَرَ بْنَ مُحَمَّد الصّادِقَ

الْبارَّ الاْ َمينَ، اَلسَّلامُ عَلَيْكَ يا مُوسَى بْنَ جَعْفَرِ الطّاهِرَ الطُّهْرَ، اَلسَّلامُ عَلَيْكَ يا عَلِيَّ بْنَ مُوسَى الرِّضا الْمُرْتَضى، اَلسَّلامُ عَلَيْكَ يا مُحَمَّدَ بْنَ عَلِيِّ التَّقِيَّ، اَلسَّلامُ عَلَيْكَ يا عَلِيَّ بْنَ مُحَمَّدً النَّقِيَّ النّاصِحَ الاْ َمينَ، اَلسَّلامُ عَلَيْكَ يا حَسَنَ بْنَ عَلِيّ، اَلسَّلامُ عَلَى الْوَصِيّ مِنْ بَعْدِهِ، اَللّـهُمَّ صَلِّ عَلى نُورِكَ وَسِراجِكَ وَوَلِيِّ وَلِيِّكَ وَوَصِيِّ وَصِيِّكَ، وَحُجَّتِكَ عَلى خَلْقِكَ، اَلسَّلامُ عَلَيْكَ اَيُّهَا السَّيِّدُ الزَّكِيُّ وَالطّاهِرُ الصَّفِيُّ اَلسَّلامُ عَلَيْكَ يَا بْنَ السّادَةِ الاْ َطْهارِ اَلسَّلامُ عَلَيْكَ يَا بْنَ الْمُصْطَفينَ الاْ َخْيارِ اَلسَّلامُ عَلى رَسُولِ اللَّهِ و عَلى ذُرِّيَّةِ رَسُولِ اللَّهِ وَرَحْمَةُ اللَّهِ و بَرَكاتُهُ اَلسَّلامُ عَلَى الْعَبْدِ الصّالِحِ الْمُطيعِ لِلَّهِ رَبِّ الْعالَمينَ وَلِرَسُولِهِ وَلاِ َميرِ الْمُؤْمِنينَ اَلسَّلامُ عَلَيْكَ يا اَبَا

الْقاسِمِ ابْنَ السِّبْطِ الْمُنْتَجَبِ الْمُجْتَبى
السَّلامُ عَلَيْكَ يا مَنْ بِزِيارَتِهِ ثَوابُ زِيارَةِ
سَيِّدِ الشُّهَداءِ يُرْتَجى اَلسَّلامُ عَلَيْكَ عَرَّفَ
اللهُ بَيْنَنا وَبَيْنَكُمْ فِى الْجَنَّةِ، وَحَشَرَنا فى
زُمْرَتِكُمْ وَاَوْرَدَنا حَوْضَ نَبِيِّكُمْ، وَسَقانا
بِكَأسِ جَدِّكُمْ مِنْ يَدِ عَلِىِّ بْنِ اَبى طالِب
صَلَواتُ اللهِ عَلَيْكُمْ اَسْأَلُ اللهَ اَنْ يُرِيَنا فيكُمُ
السُّرُورَ وَالْفَرَجَ، وَاَنْ يَجْمَعَنا وِاِيّاكُمْ فى
زُمْرَةِ جَدِّكُمْ مُحَمَّد صَلَّى اللهُ عَلَيْهِ وَآلِهِ،
وَاَنْ لا يَسْلُبَنا مَعْرِفَتَكُمْ اِنَّهُ وَلِىٌّ قَديرٌ،
اَتَقَرَّبُ اِلَى اللهِ بِحُبِّكُمْ وَالْبَرائَةِ مِنْ
اَعْدائِكُمْ، وَالتَّسْليمِ اِلَى اللهِ راضِياً بِهِ غَيْرَ
مُنْكِر وَلا مُسْتَكْبِر وَعَلى يَقين ما اَتى بِهِ
مُحَمَّدٌ وَبِهِ راض، نَطْلُبُ بِذلِكَ وَجْهَكَ يا
سَيِّدى اَللّـهُمَّ وَرِضاكَ وَالدّارَ الاْخِرَةَ، يا
سَيِّدى وَابْنَ سَيِّدى اشْفَعْ لى فى الْجَنَّةِ

فَاِنَّ لَكَ عِنْدَ اللهِ شَأناً مِنَ الشَّأنِ، اَللّـهُمَّ
اِنّى اَسْاَلُكَ اَنْ تَخْتِمَ لى بِالسَّعادَةِ فَلا
تَسْلُبْ مِنّى ما اَنـا فيهِ وَلا حَوْلَ وَلا قُوَّةَ
اِلاّ بِاللهِ الْعَلِىّ الْعَظيمِ، اَللّـهُمَّ اسْتَجِبْ لَنا
وَتَقَبَّلْهُ بِكَرَمِكَ وَعِزَّتِكَ وَبِرَحْمَتِكَ
وَعافِيَتِكَ، وَصَلَّى اللهُ عَلى مُحَمَّد وَآلِهِ
اَجْمَعينَ وَسَلَّمَ تَسْليماً يا اَرْحَمَ الرّاحِمينَ .

Əssəlamu ’əla Adəmə səfvətillah. Əssəlamu ’əla Nuhin nəbiyyillah. Əssəlamu ’əla İbrahimə xəlilillah. Əssəlamu ’əla Musa kəlimillah. Əssəlamu ’əla ’İsa ruhillah. Əsəlamu ’ələykə ya Rəsulələllah. Əssələmu ’ələykə ya xəyrə xəlqillah. Əssəlamu ’ələykə ya Səfiyyəllah. Əssəlamu ’ələykə ya Muhəmmədəbnə Əbdillahi xatəmən-nəbiyyin. Əssəlamu ’ələykə ya Əmirəl-mu’minin ə Əliyyəbnə Əbitalibin vəsiyyə Rəsulillah. Əssəlamu ələyki ya Fatimətu səyyidətə misail-aləmin. Əssəlamu-ələykuma ya sibtəyir-rəhməti və səyyidəy şəbabi əhlil-cənnəh. Əssəlamu ’ələykə ya Əliyyəbnəl-Husəyni Səyyidəl-abidinə və qurrətə əynin-nazirin. Əssəlamu ’ələykə ya Muhəmmədəbnə Əliyyin Baqirəl-ilmi bə’dən-nəbiyy. Əssəlamu ’ələykə ya Cə’fərəbnə Muhəmməd. Əs-

Sadiqəl-Barrəl-Əmin. Əssəlamu ’ələykə ya Musəbnə Cə’fər. Ət-Tahirət-Tuhr. Əssəlamu ’ələykə ya Əliyyəbnə Musər-Rizəl-Murtəza.

Əssəlamu ’ələykə ya Muhəmmədəbnə Əliyy. Ət-Təqiyy. Əssəlamu ’ələykə ya Əliyyəbnə Muhəmməd. Ən-Nəqiyyən-Nasihəl-Əmin. Əsəlamu ’ələykə ya Həsənəbnə Əliyy. Əssəlamu ələl-vəsiyyi min bə’dih. Əllahummə səlli ’əla nurikə və siracik. Və vəliyyi vəliyyikə və vəsiyyi vəsiyyikə və huccətikə ’əla xəlqik. Əssəlamu ’ələykə əyyuhəs-səyyiduz-zəkiyyu vət-tahirus-səfiyy. Əsəlamu ’ələykə yəbnəs-sadətil-əthar. Əssəlamu ’ələykə yəbnəl-mustəfəynəl-əxyar. Əssəlamu ’əla Rəsulillahi və ’əla zurriyyəti Rəsulillahi və rəhmətullahi və bərəkatuh. Əsəlamu ələl-əbdis-salihil-mutii lillahi Rəbbil-aləminə və lirəsulihi və li Əmiril-muminin. Əssəlamu ’ələykə ya Əbəlqasim. İbnəs-sibtil-muntəcəbil-Muctəba. Əssəlamu ’ələykə ya mən biziyarətihi səvabu ziyarəti Səyyidiş-şuhədai yurtəca. Əssəlamu ’ələykə ərrəfəllahu bəynəna və bəynəkum fil-cənnəti və həşərəna fi zumrətikum və əvrədəna həvzə nəbiyyikum və səqana bikə’si cəddikum min yədi Əliyyibni Əbitalibin sələvatullahi ələykum. Əs’əlullahə ən yuriyəna fikumus-sururə vəl-fərəcə və ən yəcməəna və iyyakum fi zumrəti cəddikum Muhəmmədin səlləllahu ələyhi və alih. Və ən la yəslubəna mə’rifətəkum. İnnəhu Vəliyyun Qədir. Ətəqərrəbu iləllahi bihubbikum vəl-bəraəti min ’ədaikum vət-təslimi iləllahi raziyən bihi ğəyrə munkirin və la mustəkbirin və ’əla yəqini ma əta bihi

Muhəmmədun nətlubu bizalikə vəchəkə ya Səyyidi. Əllahummə və rizakə vəd-darəl-axirəh. Ya səyyidi vəbnə səyyidi. İşfə'li fil-cənnəh. Fəinnə ləkə indəllahi şə'nən minəş-şə'n. Əllahummə inni əs'əlukə ən təxtimə li bis-səadəti fəla təslub minni ma ənə fihi və la həvlə və la quvvətə illa billahil-Əliyyil-Əzim. Əllahumməstəcib ləna və təqəbbəlhu bikərəmikə və izzətikə və birəhmətikə və afiyətik. Və səlləllahu 'əla Muhəmmədin və alihi əcməinə və səlləmə təslimən ya Ərhəmərrahimin.

Salam olsun Allahın peyğəmbəri Nuha!

Salam olsun Allahın dostu İbrahimə!

Salam olsun Allahın həmsöhbəti Musaya!

Salam olsun Allahın Ruhu İsaya!

Salam olsun sənə, ey Allahın rəsulu!

Salam olsun sənə, ey Allahın məxluqatının ən yaxşısı!

Salam olsun sənə, ey Allahın seçilmişi!

Salam olsun sənə, ey peyğəmbərlərin sonuncusu Muhəmməd ibn Əbdullah (s)!

Salam olsun sənə, ey Allahın Rəsulunun canişini Əmir əl-möminin Əli ibn Əbutalib!

Salam olsun sənə, ey aləmlərin qadınlarının seyyidəsi (xanımı) Fatimə!

Salam olsun iki cənaba (Həsən (ə) və Hüseynə (ə)). Ey rəhmət nəbisinin nəvələri və Cənnət əhlinin cavanlarının ağaları!

Salam olsun sənə, ey abidlərin ağası və bəsirət əhlinin gözünün işığı Əli ibn Hüseyn!

Salam olsun sənə, ey Peyğəmbərdən sonra elm sirlərinin hasarını dağıdıb yol açan Muhəmməd ibn Əli əl-Baqir!

Salam olsun sənə, ey xeyirxah, doğruçu və əmanətdar Cəfər ibn Muhəmməd əs-Sadiq!

Salam olsun sənə, ey pak və pakizə Musa ibn Cəfər əl-Kazim!

Salam olsun sənə, ey təslim və riza məqamına sahib Əli ibn Musa Riza!

Salam olsun sənə, ey Muhəmməd ibn Əli ət-Təqi!

Salam olsun sənə, ey nəsihətçi və əmanətdar Əli ibn Muhəmməd ən-Nəqi!

Salam olsun sənə, ey Həsən ibn Əli! Salam olsun ondan sonrakı vəsiyyə (canişinə)!

Pərvərdigara, salavat göndər Öz parlaq nuruna və çırağına. O imama ki, Sənin vəliyyinin vəlisi, canişininin canişini və Sənin xəlqinə Sənin höccətindir.

Salam olsun sənə, ey səfalı, pak və təzkiyə olunmuş nəfsə malik olan alicənab seyyid!

Salam olsun sənə, ey pak rəhbərin övladı!

Salam olsun sənə, ey seçilmişlərin və xeyirxahların övladı!

Salam və Allahın rəhməti və bərəkətləri olsun Allahın Rəsuluna və Allah Rəsulunun övladlarına.

Salam olsun, aləmlərin Rəbbi olan Allaha, onun Rəsuluna və Əmir əl-mömininə itaət edən Allahın ləyaqətli və saleh bəndəsinə!

Salam olsun sənə, ey Allahın seçilmiş bəndəsi (böyük) Sibt Müctəbanın oğlu Əbülqasim!

Salam olsun sənə, ey ziyarətində seyyid üş-şuhədanın ziyarətinin savabı olunan şəxs!

Salam olsun sənə! Allah-Təala bizimlə sizin aranızda Cənnətdə tanışlıq yaratsın, bizi sizin zümrənizdə (sıranızda) məhşur etsin (yəni Qiyamətdə sizlə birgə olaq), bizi sizin peyğəmbərinizin hovuzuna daxil etsin və bizi babanız Əli ibn Əbutalibin əlindəki camla sirab etsin.

Allahın salavatı olsun sizlərə. Allahdan istəyirəm ki, siz əhli-beytin fərəc və sevincini (zəmanə imamının zühuru ilə) bizə göstərsin və bizi sizlə birlikdə babanız Muhəmməd (Allahın salavatı və salamı olsun ona və ailəsinə) peyğəmbərin zümrəsində cəm etsin və sizin mərifətinizi (tanımağınızı) əsla bizim qəlbimizdən çıxarmasın. Həqiqətən, O, səltənətli və qüdrətli Məbuddur.

Mən Allaha sizin məhəbbətiniz və düşmənlərinizdən bəraətlə (bizar olmaq, imtina, nifrət) yaxınlaşıram. Allahın əmrinə təsliməm, inkar edən və təkəbbürlü halda deyil (Onun əmrinə) razı olduğum halda və Allah tərəfindən Muhəmmədə (s) vəhy olunanlara yəqinliyim olduğu halda sənə yaxınlaşıram. Bunları sənə yaxınlaşmaq üçün

edirəm ey ağam! Ey Allahım, həmçinin razılığını və axirət evini istəyirəm.

Ey mənim ağam və ağamın oğlu! Mənə Cənnətə daxil olmaqda şəfaətçi ol! Həqiqətən, sənin Allah yanında şənin və böyük məqamın var.

İlahi, səndən diləyirəm ki, mənim aqibətimi səadətlə xətm edəsən və hal-hazırda etiqad bəslədiyim imanı məndən almayasan. Əzəmətli və uca Allahdan başqa kimsədə qüdrət və qüvvət yoxdur.

İlahi, kəreminə, izzətinə, rəhmətinə və afiyətinə xatir bizim duamızı qəbul və rəva et.

Allahın salavatı olsun Muhəmməd və onun bütün əhli-beytinə. Ey Allah, ey rəhm edənlərin ən mərhəmətlisi![46]

## ƏDƏBİYYAT


1. سيد كباري، عليرضا، مسند فاطمه معصومه(س)- قم، زائر، 1375
2. محدثي جواد، زيارت، تهران، 1371
3. محمد بيگي الياس، زندگينامه حضرت فاطمه معصومه(س)- قم، زائر 1379
4. عزيزي عباس، نماز و عبادت امام رضا(ع)، صلاة، 1381
5. اشتهاردي محمد، حضرت معصومه(س) فاطمه دوم – قم، 1381
6. قمي شيخ عباس، كليات مفاتيح الجنان، دفتر نشر فرهنگ اسلامي، 1375


[46] Məfatihül-ъinan, səh.1039

**7.** بني هاشمي سيد محمد حسن، توضيح المسائل مراجع، دفتر انتشارات اسلامي، **1376**
**8.** شمس الدين سيد محمد، ره توشه زائرين حضرت رضا(ع)، قم، **1372**
**9.** ري شهري محمد، ميزان الحكمة، قم، **1375**
**10.** كليني محمد بن يعقوب، اصول كافي، قم، **1375**

**11.** İmam Rizanın (ə) həyatı. "Müntəhəl-amal" X hissə. Şeyx Abbas Qumi, Mədyən, 1421 (2000)
12. Mehdi Pişvayi. "Məsum imamların həyatı." Mütərcim Mais Ağaverdiyev. 2002/1423

MÜNDƏRİCAT

ÖN SÖZ........................................... 3
MÜQƏDDİMƏ ................................. 6
**I FƏSİL**
ZİYARƏT VƏ SƏFƏR...................... 11
ZİYARƏTİN FƏLSƏFƏSİ VƏ İRFANİ ƏHƏMİYYƏTİ ....................................... 12
ZİYARƏTİN QAYDALARI ................ 20
SƏFƏR QAYDALARI....................... 22

SƏFƏRƏ ÇIXANLARA TÖVSİYƏ .. 26
SƏFƏRƏ ÇIXANLARIN ŞƏRİ HÖKMLƏRİ ........................................................... 28
**II FƏSİL**
MƏŞHƏD ZİYARƏTİ ........................ 31
MƏŞHƏDİN TARİXİ ......................... 32
İMAM RZANIN(Ə) HƏYATINA QISA BİR BAXIŞ............................... 34
İMAM RAZININ(Ə) HƏYATI............. 35
İMAM RZANIN (Ə) ƏXLAQİ XÜSUSİYYƏTLƏRİ ........................................................... 50
İMAM RİZANIN (Ə) KƏRAMƏTLƏRİ .............................. 52
İMAM RİZA(Ə) HAQQINDA QISA HƏDİSLƏR ........................................................... 55
İSMƏT XƏZİNƏSİNDƏN İNCİLƏR.. 58
İMAM RİZANI (Ə) ZİYARƏT ETMƏYİN FƏZİLƏTİ ............................................. 60
İMAM RİZANI (Ə) ZİYARƏT ETMƏYİN QAYDALARI........................................... 64

İMAM RİZANIN (Ə) ZİYARƏTİNDƏN SONRA OXUNAN DUA ....................................... 98
İMAM RİZANIN (Ə) QISA ZİYARƏTNAMƏSİ .............................................................. 112
HƏZRƏTİ İMAM RİZA (Ə) İLƏ VİDALAŞMA .............................................................. 116
VARİSİN ZİYARƏTİ ........................ 118
ƏMİNALLAH ZİYARƏTİ .................. 128
CAMEEYE-KƏBİRƏ ZİYARƏTİ....... 137
CƏFƏRİ-TƏYYAR NAMAZININ FƏZİLƏTİ180
CƏFƏRİ-TƏYYAR NAMAZININ QILINMA QAYDASI .............................................. 181
**III FƏSİL**
QUM ZİYARƏTİ............................... 188
QUMUN TARİXİ .............................. 189
HƏZRƏT MƏSUMƏNİN(Ə) HƏYATINA QISA BİR BAXIŞ ............................................ 194
HƏZRƏT MƏSUMƏNİN(Ə) HƏYATI .......................................... 194

HƏZRƏT MƏSUMƏNİN (Ə) FƏZİLƏTLƏRİ
............................................................ 198
HƏZRƏT MƏSUMƏNİN (Ə) KƏRAMƏTLƏRİ
............................................................ 201
HƏZRƏT MƏSUMƏ (Ə) VƏ ZİYARƏTİ
HAQQINDA HƏDİSLƏR ......................... 204
HƏZRƏT MƏSUMƏDƏN (Ə)
HƏDİSLƏR..............................................207
HƏZRƏT MƏSUMƏNİN (Ə) ZİYARƏTNAMƏSİ
............................................................ 208
CƏMKƏRAN MƏSCİDİ .................. 219
**IV FƏSİL**
REY ZİYARƏTİ ............................... 225
REYİN TARİXİ ................................ 226
HƏZRƏT ƏBDÜLƏZİMİN (Ə)
HƏYATI .......................................... 228
HƏZRƏT ƏBDÜLƏZİMİN (Ə) ZİYARƏTNAMƏSİ
............................................................ 231
ƏDƏBİYYAT .................................. 243